# Azadlıq və Təhlükəsizlik.

## Almaniya üçün prinsiplər.

Prinsiplər proqramı 3 – 4 dekabr 2007-ci ildə Xristian Demokrat İttifaqının (XDİ) 21-ci partiya qurultayında qəbul edilmişdir.

**Mündəricat** Səhifə

Preambula: 21-ci əsrdə Almaniya üçün xristian demokrat siyasət 3

I . Biz xristian demokratlar

1. Biz kimik – XDİ-nin insan obrazı və əsas dəyərləri 5
2. Bizim cəmiyyət anlayışımız 10
   - Şəxsin azad inkişafı 10
   - Cəmiyyətimizin yekdilliyi 11

II. Dövrümüzün çağırışları – XDİ-nin gələcəyi formalaşdırma perspektivi

1. Dövrümüzün çağırışları 13
   - Təhlükədə olan yaranış 13
   - Kürəsəlləşmiş dünya 14
   - Elm aləminin tələbləri 15
   - Təhlükəyə məruz qalmış təhlükəsizlik 15
   - Demoqrafik dəyişiklik 16
2. Şanslar aləmi Almaniya – Azad və təhlükəsiz yaşamaq 16

III. Möhkəm ailələr – İnsani cəmiyyət

1. Yeni yaşam tərzi – Nəsillərin bir-biri ilə yeni münasibəti 18
2. Cəmiyyətimizin bünövrəsini möhkəmlətmək – Ailələr üçün seçim azadlığı yaratmaq 20

IV. Təhsil və mədəniyyət milləti Almaniya – Elm aləminə olan cavablar

1. Hər kəs üçün geniş təhsil. Başdan başlayaraq, ömür boyu 25
2. Hər şeyi bilməyə çalışan Almaniya: Tədqiqat rifaha zəmanət verir 31
3. Mədəniyyət: Milli kimliyin ifadəsi və dünyaya açıqlıq 33

V. Kürəsəlləşmiş dünyada sosial bazar iqtisadiyyatının yenilənməsi

1. Rifah, firavanlıq və təhlükəsizliyin düzəninin əsasları 37

2. Kürəsəlləşən dünyada sosial bazar iqtisadiyyatı 39
3. İqtisadiyyat və Əmək 41
4. Demoqrafik dəyişikliyin düzəldilməsi –
Bütün nəsillər üçün sosial təminat 46
5. Etibarlı maliyyə, möhkəm Almaniya 51
6. Tarixi nailiyyətlər üzərində qurmaq – Yeni torpaqları inkişaf etdirmək 54

VI. Yaranışı və həyatı qorumaq – Dəyərli ətraf mühit naminə
1. İnsan ləyaqətini qorumaq – Həyatın başlanğıcından sonuna kimi 56
2. Həyatın təbii əsaslarının qorunması 57
3. Kənd təsərrüfatı və kənd yerləri üçün gələcək 63

VII. Fəal vətəndaş, güclü dövlət, dünyəvi ölkə
1. Vətəndaş cəmiyyətini möhkəmlətmək – Şəxsi təşəbbüsə imkan yaratmaq 64
2. Güclü bir dövlət üçün: Vətəndaşlar üçün azadlıq və təhlükəsizlik 67
3. İnteqrasiya ölkəsi Almaniya 72

VIII. Almaniyanın məsuliyyətini və mənafelərini dərk etmək
1. Almaniyanın şansı Avropa 74
2. Azadlıq və sülh üçün çalışmaq – Almaniyanın dünyadakı rolu 80

Qoşma: Əsas sözlərin siyahısı

## Preambula

## 21-ci əsrdə Almaniya üçün xristian demokrat siyasət

Biz xristian demokratlar şüurlu olaraq dəyərlərimizə və məqsədlərimizə uyğun olan bu prinsiplər proqramı ilə Allah və insanlar qarşısındakı məsuliyyətimizi dərk edir və dövrümüzün çağırışlarına cavab veririk.

XDİ mərkəzçi xalq partiyasıdır. Onun daxilində bu gün də 1945-ci ildən sonra yaranmış siyasi cərəyanlar yaşamaqdadır: xristian-sosial, liberal və dəyərlər mühafizəkarları bunlardandır. Biz özümüzü insanın xristian obrazına və onun toxunulmaz ləyaqətinə, habelə azadlığın, həmrəyliyin və ədalətin əsas dəyərlərinə istiqamətləndiririk. Biz buna əsas dəyərlərin doğru nisbəti ilə can atırıq.

Dəyişən dünyada bizə düşünməyə və buna müvafiq olaraq hərəkət etməyə vəzifələrimiz, dəyərlərimiz və dürüstlüyümüz qalır. İnsanın yanlışına baxış bizi siyasəti ideologiyalaşdırma təhlükəsindən qoruyur və bizə siyasətin hüdudlarını göstərir.

İttifaq Almaniyanın tarixində əsaslı mövqe tutmuşdur. Bu gün də biz eyni qətiyyətlə 21-ci əsrin çağırışlarının qarşısında dururuq.

1949-cu ildən sonra XDİ sosial bazar iqtisadiyyatı, qərbin birləşməsi və Avropanın birliyi kimi əsaslı istiqamətləndirici qərarları verərək ölkəmizin azad, ədalətli və dinamik inkişafının özülünü qoydu.

XDİ Almaniyanın birləşməsinin əleyhinə olan ziddiyyətlərə qarşı möhkəm dayandı. Bu imkanlar fürsət yaratdı ki, acı onilliklərdən sonra XDİ-in rəhbərliyi altında ana vətənimizin barış və azadlıqda birləşməsi başa çatsın. Almaniya bu nailiyyətdə özü ilə fəxr edə bilər. Bu uğurlu tarixdə XDİ-in də müəyyən payı var.

Almaniya tarixdə birinci dəfədir ki, yalnız dostları və tərəfdaşları ilə əhatə olunub. Buna əlavə olaraq bizim Amerika və Avropadakı dostlarımız öz mühüm töhfələrini verdilər. Avropanın yaradılması xəyalı heç vaxt bu qədər gözəçarpacaq dərəcədə yaxın olmamışdı: iqtisadi güclü, sosial və hər şeyə hazır olan Avropa dünyadakı bir çox məsuliyyəti öz üzərinə götürərək barış və

azadlıqda birləşir. Etibar və inam qitəmizi digər birləşmələrə və inkişafa gətirib çıxarmağa xidmət edir.

Azadlığın bu iqtisadi və ictimai quruluşu beynəlxalq düzən siyasəti üçün bizim modelimizdir. Kürəsəlləşmə sosial bazar iqtisadiyyatının yeni ölçüsünü tələb edir və eyni zamanda kürəsəl, sosial və ekoloji standartlar yerləşdirmək şansı yaradır.

21-ci əsrin çağırışlarına görə təhlükəsizliyin yeni anlayışı zəruridir: Bu həmişə yeni hədələrə məruz qalan dünyada daxili və xarici təhlükəsizliyi müntəzəm olaraq əhatə edir. O, həm də kürəsəlləşən iqtisadiyyatın və demoqrafik dəyişikliyin şərtləri altında sosial təminatı, cəmiyyətimizdəki yekdilliyi və təhlükəsizliyi, o cümlədən gələcəkdə hər bir nəslin sonrakılar üçün qoruduğu dəyərli ətraf mühitdə yaşaya bilməsini əhatə edir.

Biz ölkəmizə uğur qazandıran insani dəyərləri və xeyirxahlıqları möhkəmləndirərək Almaniyanı irəli aparmaq istəyirik.

Almaniya üçün bizim baxışımız vətəndaşların azad və təhlükəsiz yaşadığı şanslar aləmidir. O, nailiyyət və uğuru dəstəkləyir. Biz bura kimi sosial möhkəmlikdən kənarda qalan cəmiyyət üçün də sosial dayanıqlıq yaratmaq istəyirik. Əmək bazarının daha yaxşı gələcəyinin açarı xüsusilə təhsil imkanlarında və ömür boyu öyrənməkdədir.

Bizim etik əminliyimiz və zəngin təcrübəmiz bizə Almaniya Federativ Respublikasını azadlıq, ədalət və təhlükəsizlik ruhunda, o cümlədən bütün insanlar üçün şans olaraq formalaşdırmağa güc və siyasi dərrakə verir.

# I . BİZ XRİSTİAN DEMOKRATLAR

## 1. Biz kimik – XDİ-nin insan obrazı və əsas dəyərləri

### Mərkəzçi xalq partiyası

1. Xristian Demokrat İttifaqı Almaniyanın mərkəzçi xalq partiyasıdır. O, ölkəmizin bütün təbəqə və qruplarından olan insanlara yönəlib. Bizim siyasətimiz insanın xristian məfkurəsinə və onun Allah qarşısındakı məsuliyyətinə əsaslanır.

2. İnsanın xristian məfkurəsi məsuliyyətli siyasət üçün bizə etik əsaslar verir. Bundan başqa biz bilirik ki, heç bir müəyyən siyasi proqram xristian düşüncəsi ilə hazırlanmır. XDİ hər bir kəs üçün açıqdır, o, bütün insanların ləyaqətini, azadlıq və bərabərliyini tanıyır və bundan irəli gələn siyasətimizə olan etimada müsbət cavab verir. Bu özül üzərində biz XDİ-dəki birgə işimizi qururuq.

3. XDİ Vaymar Respublikasının uğursuzluğundan, habelə nasionalsosialistlərin və kommunist hakimiyyət yaratmaq iddiasında olanların cinayətkarlıqlarından sonra 1945-ci ildən başlayaraq Almaniyanın gələcəyini xristian dəyərlərinə söykənən xalq partiyası yaratmaq istəyən vətəndaşlar tərəfindən yaradılıb. Onların arasında katolik və yevangelik xristianlar, bütün regionlardan və sosial təbəqələrdən olan qadınlar və kişilər vardı. XDİ mühafizəkar, liberal və xristian – sosial köklərə malikdir. Bu ümumi dəyərlər əsasında XDİ-nin üzvləri parlament şurasındakı əsas qanunların işlənməsində fəal iştirak etmiş və on illiklər üçün Almaniyanın azad hissəsində bunlara - sosial bazar iqtisadiyyatına, bütün böyük sosial qanunlara, Almaniya Federativ Respublikasının qərb dəyərləri və müdafiə birliklərində birləşdirilməsinə, habelə Almaniyanın, o cümlədən Avropanın Birliyi kimi azad sahələrin olmasına - qərar vermişdi. Almaniyanın sovetlər tərəfindən zəbt olunmuş hissəsində XDİ qadağan olunurdu.

4. XDİ-nin mənəvi və siyasi əsaslarını xristian kilsəsinin sosial etikasında, maarifçiliyin liberal ənənəsində, birliyin və elmin mühafizəkar qulluğunda, nasionalsosializmə qarşı olmuş xristian və vətənpərvər qüvvələrdə sezmək olar. XDİ-yə xas olan digər hadisə isə 1989-cu ildə ADR-də kommunist diktaturasını devirən dinc inqilab və ana vətənimizin yenidən birləşməsi oldu. Vətəndaşların nailiyyətləri və təcrübələri rifahımızı və XDİ-ni daha da zənginləşdirir. Almaniyanın Xristian Demokrat İttifaqı alman xalqının birlik partiyasıdır.

**İnsanın xristian obrazı**

5. Bizə görə insan Allah tərəfindən onun simasında yaradılıb. İnsanın xristian obrazı ləyaqətimizin toxunulmaz olduğunu özündə ehtiva edir. İnsanın ləyaqəti onun cinsindən, dərisinin rəngindən, milliyyətindən, yaşından, dini və siyasi inancından, habelə şikəstliyindən, sağlamlığından, iş qabiliyyətindən, uğur və uğursuzluğundan və başqalarının mühakimələrindən asılı olmayaraq eynidir. Biz hər bir insana unikal və həyatın bütün mərhələsində əlçatmaz varlıq kimi hörmət edirik. Həmçinin hələ doğulmamış və ölən insanın ləyaqəti toxunulmazdır.

6. İnsanın ləyaqətindən onun şəxsiyyətinin azad inkişafı hüququ və başqalarına qarşı məsuliyyət hissi əmələ gəlir. İnsan azadlığa əxlaqi qərarlar əsasında sahib olur. Xristian məfkurəsinə görə o, Allahın və özünün vicdanı qarşısında məsuliyyət daşıyır və cəmiyyətdə digər insandaşları ilə birgə yaşamağa məhkumdur.

7. Hər bir insan yanlışa və günaha məhkumdur. Buna görə də siyasətin planlaşdırma və formalaşdırma qabilliyi məhduddur. Bu baxış bizi ideoloji radikal və totalitar siyasi məfkurədən qoruyur və o, barışığa hazırolma imkanı yaradır.

8. Biz insanı yaranışın bir hissəsi kimi başa düşürük. O, təbiətlə istədiyi kimi rəftar etməməlidir. Təbiət bizə yalnız yaratmaq və qorunmaq üçün verilib. Biz onu sonrakı nəsillərə necə ötürəcəyimizə görə məsuliyyət daşıyırıq.

9. Demokratik, hüquqi və konstitusiya dövlətlərinin prinsipləri bu konsepsiyaya əsaslanırlar. Bu fikir eyni zamanda xristian əqidəsi üzərində olmayıb insanın ləyaqətini, bərabərliyini və azadlığını əsas götürən dövlətlərə də şamil olunur.

**Bizim əsas dəyərlərimiz: Azadlıq, həmrəylik və ədalət**

10. Bizim birgə yaşayışımız nə özü-özlüyündə nə də bütün zamanlar üçün təmin olunmayan əqli əsaslarla yaşayır. XDİ-nin əsas vəzifəsi azad demokratiyamızın xristian dəyərləri üzərində qurulmuş prinsiplərini qorumaq və möhkəmlətməkdir. Bu prinsiplər siyasi fəaliyyətimizin əsas qaydası və istiqamətidir. Onların özündən bizim əsas dəyərlərimiz olan azadlıq, həmrəylik və ədalət formalaşır. Onlar bir-birini tələb edir, hədlər qoyur və tamamlayır, amma eyni zamanda da onlar mahiyyətcə eyni səviyyədədirlər. Onların bir-biri arasındakı əhəmiyyətini məntiqli

formalaşdırmaq siyasi müzakirələrin əsas işi və özəyidir. Əsas dəyərlər bölünməz insan hüquqları kimi universaldır və milli hüdudlarımızı aşır.

**Azadlıq**

11. İnsan azad yaradılıb. O, əxlaqlı bir varlıq kimi şüurlu və məsuliyyətli qərar verməli və hərəkət etməlidir. Hətta totalitar sistem belə onun daxili azadlığını əlindən ala bilməz. Başqalarının azadlığı fərdi azadlığı şərtləndirir və məhdudlaşdırır. Özü üçün azadlıq tələb edən, öz insandaşlarının azadlığını da tanımalıdır. Azadlıq hüquq və vəzifələri əhatə edir. O, məsuliyyətlə əldə edilir. Siyasətin vəzifəsi odur ki, o, insanlara lazımi azadlığı yaratsın və onu bütün ictimaiyyət üçün vəzifə halına gətirsin.

12. İnsan cəmiyyətdə inkişaf edir. Özünü insandaşlarına qarşı məsuliyyətdən uzaq tutan öz həyatını sərbəstləşdirmir, əksinə aciz və tənha edir. Necə ki, insanı alçaldan asılılıq var, eləcə də özündə azadlığı inkişaf etdirən birliklər var.

13. İnsanın şəxsi ləyaqətini qoruyan hüquq azadlığı müdafiə edir. O, insanların intizamlı və firavan birgə yaşamasını tənzimləyir. Azadlığın qorunması zəruri olan yerdə azadlığın məhdudlaşdırılması mümkündür. Azadlığın gerçəkləşməsi isə sosial ədalət tələb edir. İnsanın qarşılaşdığı münasibətlər azadlığa maneçilik törətməməlidir. Hər kəsin öz həyatını müəyyən etmək imkanları olmalıdır. Zəhmət və mülkiyyətə hörmət edilməli və onlar qorunmalıdır. O cümlədən azadlığın maddi əsasları təmin olunmalıdır.

14. Azadlıq fərdin öz məsuliyyətində olan həyat formalaşdırmağa imkan yaradır. Ona görə də ictimai həyat yardımçılıq prinsipi əsasında qurulmalıdır: Vətəndaş nəyi təkbaşına, ailədə və başqaları ilə könüllü birgə fəaliyyətdə daha yaxşı və ya lap yaxşı edə bilirsə, bu onun vəzifəsi olmalıdır. Dövlət və bələdiyyələr o zaman bu öhdəliyi öz üzərinə götürməlidir ki, tək-tək vətəndaşlar, habelə kiçik birliklər bunu etmək iqtidarında olmur. Yardımçılığın əsasları kiçik və böyük birliklər, eləcə də azad ittifaq və dövlət müəssisələrinə şamil edilir. Yardımçılıq tələb edir ki, ictimai-siyasi tələbatlar fərdlərin yaxud kiçik birliklərin məhsuldarlığını tələb etdikdə, həm iri cəmiyyətlər həm də dövlət təbəqələri onların bu ehtiyacları ilə məşğul olsunlar.

15. Azadlıq özünü praktik həyatda şəxsi məsuliyyət və başqalarının məsuliyyəti vasitəsilə gerçəkləşdirir. Vətəndaş azadlığı ailədə, qonşuluqda, iş həyatında, asudə vaxtlarında, habelə icma və dövlətdə öyrənməli və yaşamalıdır. O, iştirak etməli, birgə məsuliyyət daşımalı, seçməli

və qərar verməlidir. Obyektiv fikir və məsuliyyətli əməkdaşlıq onu ideologiyaların təsiri altına düşməkdən qoruyur. Biz məsuliyyətin və rifahın, vəzifə və vətəndaş səxavətinin əhəmiyyətini gücləndirmək istəyirik.

16. İnsanın zəhməti şəxsin azad inkişafına aiddir. İnsanın heç bir işdən asılı qalmayan ləyaqəti və hüququ var, amma işləmək qabiliyyətinin olması onun həyat enerjisinin mühüm mənbəyidir. Nailiyyət qaçılmaz mexanizmdir. İşləyib-işləməməkdən asılı olmayaraq şəxsi iş iradəsini və təşəbbüsü irəli çəkmək lazımdır. Şəxsi nailiyyət olmadan nə birgə yaşayış inkişaf edər, nə rifah əldə edilə, nə də qoruna bilər.

17. Hər bir vəziyyətə hazır olmaq və özünü həm daxildən həm də xaricdən müdafiə etmək azadlığa məxsus bir şeydir. Biz müdafiəyə qabil demokratiyanı və hüquqi dövlətçiliyi öz boynumuza götürürük. Kim azaddırsa, azadlığı boğulanın azadlığını müdafiə etmək onun vəzifəsidir. Azadlıq bir-neçə millət və ictimai qruplarla məhdudlaşmamalıdır. Biz bütün insanlar üçün azadlıq istəyirik və bunun üçün əlimizdən gələni edirik.

**Həmrəylik**

18. Həmrəylik digərinə olan sevgidən törəyir və insanın sosial təbiətinə xasdır. Hamı üçün ləyaqətli həyatı mümkün etmək məqsədi bizim həmrəy hərəkət etməyimizi tələb edir. Həmrəylik hər şeydən öncə özü üçün hələ azad həyatın əsasını qoya bilməyən, heç vaxt qoya bilməyəcək yaxud əbədi olaraq qoya bilməyən insanlara şamil edilir.

19. Hər kəsin həmrəylik hüququ və vəzifəsi var və onlar öz işi və nailiyyəti ilə fərdlərin birliyini müdafiə etmək üçün töhfə verir. Biz bu qarşılıqlı məsuliyyətə etibar edirik. Həmrəyliyin ən elementar formaları isə ailədə, dostlar və qonşular arasında və şəxsi sahələrdə göstərilən kömək və verilən dəstəkdir. Lakin haradakı fərdlərin gücü istismar olunur, bu zaman ictimaiyyət və dövlət yardım göstərməlidir.

20. Sosial təminat həmrəyliyin təməl ideyalarına əsaslanır. Tək öhdəsindən gəlinə bilməyən risklər bir olanda həll olunur. Bu vaxt həyatın sosial təhlükəsizliyini mümkün etmək üçün nə sədəqə nə də pulsuz xidmətlər tələb edilir. Həmrəylik naminə qurban verməyə hazır olmaq lazımdır. Kim dövlətin həmrəyliyinə bel bağlayırsa, bu zaman onun dövlət qarşısında vəzifələri var. Sosial təminat hüzurlu və sakitləşdirici təsirə malikdir. Həmrəylik sosial təminatdan sui-istifadə etməyi qadağan edir.

21. Həmrəylik yardımçılığı tələb edir. Yardımçılıq isə məsuliyyətli hərəkət tələb edir. Dövlət vətəndaşa bu işi mümkün etməli və asanlaşdırmalıdır.

22. Həmrəylik bizə gələcək nəsillər qarşısında öhdəlik qoyur. Nəsillər arasında həmrəylik olmadan nəsillər üçün ədaləti əldə edə bilmərik. Bütün siyasi qərarlar bu məsuliyyətə sadiq qalmalıdır. Biz uşaqlarımızın və nəvələrimizin hesabına yaşamamalıyıq. Eyni zamanda biz dünyanın başqa yerlərində yaşayan insandaşlarımızın hesabına yaşamamalıyıq. Biz xalqların bəşəri həmrəyliyinin tərəfdarıyıq. Həmrəylik olmadan kasıb və zəngin arasında olan uçurumu aradan qaldırılmaq və yaranışı qorumaq qeyri-mümkündür.

**Ədalət**

23. Ədalətin əsas prinsipi bütün insanların Allah tərəfindən verilmiş ləyaqət və azadlıqlarında bərabərliyidir. Ədalət bu ləyaqəti və azadlığı qoruyur. Ədalət bərabərliyə bərabər və bərabərsizliyə qeyri-bərabər yanaşmağı tələb edir. Hüquqi dövlətdə ədalət hamının bərabər hüquqlu olması deməkdir. Hüquq hərkilikdən və hakimiyyətdən sui-istifadədən qoruyur. O, həmçinin zəiflər üçün azadlığı təmin edir.

24. Ədalətli imkanlar yaratmaq hüquq qarşısında bərabərliyin zəruri komponentidir. Hər kəsin şəxsi qabiliyyətinə uyğun olaraq özünü azadlıqda inkişaf etdirməsi üçün bərabər imkanları olmalıdır. Biz hər bir insanın öz həyat imkanlarını sərbəst və məsuliyyətlə dərk etməsini dəstəkləyirik. Bunun üçün şanslar aləmi ilkin şərtlər və imkanlar təklif edir. O, imkanca ədalətli bölünmüş həyat şansları bazasından yetişir. Bu təhsil yollarında və iş həyatında bərabər başlanğıc şanslarını tələb edir. Bura isə fərdin şəxsi planlarındakı fərqliliyinin inkar edilməsi daxil deyil. Biz bərabər imkanlar açmaq istəyirik, eyni nəticələrə vəd verməyi yox.

25. Ədalət yükü bərabər ölçüdə paylaşdırmağı tələb edir. Ona görə də güclülərin birgə yaşayışımız üçün zəiflərdən daha çox töhfə verməsi ədalətli sayılır.

Hətta biz cəmiyyətimizdə daha çox ədalətin olmasını səylə dəstəkləsək də, bilirik ki, tam ədalətə nail olmaq qeyri-mümkündür. Biz zəifə və sosial zərərçəkənə qarşı xüsusi məsuliyyət daşıdığımızı hiss edirik. Heç kim itirilməməli və heç kəs unudulmamalıdır.

26. İnsana layıq həyatda insanların haqqı tapdandığı, fərdin, müəyyən qrupların yaxud bütün xalqların azadlığı boğulduğu yerdə zorakılıq və nifaq ağalıq edir. Biz insan haqlarına qarşı hörmətin və vətəndaş hüququnun və sosial, eləcə də iqtisadi ehtiyacların aradan qalxmasının tərəfdarıyıq. Bununla biz xalqlar arasındakı barışa və ədalətli dünyaya töhfə veririk.

## 2. Bizim cəmiyyət anlayışımız

27. Xristian demokrat ittifaqımızın mənəvi prinsipləri bizi cari və gələcək çağırışların öhdəsindən gəlmək üçün qabilləşdirir. Siyasət dəyişikliyik çağlarında cəmiyyətdə və dövlətdə təcili problemlərin həllini gündəmə gətirən çərçivə şərtləri yaradır. Almaniya üçün siyasətimiz hər kəsin azadlığını təmin edən və hamının bir-birinə ehtiyacı olduğu cəmiyyətə can atır.

### Şəxsin azad inkişafı

28. Həyatın mənasının və xoşbəxtliyin axtarışında hamının öz həvəsinə və bacarığına uyğun özünü inkişaf etdirmək şansları olmalıdır. Xristian məfkurəsinə görə azad inkişaf yalnız ictimaiyyət arasında olur. Fərdin və cəmiyyətin əlaqələri qarşılıqlı zənginlikdir. Fərd özünün bütöv şəxsiyyətini yalnız başqaları ilə münasibətdə inkişaf etdirə bilər. Cəmiyyət onun azad və özünə güvənən şəxsiyyətinin inkişafından asılıdır. Bu şanslar aləmini səciyyələndirir. Orada hər bir fərd yaradıcılığı və innovasiyanı inkişaf etdirə bilir. Şanslar aləmindəki bu azad inkişaf eyni zamanda onun daxili yekdilliyinə imkan yaradır.

29. XDİ vətəndaşların öz işlərinin öhdəsindən gələ bilmək bacarığına və hazırlığına etibar edir. Siyasətin vəzifəsi odur ki, vətəndaşın fərdi məsuliyyətinə imkan yaratsın və ehtiyac duyulduqda özü-özünə yardıma kömək etməyi təklif etsin. Məsuliyyət daşıya bilmək üçün insan öz gücünü və istedadını sərbəst inkişaf etdirməlidir.

İnsan ilk dəfə ailədə azadlıq və məsuliyyətin qarşılıqlı təsirini öyrənir. Eyni zamanda ailələrdən şəxsiyyətlərin çeşidliliyi öz bacarıqları ilə ortaya çıxır ki, bundan da cəmiyyətimiz asılıdır. XDİ nikahı və ailəni cəmiyyətin özülü kimi gücləndirmək istəyir, eləcə də ailə və uşaqcanlı cəmiyyətin olmasını, habelə nəsillərin mehriban birgə yaşamasını dəstəkləyir.

Tərbiyə və təhsil şəxsin azad inkişafı üçün və azadlıq hüquqlarını, o cümlədən vətəndaş borcunu dərk edə bilmək üçün ilkin şərtlər yaradır. XDİ fərqli təhsil sistemini elə təkmilləşdirmək istəyir ki, hər kəs öz istedadının inkişafı üçün ən yaxşı şansları dərk edə bilsin.

İnsan özünü həm də işdə inkişaf etdirir. Buna görə də tam məşğulluq XDİ-nin məqsədidir. Sosial bazar vətəndaşa rəqabətdə iştirak etmək və onun iş bacarığını bilmək imkanı yaradır. Rəqabət XDİ-i üçün təkcə iqtisadiyyatda önəmli funksiya daşımır. Biz əminik ki, ədalətli rəqabət insanları bacarıqları ilə ən yaxşı şeylər yaratmağa həvəsləndirir. Demokratik hüquqi dövlət vətəndaşlarına azad inkişaf məkanı üçün zəmanət verir və onları diskriminasiyadan qoruyur. XDİ azadlıq və düzən balansının tərəfdarıdır.

30. Qadınların və kişilərin bərabər hüquqluluğu (Gender bərabərliyi) təməl hüquqdur. Bizim siyasətimizin məramı odur ki, qadınlar və kişilər, qızlar və oğlanlar üçün bərabər imkanlar yaradaq və bütün sahələrdə narazılığı aradan qaldıraq. Biz qadınları və kişiləri eyni səviyyədə görən tarazlı siyasətin tərəfdarıyıq. Bizim fikrimizcə, bura bərabər peşə imkanları, karyerada bərabər inkişaf şansları və bərabər məvacib, eləcə də ailə işlərinin dəyərləndirilməsi, ailə və işin bir-birinə uyğunlaşdırılması aiddir. Məhz qadınların gətirdiyi spesifik baxış tərzi və təcrübələri cəmiyyətimiz üçün böyük məna kəsb edir.

**Cəmiyyətimizin yekdilliyi**

31. İnsan azad inkişaf edə bildiyi yerdə birlik mövcuddur. Yardımçılıq prinsipi birlik və vətəndaş çabası yaradır. XDİ azad və həddi-buluğa çatmış vətəndaşların bir olduğu və bir-birini dəstəklədiyi cəmiyyətə can atır: cavan yaşlını, yaşlı cavanı, güclü zəifi, zəif isə güclünü. Cəmiyyət birgə məsuliyyət daşımalıdır ki, hər kəs öz yerini tapa bilsin.

32. Cəmiyyətimizin yekdilliyinin özülü bizim bir millət kimi birliyimizdədir. Bizim ümumi dilimiz, tariximiz, habelə yenidən birləşmiş milli dövlətimizdəki yaşam və davranışlarımız vətənpərvərlik hissini əsaslandırır. Biz qara–qırmızı-qızılı bayrağımızı və milli himnimizi demokratiyamızın simvolları kimi qiymətləndiririk. Millət keçmiş üçün, indiki zaman üçün və gələcəyin formalaşdırılması üçün məsuliyyət daşıyır. Ölkəmizə gələn və uzun müddət bizimlə yaşamaq istəyən hər kəs bu ölkəyə və onun tarixinə bələd olmalı və bununla ölkəmizdə öz yerini tapmalıdır.

33. Liberal cəmiyyətimizin birgə dəyərləndirilməsi, vətənpərvərlik, könüllülük olmadan, vətəndə və millətdə öhdəliklər yerinə yetirilmədən, məsuliyyət daşınmadan və həmrəylik olmadan dövlətimiz çiçəklənə bilməz. Tariximizin elm və incəsənətdə, iqtisadiyyat və siyasətdə çoxlu təcrübəsi və böyük nailiyyətləri var. Hüquqi dövlətin, konstitusiya və yaxşı idarəçiliyin önəmli

ənənəsinə nəzər salırıq; biz sosial dövlət yaratmışıq və sosial bazar iqtisadiyyatını inkişaf etdirmişik, biz onilliklərdən bəri barış içində və Avropa xalqları ailəsinin bir hissəsi kimi sabit demokratiyada yaşayırıq və biz dinc yolla yenidən birləşməmizə nail olmuşuq. Lakin kimliyimizə aiddir ki, biz insan onurunu heçə sayan nasionalsosializmin utancverici illərini əbədi xatirə kimi yadda saxlayaq, onu unutmayaq və yaddan çıxarmayaq. Bizim üçün vətənpərvərlik ölkəmizin keçmişini dərk edərək gələcəyini məsuliyyətlə formalaşdırmaqdır.

34. Tarix və mədəniyyətin səciyyələndirdiyi azad vətəndaşın cəmiyyəti kimi özümüzü özümüzə etiraf etməklə biz inteqrasiyanı və iştirakı təkidlə tələb edə bilərik. Bu cəmiyyətin bir hissəsi olmaq onun tarixində, ənənə və təcrübələrində, birgə yaşamın forma və normalarında, eləcə də onun mədəniyyətində iştirak etmək deməkdir. Bu hər bir almana və gəlmələrə, eləcə də onların uşaqlarına da şamil edilir.

Birgə yaşamağımızın ilkin şərtləri bunlardır: Alman dilini bilmək, vətəndaşlara hörmətlə yanaşmaq, işləməyə və məsuliyyətə hazır olmaq. Hər bir vətəndaş ictimai və siyasi quruluşumuzun bizim hamımız üçün məcburi olan mədəni əsaslarını qəbul etməlidir. Bunlar Avropa millətindən biri olaraq tariximizdən irəli gələn və anayasamızdakı dəyərlərdir: hər bir insanın ləyaqətinin toxunulmazlığı, öz şəxsiyyətinin azad inkişafına hüquq, insanların bərabərliyi və vətəndaşların hüquqlarının bərabərliyi, həyat tərzlərinin və ruhi oriyentasiyaların qəbul edilməsi, eləcə də din azadlığı.

35. XDİ ictimai inteqrasiyanın işini birmənalı olaraq başa düşür. Hər kəs özünü azad inkişaf etdirməli və sosial, siyasi, iqtisadi və mədəni həyatda iştirak etməlidir. Bununla belə, XDİ gəlmələrin və onların uşaqlarının cəmiyyətimizə inteqrasiyasını aparıcı missiya hesab edir. İnteqrasiya bərabərhüquqlu iştiraka, qarşılıqlı anlayışa və eyni zamanda ölkəmizlə identifikasiyaya gətirib çıxarır.

36. Bizim siyasi mədəniyyətimiz Avropa ümumiliyinə və alman tarixinin xüsusiyyətlərinə söykənir. Bura hər şeydən öncə federal və konfessional ənənələr, dövlət və kilsə arasındakı xüsusi münasibət və almanlarda hər iki totalitar rejimin təcrübəsindən gələcək üçün yaranan məsuliyyət aiddir.

37. Bu mədəni dəyərlər və tarixi təcrübələr cəmiyyətimizin yekdilliyi üçün əsasdır və Almaniyada aparıcı mədəniyyətimizi təşkil edir. Biz onları həyatla doldurmaq istəyirik.

Mədəniyyətimiz tarixdə, indiki zamanda və gələcəkdə Avropa ilə səciyyələndirilir və oriyentasiyası budur. Bu Avropa ölçüsü Avropanın irəliləyən birlik prosesində mühüm əhəmiyyət kəsb etməyə davam edəcək.

## II. Dövrümüzün çağırışları – XDİ-nin gələcəyi formalaşdırma perspektivi

### 1. Dövrümüzün çağırışları

38. Biz epoxal dəyişiklik zamanında yaşayırıq. Ətraf mühitimizin təhlükəyə məruz qalması, kürəsəlləşmənin nəticələri, elm aləminin tələbləri, azadlığımıza olan yeni hədələr və demoqrafik dəyişikliklər belə çağırışların bariz nümunələridir. Biz onları qəbul etməli və nəzərdə saxlamalı, eləcə də onlarla əlaqədar olan şansları 21-ci əsrdə məsuliyyətli və gələcəyə yönəlik siyasət üçün istifadə etməliyik. Lakin bunun üçün biz dəyişikliklərə də hazır olmalıyıq. Beləliklə, ölkəmiz sosial dövlət kimi yanlış inkişafları və struktur zəifliklərini düzəltməyə məcburdur. XDİ cəmiyyətimizin böyük mərkəzçi xalq partiyası kimi ölkəmizi tərəqqiyə aparan şeyləri qorumaq və onun inkişafına əngəl olan şeyləri isə dəyişdirmək istəyir.

**Təhlükədə olan yaranış**

39. Xristian məfkurəsinə görə yaranış bizə qurmaq və qorumaq üçün həvalə edilib. Bu gün biz müəyyən etməliyik: Yaranış təhlükə altındadır.

40. Yeni texnoloji inkişaf insanı etik sınırlara gətirib çıxarır. Beləliklə, biotibbi və gentexnik tədqiqatlar xəstəliklərin müalicəsinə və ağrıların yüngülləşməsinə mühüm töhfə verir. Onlar eyni zamanda risklərin qarşısını alırlar: Əgər hüdudsuz idrak arzusu və vicdansız bazarlaşma birləşərsə, yaranış və insan ləyaqəti təhlükə altına düşər. Eləcə də tədqiqat azadlığı insan ləyaqətinin toxunulmazlığına və yaranışa hörmət etməlidir.

41. Kürəsəl iqlim dəyişikliyi həyatımızın əsaslarını və sonrakı nəsillərin inkişaf şanslarını təhlükəyə salır. Enerjiyə olan tələbat və fossil enerji daşıyıcılarının istifadəsi bütün dünyada artır. Artan isidici qaz emissiyalarının və bununla əlaqəli olan iqlim istiləşməsinin insan və təbiət üçün kifayət qədər acı nəticələri var: Buzlaqların əriməsi, dəniz səviyyəsinin artması, dəniz sularının şorlaşması, daşqınlar, sellər, nəsil kəsilmə, yeni səhralar və quraqlıqlar, habelə insanı aclığa məhkum edən və öz vətənindən mühacirliyə məcbur edən fəlakətlər.

**Kürəsəlləşmiş dünya**

42. Kürəsəlləşmə siyasi, iqtisadi və kommunikasiya sərhədlərinin bütün dünyaya açıq olmasıdır. O, insanların mobilliyi, ideyaların, informasiyaların, əmtəənin, xidmət və kapitalın mübadiləsi, habelə bazarların şəbəkələşməsi ilə xarakterizə edilir. O, azadlığın ifadəsidir və rəqabəti gücləndirir.

43. Kürəsəlləşmə dünyada insanlara ictimai, siyasi, iqtisadi imkanlar açaraq siyasi və iqtisadi cəhətdən irəliyə aparan məhsuldar inkişaf prosesidir. Biz kürəsəlləşməni elə formalaşdırmaq istəyirik ki, dünyada demokratiya və insan haqları güclənsin və sosial və iqtisadi məqsədlər dəstəklənsin. Bir dünyada yaşamaq şüuru artır. Lakin kürəsəlləşmə dünyada - ölkələr arasında və hər bir ölkənin daxilində yoxsulluğun və zənginliyin paylaşmasına gətirib çıxarır.

44. Əmtəə və xidmət bazarlarının şəbəkələşməsi dünya maştabında regionların rəqabətliyi olan sahələrin beynəlxalq rəqabətliyini gücləndirir. Kürəsəl maliyyə bazarları bütün dünyada sərmayə qoymağa və almağa imkan yaradır. Çox az cəlbedici regionlara qoyulmayan yaxud orada özünü doğrultmayan bütün kapital gələcək potensialı olan və yüksək gəlir gözlənilən regionlara axır. Eyni zamanda bu istedad və elm bazarına da şamil edilir. Bununla da bütün sahələrdəki kürəsəl rəqabət və iqtisadiyyat sistemləri yeni ölçü əldə edir. Bu inkişaf eyni zamanda milli idarəçiliyi azaldır və beynəlxalq düzən çərçivələrini daha da zəruri edir.

45. Bir çox insan Almaniyada kürəsəlləşməni və ondan irəli gələn tələbləri onların iş yerlərinə, işgüzar gələcəklərinə və uzun müddətə əldə etdikləri sosial təminatlarına hədə kimi görürlər. Bu qorxuları ciddiyə almaq lazımdır. Lakin Almaniya sərhədlərin açılmasından və beynəlxalq bazarların birləşməsindən faydalanmışdır - geniş bazar imkanları olan müəssisələrdən yüksək gəlirli iş yeri təklif edən işə götürənlər, daha çox və daha yaxşı məhsul vasitəsilə istehlakçılardan müxtəlif sərmayə imkanları olan sərmayəçilər. Əgər biz özümüzü kürəsəl rəqabətdə təsdiq ediriksə, ölkəmiz üçün sosial təminat və sabitliyin gələcək iqtisadi əsaslarını möhkəmlədirik və özümüzün daha da inkişafı üçün hər gün yeni imkanlar yaradırıq. Mümkün qədər bütün insanlar inkişaf imkanlarında, elmdə və kapitalda iştirak edə bilməlidir.

**Elm aləminin tələbləri**

46. Müasir informasiya və kommunikasiya texnologiyaları elm aləminin inkişafına təkan verir. Dəyərlərin yaranışında elmə düşən pay artır. Bununla da tam yeni elm sahələri və məşğulluq imkanları yaranır.

47. Gələcəyin elmi şəbəkələnir və şaxələnir. Bu minvalla elmin sahələri də getdikcə dəyişir. Elmin nailiyyəti, idarə edilməsi və istifadəsi artıq bu gün rifah və cəmiyyətin dolğun olmasından ötrü hər bir fərdin yaşam imkanlarını yaratmaq üçün mərkəzdə durur. Elm ən vacib sərvətdir. Burada Almaniya kimi xammal mənbəyi az olmuş və gözünü ancaq elm və tədqiqat sahələrinə dikən dövlət üçün böyük imkanlar var. O cümlədən burada dünya bazarlarındakı yeni dinamik rəqib üçün çağırışlar var.

48. Bu gün insanlıq elminin inkişaf etdiyi və elmi-texniki tərəqqi ilə yeni sahələrin öyrənildiyi vaxtda təhsilin əhəmiyyəti daha da artır. Zira fərdlərə heç cür müyəssər olmur ki, sərəncamdakı informasiyaların get-gedə artan kütləsini yeni bilgilərə işləyib hazırlasın. Elm qeyr-bərabər ölçüdə paylanıb və daha tez köhnəlir. Nə qədər çətin olsa da mümkün qədər çox adam bunda iştirak etməlidir. Mümkün qədər çox iştirak isə Almaniyada şanslar cəmiyyətinin reallığı üçün vacib ilkin şərtdir.

**Təhlükəyə məruz qalmış təhlükəsizlik**

49. Öz tarixində ilk dəfə ölkəmiz dostları və tərəfdaşları tərəfindən əhatələnib. Lakin buna baxmayaraq Almaniya və Avropa bu gün dünyanın hər bucağından hədələnə bilər. Fəlakətlər və onların nəticələri, dövlətlərin parçalanması, vətəndaş müharibələri, yoxsulluq, aclıq, epidemiya və ətraf mühitin korlanması yaxud da ki, sərhədsiz cinayətkarlıqlar bizə də təsir edir. Sərhəd tanımayan terroristlər və kütləvi qırğın silahlarının artırılması böyük təhlükələrdən xəbər verir. Eləcə də Almaniyanın azadlığı və rifahı asılı olan təbii sərvətlər və enerji mənbələri üstündə gedən mübahisələr dünyadakı barışa risklər gətirir.

50. Ən son 11 sentyabr 2001-ci il terror hadisəsindən bəri bilirik ki, azad və açıq cəmiyyətlər necə zəifdir və ölkəmiz, eləcə də beynəlxalq dövlətlər birliyi hansı çağırışların qarşısında durur. Biz kürəsəlləşmiş dünyada asimmetrik hədələrin təsiri ilə bilavasitə üzləşirik. Bu inkişaflar bizi təkcə bir dövlət kimi yox, cəmiyyət və mədəniyyət olaraq çağırır.

Təhlükəsizlik üçün yeni hədələr daxildə də yaranır. Beləliklə, azad demokratik anayasa dövlətimiz, onun dəyərləri və normaları sol və sağ ekstremizm, zorakı fundamentalizm, terrorizm və mütəşəkkil cinayətkarlıq vasitələri ilə hədələnir.

**Demoqrafik dəyişiklik**

51. Dünya əhalisinin sürətlə artdığı ərəfədə biz almanlar azalırıq. Doğuşlarımız dünyada ən aşağı sayılır və əhalinin sayını artıra bilmir. "Əhali piramidası" tərsinə durur.

52. Böyük hissəsi yaşlı adamların payına düşən və getdikcə azalan əhalimiz cəmiyyətimizi dəyişəcək. Gələcəkdə yaşlılar uşaq və nəvə sahibi olmayacaqlar; ailə telləri getdikcə incəlir. Uşaqsız və yaşlı cəmiyyət sürətli dəyişən dünyada ciddi sınağa məruz qalacaq.

53. Daha az işləyənlər işləməyən insanların qeydinə qalmalı olurlar. Təqaüdçü və pensiyaçıların xərcləri getdikcə artacaq. Bizim bura kimi qoruduğumuz sosial təminat sistemlərimiz bu inkişaflara dözmür: Onlar dəyişilmiş vəziyyətə uyğunlaşdırılmalıdır. Nəsillər arasında ədalətli olmaq lazımdır. Eyni zamanda Almaniyanın regionlarında əhalinin inkişafı müxtəlif nəticələrə gətirib çıxaracaq. Biz Almaniyanın hər bir bölgəsində yaşam münasibətlərinin bərabər olmasına səy göstəririk.

Ümumiyyətlə, demoqrafik dəyişikliyə əngəl olmaq siyasi vəzifədir, çünki onun təsiri həyatın bütün sahələrinə sirayət edir.

54. Üzləşdiyimiz çağırışlar bir çox insanı narahat edir və təşvişə salır. XDİ bu proqramla əminliklə cavab verir ki, yararlı olan qorunub saxlanmalıdır, lakin biz zəruri dəyişikliklərlə gələcəyi formalaşdırmaq şanslarından istifadə etməliyik.

## 2. Şanslar aləmi Almaniya – Azad və təhlükəsiz yaşamaq

55. İnsanın xristian obrazı gələcəkdə də bizim əsas prinsipimizdir. Hər insanın öz şəxsini azad inkişaf etdirmək hüququ var. Lakin hər kəs insandaşları üçün də məsuliyyət daşıyır. İdeal şanslar aləmimiz inkişaf və məsuliyyətin, azadlıq və təhlükəsizliyin bu tarazlığını nəzərə alır. Bu baxış insanın xristian obrazına müvafiq təməl təfəkkürün əsaslarıdır.

Şanslar aləmi insani cəmiyyətin özəyidir. O, insanları qabilləşdirir və imkanlar açır. Biz nailiyyət və uğura olan hörməti, uğursuzluq halında yeni şansların yaradılması hüququnu, zəiflərə qarşı həmrəyliyi dəstəkləyirik.

Biz indiyədək ondan təcrid olunmuş cəmiyyətlər üçün də sosial dayanıqlıq istəyirik. Fərdin sosial mənşəyi onun gələcəyi üçün həlledici amil olmamalıdır. XDİ üçün nəticələrin eyniliyi yox, şanslar ədaləti və bununla özünün cavabdeh olduğu həyatı qurmaq məqsəddir. Hər bir insan qorunması və müdafiə olunması gərəkən əvəzedilməz fərddir. Bizim bütün siyasi düşüncələrimizin mərkəzində azad və məsuliyyətli insan durur, dövlət yox.

20-ci əsrin sosial bazar iqtisadiyyatı "hamı üçün rifah"a imkan yaratdı. Biz buna söykənərək, "hamı üçün şanslar"la ilkin şərtlər yaradırıq ki, 21-ci əsrdə də sosial bazar iqtisadiyyatının müsbət təsiri tam inkişaf edə bilsin. Buna görə biz xidmət göstərməyə hazırlığı və bacarığı, öz gücünə inamı, sosial məsuliyyəti və birliyi möhkəmlədən şərtlər formalaşdırırıq.

**Azad yaşamaq**

56. Çox şey hərəkətə gələn zəmanədə bizim hamımız azadlıq üçün cəsarətli olmalıyıq. Azadlıq olmadan heç bir şans istifadə oluna bilməz. Biz gələcəyi əldə etmək üçün azadlığın qüdrətinə və bununla özümüzə etibar etməliyik. Sürətlə dəyişən dünyanın çağırışlarını qəbul etmək və onların öhdəsindən gəlmək təkcə nailiyyət iradəsi, israr və intizam yox, həm də maraq və yaradıcılıq tələb edir. Yalnız yeni və cəsarətli ideyalarla - elmi, mədəni, sosial, iqtisadi və siyasi - biz yaxşı və həvəslə yaşadığımız ölkə kimi qala bilərik.

Dövlət azadlığı təmin etməlidir. Gənclərimizə kömək etmək üçün o, tez-tez özünü geri çəkməli və bəzən də güclü irəli sıçramalıdır.

**Təhlükəsiz yaşamaq**

57. Çox şey hərəkətə gələn zəmanədə insanlar təhlükəsiz həyata ehtiyac duyur. Siyasətin vəzifəsidir ki, o, insanların təhlükəsiz yaşaya biləcəyi şərtlər çərçivəsi yaratsın.

Bu gün təhlükəsizliyin bir çox ölçüsü var. Nəsillərin ailəsinin və cəmiyyətin yekdilliyinin güclənməsi, tərbiyənin və təhsilin təkmilləşməsi, eləcə də sosial bazar iqtisadiyyatının

yeniləşməsi sosial təminat üçün şərtlər yaradır. Sosial cəhətdən əmin yaşamaq həmrəyliyə etibar etmək, həmişə yeni şanslar qazanmaq, kürəsəl elm aləmində iştirak etmək deməkdir.

Bizim ölkəmizdə milli kimlik insanlara öz gələcəklərini qurmağa qüvvət verən təhlükəsizlik vəd edir. Əgər özümüzü bizi idarə edən rəhbərliyə inandırırıqsa, azadlıq və məsuliyyəti dərk edə bilmək üçün daxili təhlükəsizlik qazanırıq. Almaniyadakı aparıcı mədəniyyətin bazası əsasında mühacirlərin ictimai inteqrasiyası mədəni təhlükəsizliyə mühüm töhfədir.

Daxili təhlükəsizlik siyasətimizin məqsədi dövlətin risklərdən qorunma və cinayətkarlıqla mübarizə imkanlarını qətiyyətlə yaxşılaşdırmaqdır. Dünyada həyatımıza qarşı hədələrin olmasına görə daxili təhlükəsizliyimiz xarici təhlükəsizlik siyasətindən ayrılmazdır. Daxili və xarici təhlükəsizlik bir-biri ilə əlaqəli nəzərə alınmalıdır. Ətraf mühiti və iqlimi qoruyan davranışımızın da aid edildiyi təbii yaşam əsaslarımızın mühafizəsi bizdən sonrakı nəsillərə təhlükəsiz yaşaya bilmək imkanı yaradır.

58. XDİ azadlığın, həmrəyliyin və ədalətin yaşandığı cəmiyyətin tərəfdarıdır. Əgər əsas dəyərlərə düzgün riayət edilərsə, insanların təhlükəsizlik ehtiyacı yerinə yetirilər. Azad və təhlükəsiz həyat şanslar aləmində gerçəkləşir.

## III. Möhkəm ailələr – İnsani cəmiyyət

### 1. Yeni yaşam tərzi – Nəsillərin bir-biri ilə yeni münasibəti

59. Təkcə zahiri münasibətlər yox, həmçinin həyat səviyyəsinin səciyyəsi və nəsillərin rolu dəyişib. Həssas və gələcəyə yönəlmiş siyasət insanların yeni yaşam tərzinə uyğun olan cavablar axtarmalı və nəzərə almalıdır ki, adam bu gün daha da yaşlaşır və sağlam qalır .

60. Gənclərin bu gün əvvəlki vaxtlara nisbətən daha az şansları var ki, onlar ictimai birgəliyi ailə daxilində öyrənsin. Əvvəllər böyük ailədə müxtəlif həyat növləri və peşə istiqamətlərinin anlaşılan olduğu fərqli həyat formaları indi uşaqların və gənclərin idarə edə bildiyi hərtərəfli ailə nümunələrindən fərqli olaraq daha nadir hallarda hazır olurlar. Gənc nəslin uğurlu həyat əldə etmək üçün yalnız çoxlu biliyə yox, həmçinin sosial səlahiyyətlərə ehtiyacı ki, həyatlarını qura bilsinlər. Gənclərə həmçinin aid edilir: Hər kəs bacardıqca yaxşı çalışmalıdır. İnsanları özünə qarşı məsuliyyətə və həmrəyliyə ruhlandıran siyasət sosial siyasətdir.

61. Uzun çəkən məktəb və peşə təhsili, eləcə də öyrənmə güzəran və ailənin qurulması üçün vaxtı qısaldır. Eyni zamanda nəsillərin birgə yaşayışının fəaliyyət göstərməsi üçün yaşlı nəslin üzərinə xüsusi öhdəlik düşür: O, uşaqları tərbiyə edir, ailənin yaşlı üzvlərinin qeydinə qalır, nəsillərin razılaşmasına öz payını verir və əvvəlkilərdən daha yüksək ölçüdə öz yaşıdlarının qeydinə qalır. Ailənin və işin birliyi xristian demokratik siyasətin özəyidir. Biz istəyirik ki, ailələrimizdə işi və məsuliyyəti öz üzərinə götürənlərin, cəmiyyətin bütün sahələrindən geniş dəstək alanların sosial sığorta və vergi sistemlərində vəziyyətləri daha yaxşı olsun.

62. Yaxın gələcəkdə təxminən cəmiyyətin üçdə bir hissəsi təqaüdə çıxandan sonra ömrünün üçdə birini yaşayacaq. Fəaliyyətsizlikdən danışmaq isə yanlış olardı. Əksinə, yaşlılar öz həyat təcrübələri ilə cəmiyyət üçün nəhəng kapital imkanıdır. Onlar həmişə özlərini fəda etməyə hazırdırlar. Biz uşaqlar və gənclərlə, valideynlər və işləyənlərlə canlı birgəyaşayışı qurmaq üçün yaşlı vətəndaşlarımıza daha çox və daha yaxşı təkliflər irəli sürmək istəyirik. Hər kəsin öz vəzifəsi var. Hər kim qıraqda qalmayacaq.

63. Sağlamlıq siyasəti üçün biz cəmiyyətin uzun ömür anlayışını istəyirik. Yaşlı bir cəmiyyətdə sağlamlıq siyasəti təkcə yüksək tibb xidmətlərinin köməyi ilə həyatı uzatmaq yox, həmçinin yaşam keyfiyyətinin yaxşılaşdırılmasıdır. Buna görə də biz fərdi məsuliyyəti gücləndirmək və səhiyyə sahəsində müstəqil sütunlar tədbirlərinin təkmilləşdirilməsini istəyirik. Yaşa uyğun həyat keyfiyyəti insanların alışmış olduğu ətrafda mümkün qədər özü müəyyən etdiyi və müstəqil həyat sürə bilməsi deməkdir. Bunun üçün müvafiq təkliflər inkişaf etdirilməlidir.

Bizim qulluğa ehtiyacı olanlar və əlillərlə necə davranmağımıza birgə yaşayışımızın sosial keyfiyyəti qərar verir. Qulluğa ehtiyacı olanlar da, təbii qocalmaya imkanca etibarlı əhatədə nail olmaq və təcrid olunmamaq istəyir. Ailələr özlərinə qulluq edə bilmirlərsə, bilmək istəyirlər və ona görə də çalışırlar ki, ata-analarının və nənə-babalarının durumu pisləşməsin. Qulluğa ehtiyacı olanlar və qulluq göstərmək iqtidarında olan insanlara könüllü çaba dəstəyi lazımdır. Biz qonşuluqdan ailələr, müəssisələr, qulluq göstərən dövlət müəssisələri və nüfuzlu idarələr arasında olan daha yaxşı əməkdaşlıq istəyirik.

64. İş fəaliyyətinin yaş müddətinin və sonun yeni məfkurəsini bizim siyasətimiz qazanc gətirən işin sonuna qədər müəyyən edir. Bir çox insan uzun müddət işləyə bilir və bunu istəyir. Yalnız cəmiyyətə və nüfuzlu idarələrə yox, həmçinin iqtisadiyyata və müəssisələrə yaşlı insanların güclü biliyi, səyi və iş görmə bacarığı lazımdır. Onlardan çoxu iradələrinin əksinə olaraq işdən

və vəzifədən çıxarılmalı olanda bunu yaş ayrı - seçkiliyinin bir forması kimi qəbul edirlər. Biz bu sahələrdə daha çox çeviklik etmək istəyirik.

65. İnsanların böyük əksəriyyəti yaşam formasının dəyişməsindən və tənhalıqdan iztirab çəkirlər. Zəngin cəmiyyətlərdə ruhi yoxsulluq olur. Xoşbəxt olmaq üçün insanın insana ehtiyacı var.

66. Bu günün sosial məsələləri keçmişə nisbətən başqa keyfiyyət kəsb edir və onlar ayrı siyasi baxış tərzi tələb edirlər. Daha çox pul, daha çox personal və daha çox göstərişlər kimi ənənəvi metodlar yeni sosial tələblərin öhdəsindən kifayət qədər gəlmir: İstəyir söhbət qonşu ərazinin və şəhərin bir hissəsinin viranələşməsinə yol verməməkdən, əlilləri təcrid etməməkdən, istərsə də mühacirlərin inteqrasiyasını uğurla davam etdirməkdən getsin – bütün bunlar dövlət tədbirlərinə nisbətən daha çox şeyi tələb edir. Zəmanəmizin böyük problemlərinin öhdəsindən gəlmək üçün bizə cəmiyyətin daxilindən canlı həmrəylik və təşəbbüskarlıq lazımdır.

67. XDİ bütün sosial problemlərin həllini dövlətdən gözləyən partiya deyil. Buna görə də o, sosial tələblərə cavab tapmaqda başqalarına nisbətən daha yaxşı durumdadır. Yardımçılıq prinsipi keçmişdəkinə nisbətən daha aktualdır. XDİ xırda birlikləri möhkəmlətmək istəyir ki, buradan da iki şey ortaya çıxır: İnkişaf və yekdillik, fərdi məsuliyyət və həmrəylik. İlk və ən mühüm birlik ailədir.

**2. Cəmiyyətimizin bünövrəsini möhkəmlətmək – Ailələr üçün seçim azadlığı yaratmaq**

68. Ailə get-gedə mühüm amilə çevrilir və cəmiyyətimizin özülünü təşkil edir. Ailə həmişə o yerdə mövcud olur ki, valideynlər uşaqlar üçün, uşaqlar da valideynlər üçün davamlı məsuliyyət daşıyır. O, elə bir yerdir ki, orada tərəfdaşlıq və həmrəylik yaşanır və ədalətə imkan yaradılır. Onun içində insan bir şəxsiyyət kimi yetişir və məsuliyyətlə azadlığa açılır. Xristian təfəkkürünə görə burada insana xas olan dəyərlər - satılmaz ləyaqət və onun insandaşlığı yaşadılır.

69. Ailə körpə uşaqlardan və gənclərdən ibarət olan gənc ailə demək deyil. O, bütün nəsilləri əhatə edir. Uşaq, ata-ana, baba-nənə və ulu baba və ulu nənə arasındakı nəsillər münasibəti bu gün həmişəkindən daha vacibdir və möhkəmləndirilməlidir. Biz ailələrin uzun müddətə həmrəylik fəaliyyətini dəyərləndirir və həyatın sonrakı mərhələlərində də onları dəstəkləyirik.

70. Bizim üçün nikah kişinin və qadının birliyinin əsasıdır. O, ailənin uğurlu olmasının ən yaxşı və etibarlı şərtidir. Nikah olan yerdə ata və ana uşaqları üçün eyni məsuliyyətin ifadəsinə çevrilir. Həmçinin övladları olmayan evliliklərdə kişilər və qadınlar bir-birinin məsuliyyətini daşıyır. Buna görə də bizim təməl qanunumuzda nikah xüsusi olaraq qorunur.

71. Nikah və ailə insanın insana ehtiyacı olanda ən etibarlı sosial yuvaya çevrilir. Ailə münasibətləri ömür boyu mövcuddur. Bugünkü qədər heç vaxt valideynlər və uşaqlar birgə həyat sürməmişlər.

Bundan başqa ailələr getdikcə azalır. Bugünkü gündə hər gələn nəsil əvvəlkilərin üçdə birini təşkil edir. Dövrümüzün ziddiyyəti də elə budur: Zəngin cəmiyyət uşaqlardan kasaddır. Çoxlu fərdi qərarlar həm insanların həyat keyfiyyəti həm də cəmiyyətin firavanlıq və rifahı ilə nəticələnən gələcəyə hesablanır.

72. Böyük əksəriyyət xoşbəxt ailə o ailəni sayır ki, orada qadın, kişi və uşaq olsun. Uşaqlar bizi həyata bağlayır və sevinc bəxş edir. Kim ki, övladı olmağa qərar verir, o, gələcəyə inanır və bu inamı, nikbinliyi ilə sübut edir. Uşaqlar bizim həyatımızı zənginləşdirir. Buna görə də ailənin əhəmiyyətsizliyindən söhbət belə gedə bilməz, tam əksinə .

73. Nikah uşaq və ailə üçün verilmiş qərar şəxsi qərardır ki, biz də onu dəstəkləyirik: Dövlət və cəmiyyət insanın necə yaşamağına görə göstəriş verə bilməz.

74. Biz elə şərtlər yaratmaq istəyirik ki, çoxlu ailə və uşaq arzuları gerçəkləşə bilsin. Uşaq və ailəyə sahib olmaq barədə təxirə salınan yaxud ləğv edilən bəzi qərarların bizim dəyişə biləcəyimiz və dəyişməli olduğumuz ictimai səbəblərdir, məhz ona görə ki, biz ailə dəyərlərini sadəcə olaraq qorumaq istəyirik. Biz ailələri möhkəmləndirmək və ailəsevər strukturlar yaratmaq istəyirik. Bura həm də uşaqları yalnız tibbin köməyi ilə gerçəkləşdirə bilən ailələrin dəstəklənməsi daxildir.

Bizim ailə siyasətimizin məqsədi ailələrə ədalətliliyin gətirilməsidir; uşaqlar olan həyatı və uşağa, ailəyə sahib olma arzusunun gerçəkləşməsini yüngülləşdirməkdir. Biz elə güclü ailələr istəyirik ki, orada uşaqlar fərdi məsuliyyətə və həmrəyliyə qabil güclü şəxsiyyətlər kimi böyüsünlər.

75. Bizim ailələr üçün olan siyasətimiz ənənəvi dəyərlər və yeni gerçəkliklərə istiqamətlənir. Ailələr təkcə özləri üçün yaşamır, onlara ailə kimi yaşamaqda yardımçı olan yaxud da bu işi çətinləşdirən qurumlarla əhatə olunaraq, bizim yaratmalı olduğumuz mədəni və sosial təbəqəyə istinad edir.

**Ailəsevər cəmiyyət naminə**

76. Ailədə insanlar sosial xeyirxahlığı, qarşılıqlı öhdəliyi, etibar və məsuliyyəti öyrənirlər. Onlar burada bir-birindən nəsillərin birgə yaşayışından xəbər tuturlar. Buraya insanlar işləməkdən və işləməməkdən asılı olmayaraq qəbul olunurlar. Ailəyə onun özünü inkişaf edə biləcəyi mühit lazımdır. Bildiyimiz ki, ailə dəyərləri elementar olaraq fərdin, o cümlədən də sosial yekdilliyin inkişafı üçündür. Bu mənada və bu səbəbdən ailə dəyərlərini qorumaq öhdəlikdir.

77. Bu mühitə eyni zamanda nəsillərin bərabər inkişaf hüquqlarının və gənc kişi və qadınların ailədə, işdə inkişaf etmə arzularının qəbul ediləsi daxildir. Ailə dəyərləri qadınların və kişilərin üzərinə bərabər öhdəlik qoyur.

78. Bizim ailə siyasətimizin məqsədi şərait yaratmaqdır ki, insanların çoxu ailənin tamlığı üçün uşaq törətməyə qərar versinlər. Buna görə də söhbət valideynlərin ailə ilə işi necə uzlaşdırmaq barədə qərar verməsi üçün əsl seçim azadlığı yaratmaq lazımdır. 21-ci əsrin vətəndaş ailəsində valideynlərin hər ikisi tez-tez həm iqtisadi baza, həm də ailədə emosional xüsusiyyətin qayğısını çəkəcəklər. Məhz ailədəki sevgi və diqqətin, ailədə qarşılıqlı cavabdehliyin və öhdəliyin gələcəyi olması üçün ailələr barədə yenidən düşünüb və onları yenidən qurmalıyıq. Ailə dəyərlərinə fəda və etibar, eləcə də ər-arvad və uşaqların şəxsiyyətə və inkişaf arzularına hörmət daxildir.

79. Uşaqlara həyat bəxş edən və başqa cür ailə quran hər kəs hörmət və üzərinə götürdüyü böyük məsuliyyəti qəbul edib və ona hörmətlə yanaşmalıdır. Tək başına tərbiyə edən analar və atalar bu əhəmiyyətli işi xüsusi çətinliklərlə həyata keçirirlər ki, burada da onların dəstəyə ehtiyacı var.

80. Öz həyatlarını başqa cinsi partnyorluq formasında quran insanların qərarlarına hörmətlə yanaşırıq. Biz anlayırıq ki, hətta belə münasibətlərdə də cəmiyyətimizin əsası olan dəyərlər yaşadılacaq. Bu təkcə nikahsız yaşayan qadınlar və kişilərin cinsi partnyorluğuna şamil edilmir, həm də həmcinslərin partnyorluğuna aid edilir. Biz dözümlülüyə nail olmağa çalışırıq və hər cür

ayrı-seçkiliyin əleyhinəyik. Kişi və qadın arasındakı nikah ilə olan bərabərliyini ailənin özəyi kimi rədd edirik, necə ki, həmcins cütlüklərin övladlığa götürmə hüququnu qəbul etmirik.

**Ailələr - Vaxt imkanı yaratmaq**

81. Ailələrin vaxta ehtiyacı var: Valideynlər uşaqlar üçün, uşaqlar valideynlər üçün – diqqətə və qayğıya vaxt, birgə fəaliyyətə və fərdi maraqlara vaxt. Biz yalnız iqtisadi maraqlara cavab verən cəmiyyət istəmirik. Ona görə də, biz valideyn pulu tətbiq etmişik. Bu vasitə ilə valideynlərin ilk ildən heç bir maddi qayğıları olmadan və iş həyatındakı perspektivlərini itirmədən özlərini uşaqlara yaxından həsr edə bilmə və onlarla birgə olma imkanları qazanırlar. Növbəti mərhələ ailə və işin ata - anaya və nənə-babaya qayğını diqqətdən kənarda qoymamaqla birləşdirilməsi deməkdir. Qulluq və tərbiyə işləri bərabər ölçüdə ailə işləri kimi qəbul olunmalıdır.

82. Gündəlik həyat üçün bəzi dövlət tədbirlərinə vacib olan şey təsərrüfatda, müəssisə və idarəçilikdə çağdaş və ailəlilər üçün münasib iş vaxtı yaratmaqdır. Bir çox müəssisələr çoxdan sübut etmişlər ki, uşaq və ailələri nəzərə almaq hər iki tərəf üçün bu mümkün və sərfəlidir. Ailəlilər üçün münasib iş aləmi müəssisə və ictimai quruluşları bacarıqlı insanlar üçün daha da cəlbedici edir və birləşməni və loyallığı möhkəmləndirir. Biz tarif şuralarının bu sahədə gördüyü işlərini təqdir edir və onları işin və həyatın daha yaxşı müvazinəti üçün tarif müqavilələrində prinsip və strategiyaları möhkəmlətməyə çağırırıq. Bizə ailələr üçün sərfəli olan iş yerləri lazımdır, nəinki iş yerləri üçün münasib olan ailələr.

83. Ailə və işi birləşdirmək analar və ataların vəzifəsidir. Tərbiyə etmənin ana və ata arasında bölünməsi uşağın onların hər ikisinə olan ehtiyacını ödəyir, o cümlədən də bu ailə ilə işin birləşməsinin açarı ola bilər. Uşaqlarının tərbiyəsini öz üzərinə götürən atalar, analar kimi ictimai rəy qazanmalıdırlar.

**Ailədə daha çox ədalətlilik**

84. Ailələrin ilk öncə maddi dəstəyə ehtiyacı var. Bizim düşüncəmizə görə ailələrin gəlişməsi onlara sosial rifah yaratmaq yox, həm də ailələrə sübut edilən və cəmiyyətin gələcəyinə investisiya qoya bilən böyük xidmətlərin ədalətli kompensasiyasıdır. O, maddi çətinlik olan yerdə seçim imkanı yaradır. O, buna görə də uşaqların xeyrinə olur və eyni zamanda ailəvi cavabdehliyin güclənməsinə töhfə verir. Əsas şərt odur ki, ailələrə maliyyə yardımları effektli olsun və ailələri təmin etsin. Biz bütün tədbirləri ailə büdcəsinin xatirinə etmək istəyirik.

85. Qarşılıqlı məsuliyyət birliyi və ailənin özəyi sayılan nikahın önəmli roluna daha sonra hiss ediləcək qədər diqqət yetirilməlidir. Biz onun tərəfdarıyıq ki, həyat yoldaşları gəlirlərini toplayaraq vergi miqdarını təyin etmə əməliyyatlarını tam başa çatdırsınlar və ailə gəlirlərini də bura əlavə edərək, bu işi genişləndirsinlər ki, uşaqlı ailələrin yükünü daha yaxşı tənzimlənsin. Uşaqlı ailələr uşaqsız ailələrdən fərqli olaraq mailiyə baxımından daha yaxşı tənzimlənməlidir. Bundan başqa uşaqlı ailələrin gəlir ayırma üstünlükləri olmalıdır. Bununla yanaşı məqsədli stimullaşdırma olmalıdır ki, valideynlər daha çox uşaq dünyaya gətirməyə qərar versinlər. Bizə təkcə çoxlu ailələr olan cəmiyyət yox, həmçinin çoxlu uşaqları olan ailələr lazımdır. Üç və daha çox uşağa sahib olmaq istəyən valideynlərin xüsusi dəstəyə ehtiyacı var.

86. Valideynlər öz uşaqlarının xeyrinə çox şeydən imtina edirlər. Bu bütün cəmiyyətin xeyrinə olur. Ona görə də valideynlər uşaqsız sığortalılara nisbətən daha yaxşı qanuni təqaüd sığortası ilə təmin edilməlidir. Biz bunun üçün uşaqlara ayrılan tərbiyə vaxtının nəzərə alınmasını yaxşılaşdırmaq istəyirik.

**Bizim gələcəyimiz: Uşaqlar**

87. Özlərini inkişaf etdirmək və sosial xeyirxahlığı öyrənmək üçün uşağın uşağa ehtiyacı var. Buna görə də biz bütün yaşdan olan uşaqlar üçün valideynlərin istəklərinə uyğun çevik və inamlı olan, habelə təhsil və tərbiyəyə öz töhfəsini verən qurumlar yaratmaq istəyirik. Uşaqlara qulluq sahəsində olan müxtəlif təkliflərə görə biz xüsusi olaraq şəxsi təşəbbüskarlığı və uşaq bağçalarını alqışlayırıq. Uşaq bağçalarına getmənin pulsuz olmasını mümkün etmək və son il üçün bunu etmək istəyirik; Şərtimiz əsaslı və uzunmüddətli maliyyədir. Bundan başqa qısa müddət ərzində körpələr evi və günü uzadılmış qurumlar da olmalıdır. Ailələr işlərinin yüngülləşdirilməsinə və onlara yardımçı sosial infrastruktura ehtiyacı duyur. Valideynlər və uşağın gündəlik vaxtını keçirdiyi qurumlar, məktəblər, uşaqlara və gənclərə yardım bilikləri indikindən daha yaxşı birgə fəaliyyət göstərməlidirlər ki, ailələr və uşaqlar daha çox irəliyə gedə bilsinlər. Biz istəyirik ki, uşaqlarına 1 yaşından 3 yaşına kimi evdə baxan və uşaq bağçasına göndərməyən valideynlər üçün uşaqlarına baxdıqlarına görə onlara əlavə müavinət imkanı yaradaq.

88. Valideynlərin qarşısında ilk növbədə onların uşaqları tərbiyə etmə haqqı və borcu durur. Dövlət valideynin verdiyi tərbiyəni əvəz edə bilməz və etməməlidir. Amma o, tərbiyədə lazımi təkliflər hazırlamalı və gənclərin, eləcə də valideynlərin yardıma ehtiyacları olan zaman onlara dəstək olmalıdır. Uşaqları qoruma vəzifəsini də yerinə yetirməlidir. Uşaqlara qarşı zorakılığa və

onların başlı-başına buraxılmasına qarşı barışmaz müqavimət göstərməlidir. Ölkəmizdə uşaqlarımızın rifahı bizim xüsusi arzumuzdur.

89. Uşaqlar bizim gələcəyimizdir. Almaniya yenidən elə bir ölkəyə çevrilməlidir ki, orada uşaqlı həyat daha asan və təbii olsun. Bu hamıya aid olan bir vəzifədir.

**IV. Təhsil və mədəniyyət milləti Almaniya – Elm aləminə olan cavablar**

**1. Hər kəs üçün geniş təhsil. Başdan başlayaraq, ömür boyu**

90. Təhsil individual həyat imkanları üçün açardır və onun qoruduğumuz və inkişaf etdirmək istədiyimiz dəyərlər üçün əlahiddə mənası var. İnsanlarımız üçün yalnız daha yaxşı təhsil rifahı uzunmüddətli təmin edə bilər. O, gələcəyin tələblərinin öhdəsindən gəlməyə və dəyişiklik imkanlarını əldə etməyə şərait yaradır.

91. Gənc insanların istedad və qabiliyyətləri başlanğıcdan gəlişib inkişaf edirsə, insanın azadlığı və ləyaqəti, insani imkanların zənginliyi və bolluğu yalnız o vaxt irəliləyiş tapır. İşə hazır olma və iş qabiliyyəti ən yaxşı halda hər şeyi bilməyə can atan və araşdırmaq ruhuna malik olanların mühitində məktəbdən kənar da inkişaf edir.

92. İnsanın sosial mənşəyi onun gələcəyinə təsir etməməlidir. Təhsil vasitəsilə yüksəliş, bizim ictimai-siyasi məqsədimiz budur. Bura hamı cəlb olunmalı, heç kəs qıraqda qalmamalıdır. Səfalət çox zaman bilik səfalətidir. Hər kəsin təhsil və təlimdə iştirakı imkan ədalətliliyinin tələbidir.

93. Sosial təminat və ictimai birgə yaşayış tələb edir ki, biz uşaqları öz qabiliyyətlərinə inanan güclü şəxsiyyətlər kimi yetişdirək, sosial baxışı öyrədək və özünə qarşı məsuliyyətə və həmrəyliyə meylli edək.

94. Azad, ədalətli və işə qabil təhsil sistemi vasitəsilə o dəyərləri qoruyub nəsildən - nəslə ötürə bilərik ki, onlar rifah və təminat üzərində qurulsunlar. Bizim mənəvi və iqtisadi dəyərlərimizi bölüşmək üçün təhsil strateji əhəmiyyətə malikdir.

95. Elm aləmi hər qabiliyyəti üzə çıxararkən və onlara imkan yaradarkən yaşayır: Heç vaxt hər şeyi bilən insan olmur. Əgər insanlar uzun müddət yaşayıb işləyirsə, bu iqtisadi və sosial dərrakənin tələbidir və həyatının bütün mərhələlərində yeni səlahiyyətlər əldə etmək istəyən hər kəs üçün öhdəlikdir. Ömür boyu öyrənmək həyatın yaxşılığa doğru dəyişməsinin ən yaxşı zəmanətidir. Əgər elm əvvəlki vaxtlara nisbətən daha sürətli yeniləşirsə və gələcək üçün yeni ixtisaslar tələb edilirsə, onda optimal təhsil və təlim məsələsi 21-ci əsrin sosial məsələsidir.

96. Onlara cavab verməkdən ötəri biz özümüzü çoxlu aparıcı səmtlərə yönəldirik. Biz təhsil sahəsində daha çox fərqlilik, daha çox çeviklik və şəffaflıq arzulayırıq. Biz keyfiyyət və xidməti bütün sahələrdə yaxşılaşdırmaq istəyirik. Biz öyrənməyi təcrübədə və təcrübə ilə zənginləşdirmək və təhsil anlayışını elə genişləndirmək istəyirik ki, o, qorunması gərəkən ideallara, eləcədə yeni zəruriyyətlərə cavab verə bilsin. Biz təhsili lap əvvəldən və bütün ömür boyu human, sosial və iqtisadi əsaslardan görmək istəyirik. Uşaqlara eləcə də böyüklərə onların biliklənməsi və yenidən biliklənməsi üçün sərmayə qoymaq iqtisadi baxımdan daha yaxşı və ədalətlidir, nəinki köçürmə ödəmələr və sosial tədbirlər vasitəsilə yanlış inkişafları yenidən düzəltmək. Çox vaxt bu hətta küllü miqdar maliyyənin hesabına da başa gəlmir. Ona gərə də biz özümüzü maksimal səmtə yönəldirik: Sonradan düzəltmək əvəzinə çeviklik.

**İlkindən təhsil**

97. Uşaqlar və gənc insanlar əgər onlara müvafiq ortam təklif olunarsa, daha da yaradıcı və sərbəst olurlar. Biz buna görə ailələri gücləndirmək, habelə uşaqlar üçün cəlbedici təhsil yerləri yaratmaq istəyirik. Məktəbəqədər və məktəb təhsilinin bir-biri ilə sıx əlaqəsi zəruridir. Təhsilin və qayğı göstərmənin ayrılmasını biz süni və zəmanəyə uyğun olmayan hesab edirik. Uşaqlara erkən dövrlərdən başlayaraq oyun əsnasında dünyanı tədqiq və kəşf edəcəkləri maraqlı ortam lazımdır. Uşaqların qayğısına qalan və onların gününü keçirdiyi yerlər də təhsil qurumlarına daxildir. Ona görə də, biz ilkin şərtlər yaratmalıyıq ki, 3-10 yaşında olanlara fərdi təmayül və bacarıqlarına görə dəstək verilsin. Biz yardımçı qüvvələrin daha da təkmilləşdirilməsinin tərəfdarıyıq, həyat yolları şəffaf olmalıdır.

98. Müxtəlif mərhələlərə bölünmüş məktəb sistemini özünü doğruldub uğurla inkişaf etmişdir. Vahid məktəb konsepsiyasından biz imtina edirik. Bizim şüarımız belə səslənir: Hər təhsil mərhələsi başa çatan kimi yeni təhsil mərhələsi. Doğru çərçivə şərtləri yaradılmalıdır ki, məktəblər və şagirdlər öz işlərini daim daha yaxşı yerinə yetirə bilsin. Hər bir məktəbli nə isə

bilir və öz bacarığını daha da artırmağa şərait yaradan öz məktəbi var. Biz gözləyirik ki, eyni şərtlər altında fəaliyyət göstərən məktəb digər məktəblərlə müqayisədə pis nəticə göstərməsin.

99. Məktəblərin daha yaxşı təhsil uğurunda yarışı üçün yeni yollar arayırıq. Biz məcburi milli standartlar və təsirli, ictimai açıq dəyərləndirməni, həmçinin şagirdlərin daha yaxşı dərs keyfiyyətinə malik olması yollarını tapmaqdan ötrü daha çox azadlıq və fərdi məsuliyyət arzulayırıq. Biz əsaslı empirik təhsil tədqiqatlarının əsasını qoymaq və davamlı təhsil xəbərləri barədə məlumatlar təqdim etmək istəyirik. Qərarlaşdırılmış təhsil standartları 16 torpaqda ardıcıl həyata keçirilməlidir. Torpaqlar arasındakı əməkdaşlıq ilk öncə buraxılış imtahanlarının bərabərliyinə və bununla da mobilliyə imkan yaratmalıdır. Biz məktəb və təhsil sahələrində ictimai məsuliyyətin olmasının tərəfdarıyıq və özəl sahələrdə olan təhsil müəssisələri də təhsil sisteminin danılmaz tərkib hissəsidir.

100. Fərdi məsuliyyət bu vəzifələrə sadiq qalmaq, məktəbləri daha da canlandırmaq, onların vəzifəsinin tam həyata keçirmək üçün ən yaxşı yoldur. Müəllimlər cəmiyyətimiz üçün bariz və önəmli xidmət göstərirlər. Onların təhsili məktəbin tərbiyəedici gücü üçün açardır. Fərqləndirici və əsaslı təhsilin bərabər pedaqoji təcrübə diqqət mərkəzində olmalıdır. Bitmiş və davamlı təhsillər əldə edilən səlahiyyətləri mütəmadi olaraq tamamlayıb aktuallaşdırmalıdır. Məktəbin keyfiyyətli olmasını çoxlu sayda yaxşı ixtisaslı müəllimə və müəllimlərin olması şərtləndirir. Onlara xidmət layiqdir.

101. Məktəbin və müəllimin vəzifəsi elmi bölüşməkdən çox uzaqlara gedir. Gənc insanlara öz həyatlarını uğurlu qurmaq üçün dəyərlər və sosial xeyirxahlıqlar lazımıdır. Demokratiyaya və hüquqi dövlətə ehtiram həmişə yenidən büruzə verilməlidir. Siyasi biliklərin olması danılmazdır - Avropada məktəblilərin və gənclərin arasında mübadilənin olmasına imkan yaradılmalıdır. Şəxsiyyətin tam inkişafı üçün musiqi və dini təhsil lazımdır. XDİ bütün torpaqlarda konfessional dini dərslərin əsas fənn kimi tədris edilməsinin tərəfdarıdır. Yevangelik və katolik din dərsləri ilə yanaşı ehtiyac olduqda, digər dinlərlə alman dilində Almaniyada təhsil almış müəllimlər tərəfindən və məktəblərə dövlətin nəzarəti altında tədris təklif edilə bilər.

102. Təhsil təkcə məktəblə başlayıb məktəblə də bitmir. Gəncin məktəb, peşə və ali təhsili qısa olmalı, tez başlamalı və tez də tamamlanmalıdır, lakin təhsil fazalarında həyatın digər tərəfləri də əhatə olunmalıdır. Ömür boyu öyrənmək bacarığının əsası həyatın başlanğıcından olmalı, məktəb və bitmiş təhsil inkişaf etdirilməli və həyatın bütün mərhələlərində dəyərli, əsaslı təkmilləşmə ilə davam etdirilməlidir. Bura eyni zamanda müəssisələrin məsuliyyəti olaraq gənc

insanlara təhsil yerləri təklif etmələri və əməkdaşlarına təkmilləşmə imkanları yaratmaları daxildir.

**Çeşidlik, fərqlilik və çeviklik**

103. Təhsil sistemimizin güclü tərəflərinə öyrətmə konsepsiyalarının çeşidliyi və öyrətmə üsulları daxildir. Biz bacarıqlı və fərqlənən tədris, habelə həm praktiki həm də nəzəri təhsil imkanları açmağı boynumuza götürürük. Müxtəlif yollar mümkün qədər əlaqəli və çevik qalmalıdır. Bu sahədəki başlıca fəaliyyətlər ölkəmizin gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Yüksək qabiliyyətli insanlara həmişə müvafiq dəstək verilməlidir.

104. XDİ birliklərin və nüfuzlu idarələrin çaba altında olub bütün günü işləyən məktəblərin qurulmasını dəstəkləyir. Bizim bunla gözləntimiz odur ki, günün sonuna kimi davam edən məktəblər özündə həm ənənəvi məktəb fənlərini həm də sağlamlıq dərslərini, habelə idman, musiqi və incəsənət fəaliyyəti və sosial səlahiyyətlərə imkan yaradan pedaqoji strukturlaşdırılmış günün nəbzini əhatə edir.

105. Öyrənməyə çətinlik çəkənlərin və əlil insanların onların individual tələbatlarını razı salan dəstəyə və köməyə ehtiyacı var. Əlillərin və qeyri-əlillərin, onların zəif və qüvvətli cəhətlərinin təbii birgə yaşayışı uşaqlara körpəlikdən öyrədilməlidir ki, başlarında və davranışlarında əngəl yaranmasın.

**Keyfiyyət və xidmət**

106. Biz çalışırıq ki, keyfiyyət və xidmət ümumi tədrisimizin əhəmiyyətli meyarları olsun. “Tələb etmək və kömək etmək” prinsipində biz pedaqoji və təhsil-siyasi fəaliyyət üçün əsas qaydaları görürük. Bütün səylərin məqsədi və məramı odur ki, gənc insanların hamısında güclü tərəflər yaradılsın, onların özlərinə və bacarıqlarına inanmasına imkanlar açılsın, onlar həmişə nəyəsə nail ola bilmələri üçün lazımlı təcrübə qazandırılsın.

İstedad, mənşə, yaxud qabiliyyət fərqləri nə qədər çeşidli olsalar belə, bu prinsiplər və əsas normalar bizim düşüncəmizə görə hamı üçün keçərlidir. Başqalarından nə isə tələb edən və ya onlara bacara bildiyini etibar edənlər sosial davranırlar.

107. Ona görə də biz hamı üçün daha çox və daha yaxşı təhsil istəyirik. Bundan çıxış edərək, biz istəyirik ki, imkanca daha çox məktəblini ən yaxşı xidmətlər göstərmək üçün qabilləşdirək. Nəzarət oluna bilən tədris məzmunlarının və əsas kurikulumların başlıca səlahiyyətlərinin məcburi müəyyənləşməsi bunun üçün həll edici dəstək yaradır.

108. Hər kəs üçün təhsil, sosial şəffaflıq və mükəmməl xidmətlər ancaq dil kompetensiyası vasitəsi ilə təsəvvür ediləndir. Dil təhsil və tədris, işdə və cəmiyyətə inteqrasiya üçün açardır. Uşaqların böyük əksəriyyəti, xüsusilə də miqrasiya səbəbindən alman dili biliklərinə kifayət qədər yiyələnmirlər. Bütün uşaqların məktəbdə ilk gündən bir-biri ilə danışmaları, tədrisdə və təhsildə bərabər iştirak edə bilmələri üçün bizim uşaq bağçalarında alman dilinin məqsədyönlü öyrədilməsinə, məktəbə qədər məcburi dil testlərinə, dilində qüsuru olanlara intensiv məşğul olmağa və yardımçı dil proqramlarına ehtiyacımız var. Bura evdə intensiv şəkildə qoşulmalıdır. Eyni zamanda bu uşaqların çox dillilik mühiti və mədəniyyətlər arası kompetensiyası möhkəmlənməli və məqsədyönlü inkişaf etdirilməlidir. Bütün məktəblilərə şamil edilir: Birinci sinifdən başlayaraq alman dili ilə yanaşı yaşlarına uyğun olaraq ən azı bir xarici dil mənimsəmək.

109. Ali təhsilin keyfiyyəti, bununla da ali məktəb məzunlarının və tədqiqatçıların yüksək səviyyədə peşəkarlığı elm aləmində əsaslı əhəmiyyət kəsb edir. Biz peşəkarlığın ilkin şərtlərini təmin etməliyik və Almaniyanı beynəlxalq aləmdə "istedad dəmirçixanası" kimi tanınan mövqeyini inkişaf etdirməliyik. Bu məqsədə çatmağı universitetlərin, pedaqoji ali məktəblərin, ali musiqi və incəsənət məktəblərin, ali peşə məktəblərin, sənət akademiyalarının, habelə özəl ali məktəblərin fərqli sistemi şərtləndirir. Hər bir ali məktəb öz inkişafında irəliləməlidir. Dövlət ali məktəblərinin öz vəzifələrinə sadiq qalmaları üçün dövlət büdcəsindən müvafiq təminata ehtiyacı var. Ali məktəblər sosial müqavilələr əsasında topladıqları təhsil haqları ilə öz öyrətmə təkliflərini məqsədəuyğun yaxşılaşdırmalıdır və xüsusi öyrətmə profilərini inkişaf etdirə bilərlər. Öyrətmədə alicənablıq bir mənalı olaraq alman ali məktəblərinə xas olmalıdır. Tələbələr istər təcrübə yönlü təhsil semestrlərində, istərsə də elmi püxtələşmədə və tədqiqatda olsun, öz qüvvələrini inkişaf etdirmək üçün həvəsləndirilməlidirlər. Ali məktəblər arasında olan mübadilə müvafiq ixtisaslaşmalarda mümkün ola bilər. Güclü beynəlxalq tələbə mübadiləsi sonralar Almaniyanın xeyrinə olacaq əsaslı ixtisaslaşdırma yolları qazanmağa imkan yaradır. Bu eyni zamanda təhsilin, elmi sahədəki karyeranın və ailənin daha yaxşı uzlaşmasına şərait yaradır. Təqaüd məsələsinin yayılması da ilkin şərtlərdən biridir.

110. Tədqiqatın və tədrisin vəhdəti alman ali məktəblərinin uğur tarixi üçün önəmli ilkin şərtdir. Onların bu yolu davam edə bilmələri üçün universitetlərin özlərinin tədqiqat işinə dəstək verilməli və ali məktəblər arasında rəqabət gücləndirilməlidir. Biz ali məktəblər üçün daha çox azadlıq, məsuliyyət və dövlət köməyinə daha az ehtiyacın olmasını istəyirik. Biz Almaniyada tədqiqatı bürokratik qandallardan azad edəcəyik.

**Praktiki bilik və bacarıq**

111. Biz təcrübə və nəzəriyyəni yenidən ağıllı tarazlığa gətirmək istəyirik. Bir çox praktik ixtisaslar gələcəkdə keçmişə nisbətən daha çox nəzəri biliyə ehtiyac duyur. Bir çox akademik ixtisaslar daha erkən və intensiv əlaqəyə girmək üstünlüyünə malikdir. Biz təcrübədə və təcrübə ilə öyrənməyi üstün tuturuq. İxtisas akademiyaları və ali peşə məktəbləri buna görə də bizim uğur tariximizdir, çünki onlarda praktika və nəzəriyyə, peşə və təhsil arasında qarşılıqlı mübadilə çox yaxşı alınıb.

112. Almaniyada peşə təhsili üçün olan ikili sistem nəzəriyyə və təcrübənin əlaqələndirici modelidir. O, beynəlxalq rəqabətdə uğur qazandıran cəhətdir və gənclərin işsizliyinin qarşısını alır. Müəssisələr və məktəblər bu sistemdə təhsil üçün birgə məsuliyyət daşıyırlar. O, yüksəlmə və öz yerini tutma şansı və ömür boyu peşə öyrənmə üçün əsaslar verir. O, cümlədən burada qızlara və oğlanlara öz peşə istiqamətlərində müxtəlif yollar və təhsil imkanları yaratmaqda həvəs oyadır. Bəzi gənclər ilk dəfədən peşə təhsilini uğurla başa vurmaq iqtidarında olmurlar. Bu gün onlara nəyi bacardıqları əvəzinə nəyi bacarmadıqları sübut etdirilir. Biz isə belə hesab edirik: Hər kəs nə isə bacarır. Ona görə də fəaliyyətcə zəif olan gənclərin iş bazarlarında qiymətləndirilə bilən və sənədlərlə təsdiqlənmiş ixtisaslara gətirib çıxaran və əlaqələri açıq saxlayan öz yerlərini tutmağa ehtiyacları var. Təhsildə hər hansı bir yüksəlişin olması, onun olmamağından qat-qat yaxşıdır.

Bunun üçün bizə ikili təhsildə çevik yollar lazımdır. Bu işə daha çox ixtisaslaşmış mərhələli təhsil, eləcə də hüdudlanmış, standartlaşmış, sənədləşmiş və təhsil nailiyyəti kimi sayılan tədris vahidləri təki təhsilin xüsusi məhək daşları xidmət göstərir. Bununla bütün iştirakçıların, xüsusən də ümumtəhsil məktəbləri və peşə təhsili verən istiqamətlər arasında olan əməkdaşlığı möhkəmləndirilməlidir. İkili təhsil onunla cəlbedici olmalıdır ki, peşə təhsilli məzunların ali məktəblərə buraxılması üçün keçid və hesablama imkanları daha da yaxşılaşdırılsın.

113. Gənclər işi həyatlarının başlanğıcında özlərini lazımlı və ruhlandırılmış hiss edərlərsə, öz yaradıcı qüvvələrini inkişaf etdirirlər. Ona görə də çərçivə şərtləri elə qurulmalıdır ki, özəl və ictimai işəgötürənlər təhsil almaq üçün yerlər təklif etməyə də hazır olsunlar. Bu zaman biz dövlətsəl məcburiyyət əvəzinə könüllülüyü, cavabdehlik şüurunu və məqsədli stimulu qoyuruq.

114. Mobil olmaq iş dünyasının tələbidir. Ona görə də bizə tədris sahələri və təhsili müqayisə edilməsi, habelə onların qarşılıqlı tanınması üçün Avropa tədris məkanı lazımıdır.

**Bitkin təhsil**

115. Biz təhsil sistemində böyük bir mirasa borcluyuq. Təhsil insanların öz bacarıqlarını inkişaf etdirməsidir ki, o da gəlişib özünü təsdiq edən fərdiyyətə və şəxsiyyətə çevrilə bilsin. Biz təhsil sahəsini yeniləşdirərək qoruyacağıq. Məhz qeyri-müəyyən lakin imkanların bol olduğu zamanda ümumi təhsil böyük əhəmiyyət qazanır. Ona görə də biz elmi yaşar saxlamaq istəyirik ki, ideyalar və ideallar öz dəyərini alsınlar. Eyni zamanda biz öz məktəblərimizdə iqtisadi və riyazi-təbiət elm sahələrini əhatə edən tədrisi gücləndirəcəyik.

Üfüqü yalnız praktiki reallıqlara çatan təhsil və tədqiqat siyasəti bunları əldən buraxacaq. O zaman hamının fəal iştirak etməsi, təhlükəsizliyi və rifahı təhsil vasitəsi ilə təmin ediləcək ki, təhsil öz məqsəd və məramını itirməsin və onun dəyəri hər kəs tərəfindən qəbul edilsin.

**2. Hər şeyi bilməyə çalışan Almaniya: Tədqiqat rifaha zəmanət verir**

116. Elm və tədqiqat cəmiyyətin maddi və mənəvi rifahını həll edir və artan dünya əhalisinin böyük ehtiyaclarını yerinə yetirməyə xidmət edir. Onlar tibbdəki, dünyanın ərzaqla təmin olunmasındakı, təhlükəsizlikdəki, ünsiyyətdəki, ətraf mühitə təhlükə yaratmayan mobillikdə və enerji təchizatındakı tərəqqi və irəliləyiş üçün mühümdür. Humanitar elmlər bu dəyişən dünyada danılmaz istiqamətverici bilgilər verirlər. İnsanların ideyaları və yaradıcılıqları kürəsəl rəqabətdə Almaniyanın mühüm üstünlüyüdür. Ancaq kəşf etmək və icad etmək ruhunun olması ilə biz sabah nədən asılı olaraq və necə yaşayacağımıza dair suallara inandırıcı cavab tapa bilərik. Gələcək rifahımız üçün yeni ideyalar ictimai şüurda tədqiqatın yüksək dəyərini və Almaniyada bazar məhsulunun başqaları ilə əvəz edilməsini tələb edir. Özünün beynəlxalq rəqabətlik bacarığını saxlamaq və onu daha da möhkəmləndirmək üçün Avropada böyük xalq iqtisadiyyatı ölkəsi olan Almaniya 21-ci əsrin texnologiyalarının tədqiqatında və inkişafında aparıcı rol oynamalıdır.

117. XDİ elmin və tədqiqatın azadlığını öz boynuna götürür. Tədqiqat imkanları və riskləri məsuliyyətlə ölçüb-biçilməlidir. Tədqiqatın azadlığı orada məhdudlaşır ki, orada insanın toxunulmaz ləyaqəti zədələnir yaxud nəzərdə tutulan yaradıcılıq işi təhlükəli sayılır.

118. Almaniya tədqiqatın bir çox sahələrində təkmilləşdirici hesab olunan ən yaxşı mövqelərdən birini tutur. İlk növbədə biliyin əldə edilməsinə və bilavasitə iqtisadi mənfəətə xidmət edən əsas tədqiqatlar dövlət dəstəyinə ehtiyac duyur. Ali məktəblərdə tədqiqatın xüsusi bir tələbi var, çünki orada da elmi sələfliyin böyük bir hissəsi yetişdirilir.

119. Əgər konkret tətbiq etmədə xüsusən də bazar məhsulunda və xidməti işlərdə əsaslı biliklərin dəyişdirilməsinə nail olunarsa, onda yeni ideyalar gələcək rifaha və inkişafa yönələr. Gələcəyə yönəlik tədqiqat şəbəkələşməni və ali məktəblərin, tədqiqat qurumlarının və iqtisadiyyatın əsaslarının və tətbiqi tədqiqatının strateji alyansını tələb edir. İnnovasiya işləri artıq tək ediləcək iri inkişaflar deyil. Milli sərhədlər beynəlxalq tədqiqat korporasiyaları və müəssisələri vasitəsilə aradan götürülür. Ona görə də biz bütün sahələrdə gücümüzü daha da birləşdirməliyik.

120. Müasir tədqiqata elm sahəsinin sərhədləri barədə düşünmək də aid edilir. Dövrümüzün problemləri və tələbləri böyük ölçüdə fənnlərarası əlavələri tələb edir. Gələcəyə yönəlmiş həll yolları elm sahəsində yayılmış tədqiqat proyektlərindən yaranır. XDİ bütün fənlərdən, humanitar, sosial, təbiət və mühəndislik elmlərindən birgə fəaliyyətə hazır olmalarını gözləyir.

121. Elm, iqtisadiyyat və dövlət innovasiya və Almaniyanın texnologiya və tədqiqat sahələrinin gələcəyi üçün bərabər məsuliyyət daşıyırlar. Tədqiqat və inkişaf üçün olan xərc 2015-ci ilə kimi ümumdaxili məhsulun dörd faizinə qalxmalıdır. Bu zaman Almaniyadakı müəssisələrin, ittifaqın və torpaqların müvafiq səyləri zəruri olacaq. Maliyyə siyasəti burada innovasiya motoru olduğunu başa düşməli və vergi ilə əlaqəli stimullar vasitəsilə əlavə investisiya üçün çərçivə şərtləri yaratmalıdır. Onlar Almaniyada innovasiya qabiliyyəti üçün mühüm ilkin şərtlər təşkil edir.

122. İqtisadiyyatda tədqiqat nəticələrinin transferi hər şeydən öncə innovativ şəbəkədən keçir. Alimlər, sahibkarlar və sərmayəçilər arasındakı mübadilə bizim tədqiqat sistemimizin əsas elementi olaraq təkmilləşdirilməli və möhkəmləndirilməlidir. Ali məktəblərdə şöbələrin islahatını aparmaq və bununla yeni elmi və texnoloji müəssisələr yaratmaq, habelə innovasiya

qabiliyyətli müəssisələrin xüsusən xaricdən köçürülməsi təmin edilməli və dəstəklənməlidir. Xüsusi olaraq yüksək texnologiya müəssisələrində satışa çıxarıla bilən məhsulun tədqiqat nəticələrinin yolu xüsusən çətindir və məqsədyönlü stimullara ehtiyac duyur.

123. Xüsusən də Almaniya iqtisadiyyatını formalaşdıran və ölkəmizdə iş yerlərinin sayının böyük əksəriyyətini yaradan orta təbəqənin çox vaxt öz tədqiqat sahələri olmur. Onların tədqiqat və innovasiya güclərinin möhkəmlənməsi bizim üçün vacibdir. Bunun üçün şəffaf, asanlıqla əldə edilən dəstək vasitələri və hər şeydən öncə isə tədqiqat korporasiyaları zəruridir. İqtisadiyyatda, elmdə və siyasətdə olan regional iştirakçılar identifikasiyada və innovasiya potensialında ittifaq və dövlətlər vasitəsilə dəstək tapmalıdırlar. Həmçinin orta təbəqənin yaxınlaşdırılması Avropa tədqiqatının inkişafını daha da gücləndirməlidir.

124. İnnovasiyalara nail olmaq üçün tədqiqatçılara heç bir lazımsız bürokratik maneələr yaradılmamalıdır. Tədqiqat üçün çevik təşkilat formaları və elmi institutların təchizatında eksperimentlər üçün yaxşı şərait lazımdır. Azadlıq və məsuliyyət, alicənablıq və rəqabət, habelə yüksək təhsil səviyyəsi XDİ-nin aparıcı xəttidir.

### 3. Mədəniyyət: Milli kimliyin ifadəsi və dünyaya açıqlıq

125. Almaniya Avropa mədəniyyətinə aid, hər şeydən öncə xristian-yəhudi ənənəli və maarifpərvər xalqın ölkəsidir. İncəsənət və mədəniyyət təkcə hər bir fərdin kimliyini yox, həm də bütün millətimizin kimliyini formalaşdırır. Biz xalqımızın öz torpaqlarının və regionlarının müxtəlifliyinin izi olan zəngin mədəni irsini qorumaq istəyirik.

126. Mədəni müxtəliflik cəmiyyətimizin yaşarlılığına dəlalət edir, Almaniyada həyat keyfiyyətinə yardımçı olur və yeniliklərə cürət etmək üçün hazırlıqlı olmanı təmin edir. Bizim dəsti-xəttimiz öz ənənələrini əsas prinsipləri ilə başqa mədəniyyətlərə açıq olan Almaniyadır. Almaniyanın mədəni canlılığı və cəlbediciliyi həmçinin bu günə kimi başqa xalqların və mədəniyyətlərin mübadiləsinə söykənir.

127. Biz incəsənətin azadlığının tərəfdarıyıq. Dövlət və siyasət incəsənətlə, onun ifadə formaları və məzmunu deyil, yalnız incəsənətin və mədəniyyətin çiçəklənə biləcəyi şərtlərlə məşğul olur. İncəsənət gerçəkliliyin həlli yolunda xüsusi bir formadır. O, maraq və risklədən qidalanır. Yaradıcı potensialın gücləndirilməsi Almaniyanın rəqabət bacarığını səciyyələndirir. Mədəni tərəqqi vacib bir faktordur. XDİ incəsənətin və mədəniyyətin təmin edilməsini federal dövlət,

ölkələr və bələdiyyələr üçün ictimai öhdəlik olduğunu etiraf edir. Bu, o cümlədən mədəni irsin qorunmasına habelə çağdaş incəsənətə yardım etməyə şamil edilir.

Buraya incəsənət sahəsində ən yüksək nailiyyətlər, eləcə də geniş mədəniyyət, ənənəvi və ya populyar özünü ifadə imkanları, həm də qovqunların, sonradan gələnlərin və emiqrantların töhfələri aiddir. Mədəniyyətin dəstəklənməsi subvensiya deyil, cəmiyyətin gələcəyinə edilən çox önəmli bir sərmayədir.

128. Mədəniyyətə yardımın edilməsində dövlətin məsuliyyəti ilə yanaşı vətəndaş çabası da əvəzedilməzdir. Biz fondlar, mesenatlar və sponsorlar vasitəsilə şəxsi mədəniyyətə yardım üçün çərçivə şərtlərini daha da yaxşılaşdıracağıq.

129. Canlı xatirələr bizim mədəniyyətimizin bir hissəsidir və bizim üçün o, ümumi alman tarixinin bütün nailiyyəti ilə əhatə edir.

Almaniya Federativ Respublikasına ən dərin iz qoyan nasionalsosializm dövrünün təcrübəsi, xüsusən də holokost müstəbidliyi olub.

Xüsusi bir yeri AVSP-diktaturasının hazırlanması tutur. Ən görkəmli önəm 1989-cu ilin payızındakı dinc inqilabın və yenidən birləşmənin payına düşür. ADR-dəki kommunizm tarixi təkcə şərqi Almaniya hadisəsi deyil, nasionalsosializmin tarixi kimi Avropa tarixi hesab olunan alman milli tarixinin tərkib hissəsidir.

Bu, eləcə də qovqunların taleyinə şamil edilə bilər. Qovqunluq qurbanlarının anıtları və onların mədəni irsi bütün xalqın yaddaş dairəsindədir.

Həmçinin biz ikinci dünya müharibəsindən sonra məcburi köçkünlərin və qaçqınların inteqrasiyasını və yenidənqurma işlərində göstərdikləri yüksək nailiyyətləri unutmayacağıq.

Azadlıq və müqavimət hərəkatlarının layiqli xatirəsinin, sülh və barışıq müqavilələrinin və iqtisadi, siyasi quruculuq xidmətlərinin nəinki təkcə öz tarixi ilə olan doğru rəftarı danılmazdır, eyni zamanda xalqın özünü dərk etməsi və onların demokratik ənənəvi təhsili üçün təsisçidir. Buna xüsusən totalitar və diktator sistemlərinin hər bir formasından imtina aiddir.

Hər şeydən öncə elm və iqtisadiyyat, ədəbiyyat və incəsənət bütün alman tarixinin şüuruna və onun müzakirələrinə əlavələr etməyə cəlb olunur.

130. Mədəniyyət olmadan təhsil əmələ gələ və təhsil olmadan mədəniyyət inkişaf edə bilməz. Mədəniyyət təhsili hər bir fərdə onun inkişaf etməsindən və demokratiyanın, cəmiyyətin üzvü olmasından ötrü zəruridir. Mədəniyyət ölçüsü istiqamətin və elmin çatdırılmasının mühüm şərtdir. Xüsusən də gənclər erkən vaxtdan incəsənətə və mədəniyyətə yönləndirilməlidir. Ancaq belə olan halda gələcəkdə incəsənət ixtisasları və mədəniyyət qurumları üçün təklif və tələbat yarana bilər. Mədəni təhsil ailədə başlamalı və məktəbdə bu proses dayandırılmamalıdır. XDİ üçün mədəni təhsil ictimai cəhətdən məsuliyyət daşıyan və imkanlar yaradan təhsil sisteminin danılmaz tərkib hissəsidir.

131. Alman dili ünsiyyət vasitəsindən daha çox mahiyyət daşıyır. O, bizim ölkəmizin mədəniyyətinin mükəmməl nişanəsi və cəmiyyətin birlik bağıdır. Ona görə də biz alman dili ilə diqqətlə və ehtiyatla davranmaq üçün xüsusi məsuliyyət daşıyırıq.

132. Xarici mədəniyyət və təhsil siyasəti alman dilinin və mədəniyyətinin vasitəçiliyinə xidmət edir və o, dünyanın mədəniyyətlərinin dialoquna, habelə demokratiya və insan hüquqlarına imkan yaratmalıdır. Xaricdəki məktəblərin və elmi qurumaların işi habelə ölkəmizin xaricdəki imicinin gerçək siması üçün Mərkəzi Avropanın mədəniyyət qurumları gücləndirilməlidir. Xarici mədəniyyət siyasəti Almaniyanın dünyadakı simasına və iqtisadi sahədə Almaniyanın beynəlxalq tərəfdaşları ilə əməkdaşlığına imkan yaradır.

133. Azad mətbuat bizim demokratik quruluşumuzun mühüm elementi, qorunmağa layiq olan mədəni sərvəti və irəli aparan məsuliyyətli mühüm bir iqtisadiyyat faktorudur. Sürətlə dəyişən media aləmində hər şeydən öncə media məğzinin çeşidliliyinin və keyfiyyətinin təminatından, eləcə də alman mediasının beynəlxalq rəqabət bacarığından söhbət gedir. Medianın da siyasət kimi müstəqilliyi marağından çıxış edərək, biz siyasi partiyaların mediada və media qurumlarındakı bilvasitə və bilavasitə maliyyə iştirakını rədd edirik.

Media təkliflərinin müxtəlifliyinə ictimai və özəl radioların qorunan ikili sistemi də aid edilir. Media siyasəti elə etməlidir ki, hər iki sistemdə uyğun inkişaf imkanları qorunan sağlam rəqabət olsun. İctimai radio hər şeydən öncə təhsilin, mədəniyyətin və informasiyanın təminatına zəmanət verməlidir. O, eyni zamanda bununla mədəniyyət yardımçısı və mədəniyyət istehsalçısı olur. Onun öhdəsinə həmçinin miqrasiya edən insanların və onların həyat gerçəkliklərinin inteqrasiyası və təmsilçiliyi üçün xüsusi məsuliyyət düşür.

134. Mediaçılar və jurnalistlər də özlərinin xüsusi təsiretmə imkanları ilə ictimai və mədəni, həyat habelə siyasi tədrisə görə məsuliyyətlidir. Əsaslı mətbuat səlahiyyətlərinin istiqamətverici yardımçı olduğunu çatdırmaq ailənin, uşaq bağçalarının və məktəblərin tədris və tərbiyə öhdəliklərinə daxil edilir. Mediaçılar xüsusən də gənclərə münasibətdə məsuliyyət daşıyır. Onlar müvafiq öhdəliklər vasitəsilə buna sadiq qalmalıdırlar. Gənclərə himayə hər yaş kəsiyində daim inkişaf etdirilməli, onun miqyası dəqiq müəyyən olunmalı və pozuntular barədə hiss ediləcək dərəcədə xəbərdarlıqlar edilməlidir.

## V. Kürəsəlləşmiş dünyada sosial bazar iqtisadiyyatının yenilənməsi

135. Kürəsəlləşmə insanlar tərəfindən aparılıb, bizim təsir edə və formalaşdıra bildiyimiz inkişafdır. Əgər biz siyasətin iqtisadi və sosial cəhətdən səmərəli olaraq aparılmasına diqqət etsək, kürəsəlləşmə sosial dövlətin və sosial bazar iqtisadiyyatının sonu demək olmayacaq. O, daha da bütün dünya tərəfindən qəbul ediləcək. Yeni iqtisadi siyasət sosial bazar iqtisadiyyatının standartlarını beynəlxalq aləmdə daha da möhkəmlətməlidir. Beləliklə o, sosial bazar iqtisadiyyatının yeni ölçüsünü kəsb edir.

136. XDİ üçün kürəsəlləşmənin formalaşmasının əsasında dünyanın insanpərvər və doğru nizamının şərtlərinin beynəlxalq aləmdə qarşılıqlı olaraq anlaşılması durur. Onun məqsədi bu olmalıdır ki, kürəsəlləşmə vasitəsilə insanlar daha çox azadlıq və rifah qazana bilsinlər. O, çalışmalıdır ki, əldə edilən iqtisadi azadlıq insanlara xidmət etsin.

137. Sosial bazar iqtisadiyyatı XDİ üçün bizim gələcəkdə də azadlıqda, firavanlıqda və təhlükəsizlikdə yaşamağımıza imkan yaradan uğur modelidir. XDİ bu iqtisadiyyat və cəmiyyət modelini kürəsəlləşən dünyanın çağırışlarına cavab kimi qəbul edir.

138. XDİ sosial bazar iqtisadiyyatını dəstəkləyən partiyadır. O, Ludviq Erhard ilə müharibə dövründən sonra müxtəlif etirazlara məhəl qoymayaraq, sosial bazar iqtisadiyyatını bərqərar edib və Almaniya Federativ Respublikasının uğurunu daha da çox təmin edib. XDİ sosializmi və kollektivçiliyin digər formalarını rədd edir. Bu eləcə də təkcə bazara təsir edib, zamanımızın problemlərinə heç bir həll tapmayan cilovsuz kapitalizmə də aiddir. Sosial bazar iqtisadiyyatı yenidən birləşmiş Almaniyada və kürəsəlləşmə əsrində bizim ana xəttimizdir.

## 1. Rifah, firavanlıq və təhlükəsizliyin düzəninin əsasları

139. Sosial bazar iqtisadiyyatı ləyaqəti toxunulmaz olub, Allahın xariqəsi sayılan hər bir insandan asılıdır. O, azadlığı, həmrəyliyi və ədaləti özündə ehtiva edib tamamlayan bir quruluşdur.

140. Sosial bazar iqtisadiyyatı təkcə iqtisadi sistem deyil. O, cəmiyyət üçün bir modelidir. O, fərdin yaradıcı qüvvəsini birlikdə inkişaf etdirə biləcəyi çərçivə şərtlərini yaradır. Sosial bazar iqtisadiyyatı bu cəhətinə görə azad demokratiyanın iqtisadi - sosial quruluşudur, çünki o, dövlət konstitusiyası kimi eyni impulsa malikdir: Burda söhbət insanın ləyaqətinin və azadlığının dövlətin sui - istifadəsindən və insanların hərkiliyindən qorunmasından gedir. O, ictimaiyyətin daxili sabitliyini təmin edir.

141. Sosial bazar iqtisadiyyatı öz gücünü onda tapır ki, azadlıq, məsuliyyət, rəqabət və həmrəylik vəhdət təşkil edərək bir-birini gəlişdirir. O, azad iqtisadiyyatın və həmrəy sosial quruluşun ayrılmaz əlaqəsidir. Sosial bazar iqtisadiyyatı ictimai xarakter daşıyır, çünki o, insanlara imkan verir ki, onlar özlərinin müəyyən etdiyi kimi müstəqil yaşasın, özünün və özününkülərinin qeydinə qalsın. O, sosial ictimai daşıyır, çünki o, fərdlərin gücünü ictimai birgə hərəkətdə birləşdirir. O, ictimai xarakter daşıyır, çünki o, bizim sosial yönümlü sistemimizin ictimai təminata söykənən həmrəyliyi iqtisadi baxımdan mümkün edir. Sosial bazar iqtisadiyyatı hamı üçün firavanlıq və təminat imkanları yaradır. Sosial bazar iqtisadiyyatı münasib həyat tərzini öz gücü ilə yarada bilməyənlərə ortaq olur. Beləliklə o, sosial ədaləti gerçəkləşdirir.

142. Sosial bazar iqtisadiyyatı iş iradəsini və həmrəyliyi birləşdirir. Həmrəylik təsisatları fərdin iş görmə iradəsini zəiflətməməlidir. İş rifahın ən mühüm əsasıdır. Bu əsasla sosial barış təmin edilə bilər.

143. Sosial bazar iqtisadiyyatı rəqabət düzənidir. Sosial bazar iqtisadiyyatında siyasət düzən siyasətdir. Sosial bazar iqtisadiyyatı müəssisələrə işi təşviq edən azadlıq məkanı açır və əhaliyə malların və xidmətlərin böyük təklifini verir. O, bazarda hər kəsə fərdi məsuliyyətlə çalışmaq fürsəti yaradır. O, rəqabət şərtlərinə uyğun gələn ticarətdə qabil olan bir dövlətin əsas şərtindən biridir. Bura bazarlara hakim olan müəssisələr və bazar şəffaflığına imkan yaratmaq yolu ilə sənaye və müqavilə azadlığı, bazar əngəllərindən və hakimiyyətin sui - istifadəsindən qorunmaq daxildir. Sosial bazar iqtisadiyyatında mülkiyyətin qorunması ilkin şərtdir ki, o, birlik üçün fayda versin və bununla da onun sosial vəzifəsini yerinə yetirə bilmiş olsun.

144. Sahibkarlar və müəssisə rəhbərləri öz yaradıcılıqları və işə hazır olmaları ilə sosial bazar iqtisadiyyatının əsas sütunudur. Ölkəmizin uğuru üçün vacibdir ki, qadınlar və kişilər hər hansı bir müəssisə açmağa və risklərin öz üzərilərinə götürməyə hazır olsunlar. Bütün cəmiyyət məhsuldar işləyən və gəlir əldə edən müəssisələrdən faydalanır. Qazanca can atmaq müəssisənin təhlükəsizliyinə və onun inkişafına, bununla da ictimai öhdəliyinin yerinə yetirilməsinə xidmət edir. XDİ azad və ictimai məsuliyyətli sahibkarlığı qəbul edir. Sahibkarlar və müəssisə rəhbərləri gələcək üçün dayaqlı iş yerləri yaradır və həmçinin özlərinin şöhrəti və mədəni kimlikləri ilə Almaniyanın dünyadakı imicinə təsir edirlər. Sahibkarlara uğurlu fəaliyyət üçün sərbəst məkanlar, eləcə də uyğun çərçivə şərtləri və stimul lazımdır. Bununla yanaşı müəssisənin inkişafı sahibkarın maliyyə vəziyyətinə də təsir edir.

145. Kim sahibkarlıqla məşğul olursa, öz üzərinə məsuliyyət götürür. Burada ətraf mühitə, gələcək nəsillərə və bilavasitə işçilərə və öz ailələrinə olan işgüzar və ictimai münasibətlər nəzərdə tutulur. Buraya həm də aşağıdan tutmuş yuxarıya qədər bütün rəhbər vəzifələrdə müəssisə tərəfindən kişi və qadınların bərabərliyi, habelə eyni mahiyyətli və eyni iş üçün bərabər məvaciblərin nəzərə alınmalıdır. Uzaqgörən müəssisələr bilirlər ki, bu onların öz mənafeyinə xidmət edir. Sahibkar sosial bazar iqtisadiyyatının ana xəttini imkanlı sahibkarlar təşkil edir. Buna görə də Almaniyada da menecerlərin cavabdehliyi artırılmalıdır.

146. Sosial tərəfdaşlıq, tarif autonomiyası müəssisə və idarələrin razılaşması formasında təzahür tapan razılaşma bizim iqtisadiyyatımızın və sosial quruluşumuzun əsaslarını təşkil edir və xristian kilsələrinin sosial etikasının ifadəsidir. Bizim işləyən insanın ləyaqəti haqqındakı düşüncəmiz onun iş həyatına dair qərarlar verilərkən özünün də burada iştirakını tələb edir.

147. İşə götürülən də sahibkarlar kimi öz işi, işgörmə bacarığı və işə hər zaman hazır olması ilə öz müəssisəsinin, xalq iqtisadiyyatının uğuruna, ümumilikdə isə bunlarla ölkəmizin rifahına və inkişafına yardım edir. Onlar bununla öz mövcudluğunun və vətəndaşlarının təhlükəsizliyinə töhfə verir.

Uğur əldə edə bilmələri üçün müəssisələrə yaxşı təhsil almış, yaradıcı və ruhlandırıcı əməkdaşlar lazımdır. İşə götürülənə onun bacarığını tam və uğurla inkişaf etdirə bilməsindən ötəri təsiretmə imkanın olması, məsuliyyət və sərbəst məkanlar lazımdır. Təhsil və ixtisas üzrə təkmilləşmə onun məşğuliyyət və iş görmə qabiliyyətini təmin edir. İşə götürülənin eyni zamanda onun şəxsi

həyatını planlaması üçün əsaslı iş və sosial qorumaya ehtiyacı var. Onların ictimai rifahda münasib iştirakı üçün ixtiyarı var.

148. Almaniyada müəssisənin inkişafı və məşğulluğun təminatı üçün xaricdə də iş yerlərinin açılması zəruridir. Lakin biz müəssisələrdən gözləyirik ki, onlar sosial və ictimai nəticələri nəzərə alaraq məsuliyyətlə belə qərarlar versinlər və Almaniyanın yaxşı olmasını dəstəkləsinlər.

**2. Kürəsəlləşmiş dünyada sosial bazar iqtisadiyyatı**

149. Biz təkcə sığortalamaq və uzaqdan idarə etməklə yox, daha çox azadlıq və rəqabətlə sosial bazar iqtisadiyyatının gücünü saxlaya bilərik. Biz beynəlxalq müqayisədə nə qədər dəyərliyiksə, bir o qədər də yaxşı olmalıyıq. Bu dinamik dünyada bizə hər şeyi bilməyə can atan, innovativ və yaradıcı Almaniya lazımdır. İqtisadi uğur bu gün daha çox texnologiya, istedad və tolerantdan asılıdır. Yalnız açıq və müxtəliflik olan cəmiyyət ideyaların əmələ gəldiyi və rifahın innovasiya vasitəsilə təmin olunduğu yaradıcı bir mühit yaradır.

150. XDİ xalq partiyası kimi kürəsəlləşmənin formalaşmasında həm sahibkarların həm də işə götürülənlərin, həm nailiyyət əldə edənlərin həm də həmin nailiyyəti qəbul edənlərin, şəhər və kənd regionlarını maraqlarını nəzərə alır. Bizim üçün Almaniyada böyük iqtisadi rəqabət olsa belə, xristian dəyərlərinin bazasında biz dünyanın az inkişaf etmiş regionlarının insanlarının da daha yaxşı perspektivlər əldə etməsinin tərəfdarıyıq. Bizim məqsədimiz həm milli həm də beynəlxalq şanslar ədalətinin olmasıdır. Biz öz təsirimizdən bütün dünyada yarınmaq istəyirik. Yoxsulluğa, aclığa, epidemiyaya, savadsızlığa, korrupsiyaya, insan hüquqlarının pozulmasına, diskriminasiyaya və savaşsal münaqişələrə qarşı mübarizədə biz artan uluslararası ticarət şəbəkəsini və bazarların tərəqqi edən açılışını vacib hərəkətverici qüvvə sayırıq.

151. Avropa İttifaqının iqtisadiyyat və dəyərlər birliyi elə uğurlu bir modeldir ki, milli kimliklərini saxlamaqla, hüquqi, sosial və ekoloji standartları nəzərə almaqla hamının xeyrinə işləyə bilər. Eyni zamanda Avropa dünyanın başqa güc və iqtisadiyyat mərkəzləri ilə müqayisədə qloballaşan iqtisadiyyat üçün doğru qayda çərçivəsinin həyata keçirilməsində güclü bir aktyordur. Biz Aİ-ni bu mühüm gələcək işlər üçün möhkəmlətmək istəyirik.

152. Biz mövcud olan beynəlxalq təşkilatların işgörmə bacarığını, güclülüyünü, şəffaflığını və fəaliyyətinin daha da yaxşılaşdırılmasının tərəfdarıyıq. Onlar azad və insanpərvər dünya düzəninin formalaşmasını irəli aparmaq üçün müvafiq vasitədir. İqtisadi cəhətdən güclü dövlətlər

zəiflərin maraqlarına daha əhəmiyyətli yardım etmək üçün öz məsuliyyətlərini dərk etməlidir. XDİ mövcud olan xalqlar birliyi qurumlarından bütün dünyada insan haqlarının bərqərar edilməsi və ayrılmaz ekoloji minimal sosial standartlar üçün istifadə etmək istəyir. Uşaq əməyi və işəgötürənlər tərəfindən onların istismarı yol verilməzdir.

153. XDİ çoxdandır ki, azad bazarların və sağlam rəqabətin müsbət cəhətdən formalaşdırma gücünə inanan siyasətin xidmətindədir. Bizim üçün azad ticarət kürəsəl iqtisadiyyatın inkişafının və ədalətin müvafiq şərtidir. Ticarət və kapital üçün bazarların açılması, habelə beynəlxalq rəqabət doğru şərtlər altında baş tutmalıdır. Bu müqayisəli və doğru rəqabət şərtləri bu gün hələ də verilməyib. Ona görə də biz beynəlxalq səviyyədə qəbul edilmiş standartların həyata keçirilməsini müdafiə edirik. Ticarətə olan mövcud əngəllər ardıcıl olaraq ortadan qaldırılmalıdır.

154. Bazar heç də həmişə monopoliyanın və kartellərin yaranmasının qarşısını almaq iqtidarında olmur. Beynəlxalq, özəl, dövlət aktorlarına qarşısıalınmaz qüvvələrinin inkişafına mane olmaqdan ötəri, beynəlxalq bazarların təhlükəsizliyi çox zəruridir. Bu lehinə beynəlxalq səviyyədə razılaşdırılmış rəqabət düzəni tələb edir.

155. Bizim iqtisadi-siyasi etiqadımız milli iqtisadi-strateji məqsədlərini yerləşdirməyə çalışan dövlətlərin davranışları ilə fəal müdaxilə edərək böyüyən mübahisəyə mane olur. Biz bu dövlətləri azad və sağlam rəqabətin düzgünlüyünə inandırmaq və beynəlxalq qayda çərçivələrini möhkəmlətmək istəyirik. Nə qədər ki, korlanmış rəqabət şərtləri hökmranlıq edəcək və bizim milli mənafelərimiz mərkəzi strateji əhəmiyyət sahəsində təhlükə altda olacaq, dövlətimizin müdaxiləsi vasitəsilə bu mənafeləri həyata keçirmək legitim sayıla bilər. Şübhə oyanan təqdirdə üstünlük bazarlara veriləcək.

156. Aydın seçilən əqli mülkiyyət hüquqları uzunmüddətli tədqiqat və inkişaf çabasının əsasıdır və bizim iqtisadi uğurumuzun ilkin vacib şərtidir. Bütün dünyada patentlərə və ideyalara olan mülkiyyət hüququna müxtəlif formalarda hörmətsizlik edilir. Elə innovasiya məkanı Almaniya üçün də ümumdünya ticarət təşkilatında əqli mülkiyyətə dair əlaqəli və qəbul edilmiş qaydaları qorumaq, işə salmaq və möhkəmlətmək diqqət mərkəzindədir.

157. Qlobal fəaliyyət göstərən müəssisələr getdikcə milli qanunvericilikdən boyun qaçıra bilirlər. Bazarların təşkilatı siyasi cəhətdən qurulması heç vaxt təkmil olmadığına və əlahiddə tənzimləmə iqtisadi əngəllərə gətirib çıxardığına görə məsuliyyətli müəssisələrə istinad edirik.

Ona görə də Birləşmiş Millətlər Təşkilatının “Qlobal kompakt” kimi könüllü öhdəliyi yaxud İƏİT-in (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) əsas müddəaları multimilli müəssisələr üçün dəstəklənməlidir.

158. Qlobal maliyyə bazarı dünyada rifahın artmasına xidmət edir və sərmayələr formasında bir çox “astana ölkələrinin” (inkişaf etməkdə olan ölkələr) iqtisadi dirçəlişinə imkan yaradır. Açıq bazarlar və azad rəqiblər Almaniyanın kapital bazarının cəlbediciliyini və likvidikliyini təmin edir. Şəxsi aksiya fondu (Private-Equity fondu) kimi əsas imkanlar axtarışında olan fondlar, Almaniyada da müəssisələrin rəqabət aparmağa və sərmayə qoymağa bacarıqlılığını artırılmasına təsir edə bilərlər. Əslində çox dəfə ayrı-ayrı fərdi sərmayəçi qrupların maliyyə vəsaitləri həmçinin müəssisə və nüfuzlu bankların bazarlara olan hakimiyyəti bir neçə dəfə artır. Buna görə də biz dünya üzrə ticarət sahələrində və maliyyə bazarlarında etibarlı qayda çərçivəsinin və daha çox şəffaflığın qeydinə qalması üçün mövcud beynəlxalq təşkilatlardan faydalanmaq istəyirik.

159. Beynəlxalq rəqabətin əsasında istehlakçılar bəzilərinə sərfəli qiymətlərin və çeşidli məhsulların istifadəçisinin, digərlərinə isə kürəsəlləşmənin yaradıcılarıdır. Onlar öz satış və əsas qərarları ilə daim hər bir məhsulun və istehsalçının bazarda uğur qazanmasına təsir göstərirlər. Almaniyada təklif olunan xarici məhsullar heç də Almaniyanın öz məhsulları kimi eyni sosial, hüquqi və ekoloji şərtlər altında istehsal olunmur. Biz məsuliyyətə şüurlu yanaşan istehlakçılar üçün qərar vermə prinsiplərini yaxşılaşdırmaq və buna görə də beynəlxalq baxımdan yararlı və etibarlı idxalının həyata keçirilməsinin şəffaflığını təmin etmək istəyirik.

**3. İqtisadiyyat və Əmək**

160. İnsanların çoxu son on illərdə sosial bazar iqtisadiyyatına inamını itirib. Belə bir təəssürat yaranıb ki, başlıca iqtisadi və ictimai problemləri ilk öncə də yüksək işsizliyi o, həll edə bilməz. Bu problemlərin həllinə təkcə sosial bazar iqtisadiyyatı yox, həm də onun əsas prinsiplərinin tez-tez pozulması halları əngəl törədir. Kürəsəlləşmə vasitəsilə bu səhlənkarlıqlar daha aydın görünəcək.

161. Biz sosial bazar iqtisadiyyatının əsaslı qayda prinsiplərini həmişə yaxşı xatırlamalı və tam məşğulluq məqsədinə, daimi və müvafiq iqtisadi artıma, əsaslı büdcəyə və sabit sosial sistemə nail olmaq üçün onu düzgün tənzimləməliyik. O cümlədən bura yaradıcılığın qorunması, təbii resursların ehtiyatla istifadəsi daxildir. Onda biz azadlığın və ədalətin, yüksəliş və

təhlükəsizliyin, hər kəsin birgə və bir-biri üçün yaşadığı ölkə olacağıq. Aparıcı xətt yardımçılıq prinsi olmalıdır. Vacib olan budur: İmkanca dövlətin az müdaxiləsi, lazım gəlsə çox müdaxiləsi. Rifahımızı təmin edib artıra bilmək üçün və işlərin yolunda olmasından ötrü Almaniyanın köklü islahatlara ehtiyacı var. Bu zaman sosial ədalət vətəndaşların həyat imkanlarını müəyyən edir.

162. Bu cür islahatlarla sosial bazar iqtisadiyyatı vətəndaşların həyat şəraitini passiv qəbul edici olmaqdansa, şəxsi məsuliyyəti ilə daha yaxşı qurmaq üçün onlara imkan yarada bilir. İctimai və siyasi iştiraklar bir-birinə ehtiyacı var. Sosial bazar iqtisadiyyatı və demokratiya yalnız birlikdə baş tuta və inam qazana bilər.

**Daha çox rəqabət, daha çox azadlıq və daha çox iştirak**

163. İqtisadiyyat sahəsinin rəqabətlik bacarığı onun müəssisəsinin dinamikliyindən əmələ gəlir. Almaniyanın iqtisadiyyatı sənətin, orta təbəqənin, ticarətin, azad peşələrin, sənayenin, yaxşı təhsil almış ixtisaslı işçilərin habelə bir tərəfdən yaşayış yerinə yaxın, yaxşı xidmət göstərən, digər tərəfdən isə qlobal rəqabət qabiliyyətli və uğurlu beynəlxalq müəssisələrin yüzilliklərdən gələn ənənəsinə əsaslanır. Orta təbəqəyə məxsus olan müəssisələr, xidmət və manifaktur sənəti qurumları, habelə azad ixtisaslar bizim iqtisadiyyatımızın onurğa sütunudur. Onlar təhsil və iş yerlərinin çox hissəsini yaradırlar. Dövlətin vəzifəsidir ki, optimal çərçivə şərtləri vasitəsilə yeni müəssisə yaradan və kiçik və orta müəssisələrə imkan yaratsınlar. Daha çox bazar yeni müəssisə yaratma üçün daha çox şans deməkdir. Biz dövlət kvotasını endirmək, bürokratiyanı aradan qaldırmaq, əmək hüququnu gözə çarpacaq və çevik, vergi hüququnu isə rəqabətə davamlı şəkildə formalaşdırmaq və müəssisələrin maliyyələşmə şərtlərini yaxşılaşdırmaq istəyirik.

164. Bizim məqsədimiz Almaniyada daha çox sərmayə üçün ilkin şərtlərə inamın yaradılmasıdır. Biz Almaniyanı müəssisələr mərkəzlərinin cəlbedici yerləşmə yeri kimi, sərmayə qoyulacaq yer kimi həmçinin beynəlxalq riskli sərmayəçilər kimi güclənməsini və öz ölkəmizdə sənaye yaradıcılığının yüksək rəğbətini əldə etmək istəyirik. Almaniyanın maliyyə sahəsi inkişaf və məşğuliyyət üçün böyük əhəmiyyət kəsb edir.

165. Biz daha çox azadlığı və rəqabəti mümkün etməliyik. Bu hər şeydən öncə yeni bazarlar açmaq və onları açıq saxlamaq, qeyri-sağlam rəqabətin qarşısının alınmaq və rəqabətə ziyan gətirən iqtisadi gücə qarşı mübarizə aparmaq deməkdir. Biz dövlətin maddi yardımlarını məhdudlaşdırmaq və onu aradan qaldırmaq sonradan isə iqtisadi müəssisələri dövlətin iştirakı ilə

özəlləşdirmək istəyirik. Kommunal sahələrə aşağıdakılar şamil edilir: Əgər xidmət özəl sahədə yaxşı yaxud daha yaxşı sübut olunmursa, onda ictimai nəzarət buna fəaliyyətə keçməlidir.

166. Rəqabət siyasətinin bir çox məsələləri Avropa daxili bazarında Avropa səviyyəsinə keçmişdir. Daxili bazarın və kürəsəlləşməsini güclü tələbləri fonunda istəyirik ki, Aİ-nin rəqabətə nəzarəti milli rəqabət idarələri və qurumlarının nəzarəti altında müasirləşib inkişaf etdirilsin.

167. Rəqabət istehlakçı hüququnun yaxşı qorunmasının əsas şərtidir, zira hər bir rəqabəti azaldan monopoliya istehlakçının çeşidlilik və seçim azadlığını məhdudlaşdırır. İstehlakçı hüququ vətəndaş hüququdur. İstehlakçı hüququnun qorunması dolayı siyasi vəzifəsidir. Bu geniş əhatəli istehlakçı siyasətinin tərkib hissələrindən biridir ki, istehlakçı ilə iqtisadiyyatın maraqları arasında tarazlıq axtarır və Almaniyada yüksək həyat səviyyəsinin saxlanmasına çalışır. Özünü təyin etmə və dövlətin himayəsinin balanslaşması nəticəsində bu istehlakçı hüququnun həyata keçirilməsində optimal yoldur. Məhsullar və onların keyfiyyəti barədə etibarlı, ətraflı və obyektiv informasiya məsuliyyətli istehlak münasibətlərinə imkan verir. Bizim məqsədimiz təcrübəli və məlumatlı istehlakçıların olmasıdır. İstehlakçı hüququnun qorunması təkcə dövlətin işi deyil, əksinə o, istehsalçının, emalçıların, təkliflilərin və istehlakçıların birgə fəaliyyəti və məsuliyyətinin nəticəsində həyata keçirilir. Biz dövlətin istehlak idarəsini istəmirik.

168. Cəlbedici iqtisadiyyat sahəsinin işlək infrastruktura ehtiyacı var. Avropanın göbəyində yerləşən tranzit ölkəsi Almaniya üçün Avropanın iqtisadi inteqrasiyası artan nəqliyyat axını deməkdir. Nəqliyyat infrastrukturunun daha yaxşı istifadəsi və tələb olunan zaman onun yenidən düzəldilməsi daha da inkişaf etmənin əsas şərtidir. Bu şəhərləşmə mərkəzlərinin və kənd yerlərinin inkişaf imkanları fonunda hesablanır. İnfrastrukturun daha da inkişafı həm yeni həm də köhnə sahələrdə zəruridir. Bundan nəticələnən yüksək infrastruktur ehtiyacı yalnız ictimai büdcə ilə örtülə bilməz. Buna görə də nəqliyyat infrastrukturunun özəl maliyyələşməsinin səmərəli imkanlarının möhkəmliyi intensiv olaraq bura kimi istifadə edilməlidir. Təhlükəsiz, ətraf mühitə ziyan verməyən və iqtisadi enerji təchizatı yerləşdiyi yerin keyfiyyəti üçün əhəmiyyət kəsb edir.

169. Sosial bazar iqtisadiyyatının uğurlu yeniliyi Almaniyanın vətəndaşlarının və iqtisadiyyatının xidmət və innovasiya qabiliyyətlərinin olmasından asılıdır. Biz gələcək üçün bazarlar açmaq istəyirik. Almaniyadan olan innovasiyalar, yeni məhsullar və xidmət sahələri o vaxt dünya bazarında da şans qazanacaq ki, o, Almaniyanın daxili bazarında dövriyyədə olmuş

olsun. İxtiralar və patentlər ölkəsindən ideyaları həyata keçirən ölkəyə çevrilməlidir. Almaniya özünü bütün dünyada yaxşı tanıtmaq və cəlbedici çərçivə şərtləri təklif etməkdən ötrü savadlı insanlar və əzimli ideyalar yetişdirməlidir. Sənətdə, xidmətdə və sənayedə peşəkarlara ehtiyac duyulur.

**Hamı üçün iş**

170. Hamı üçün iş sosial ədalətin özülünü təşkil edir. Əmək özünü gerçəkləşdirməyə imkan verir, həyatı mənalı edir və şəxsin ictimai iştirakı üçün əsas şərtlərdən biridir. Heç kəs kənarda qalmamalıdır. Əmək qazanc və rifah gətirir. Sosial bazar iqtisadiyyatı tam məşğulluğu istəyir. Bu məqsədi dövlət və tarif partnyoru öhdəliyinə götürür. Kütləvi işsizlik dözülməz, qəbuledilməz və iqtisadi cəhətdən zərərlidir. Mövcud perspektivsizlik bütün ailəni əhatə edə və nəsillərin həyat imkanlarına zərər verə bilər.

171. Almaniyada işsizlik əsasən struktural problemdir. Bizə yalnız davamlı inkişaf etmə yox, həm də məqsədyönlü təhsil investisiyaları və iş bazarında ətraflı islahatlar lazımdır. Biz yaşlılar, məhdud ixtisaslılar və uzun müddətli işsizlər üçün daha yaxşı məşğulluq şansları yaratmaq istəyirik. Özlərini azadlıqdan və iştirakdan qıraqda hesab edənlər məhz bunlardır.

172. Əmək bazarlarına münasibətdə söhbət işə girənlərin qanuni müdafiə ehtiyaclarının, işsizlərin məşğulluq şanlarının və müəssisələrinin maraqlarının eyni olmasından gedir. İş bazarında müdafiə qaydaları və ya əmək hüququ elə formalaşdırılmalıdır ki, işsizliyə şərait yaratmasın. İşsizlərin məşğulluq şanslarını yaxşılaşdıran işdən çıxarılmadan qorunma qaydalarının mülayimləşdirilməsi bu üzdən ədalət prinsipinin tələbidir. Ona görə də yaşıl işıq olmalıdır. Bu mənada doğru maraqların razılaşdırılması tarif müqavilə şuraları ilə birgə qəbul edilməlidir.

173. Tarif autonomiyası Almaniyanın sabitliyi üçün zəmanətdir. O, təkzib edilmədən sosial bazar iqtisadiyyatının qayda çərçivəsinə aiddir. Tarif müqavilə şuraları bununla 21-ci əsrin dəyişən əmək mənzərəsinə çevik cavablar tapmağa başlayıb. Bütün müəssisələrlə eyni rəftar edən hərəkətsiz sahə tarif müqavilələri heç də yetərli cavab deyil. Həmkarlar və sahibkarlar birlikləri öz məsuliyyətlərinin bir hissəsini müəssisələrə yönəltməlidir. Beləliklə, mərkəzləşmiş şəkildə razılaşdırılmış çərçivə tarif müqavilələri desentral spesifik ehtiyacları ödəyə bilərlər. Biz bu prosesi müəssisə ittifaqlarının hüquqi formalaşdırılması vasitəsilə tamamlamaq istəyirik. Birgə verilmiş qərarları biz işə götürülənin maraqlarının təmsilçisi kimi gələcək üçün,

müəssisəyə doğma yanaşmaqla məşğuliyyətdən həzz alaraq inkişaf etdirəcəyik. O, müəssisələrin artan beynəlxalq şəbəkələrini nəzərdə tutmalıdır.

174. XDİ sosial kapital əməkdaşlığı çərçivəsində işçinin müəssisənin uğurunda və kapitalında iştirakını yaradan imkanları daha da inkişaf etdirmək istəyir. Bu işçilərə əlavə gəlir mənbəyi, yaşlılar üçün əlavə qayğı imkanı açır, daha çox ədalət yaradır və öz müəssisələri ilə əməkdaşların identifikasiyasını artırır. Müvafiq instrumentlər, eləcə də iflasdan sığortalanma mümkün qədər işlək olmalı və hər bir müəssisənin xüsusi münasibətləri nəzərə almalıdır. Bundan müəssisə kapitalında iştirak müəssisənin fərdi sərmayə payını gücləndirir.

175. İctimai rifah əməkdən başlayır. Daha çox inkişaf etmək və daha çox əmək bir-birini şərtləndirirlər. Çevik iş vaxtlarından istifadə məsələn, illik iş vaxtı hesabından, iş çevik və daha məhsuldar təşkil edilə bilər. Bununla əlaqədar olaraq XDİ iş vaxtının iflasdan sığortalanma imkanını dəf etmək üçün tarif əməkdaşlarını stimullaşdırır.

176. Qanuni yaxud müəssisə tərəfindən qoyulmuş yaş həddinin çatması ilə əsaslandırılaraq şəxsin istəyi olmadan iş həyatının məhdudlaşdırması tez-tez bu halla qarşılaşanlar tərəfindən buna layiq olmadıqları kimi qəbul olunur. Yaş həddi təqaüdə çıxmanı müəyyən edən zaman xüsusi rol oynayır. Əgər kimsə buna baxmayaraq işləməyə davam etmək istəyirsə, ona mane olunmamalıdır. İş aləmi və işçi qüvvəsi bir-birinə qarşılıqlı təsir edərək elə inkişaf etməlidir ki, mümkün qədər demoqrafik dəyişikliklərə üstün gəlinsin.

177. Bütün vətəndaşlar özlərini dolandıra biləcək gəlir əldə etməlidirlər. Bizim əmək bazarı üçün olan siyasətimizin mahiyyəti budur: fəaliyyət sərfəli olmalıdır. Bu da zəhmətin ədalətlilik prinsipinə söykənir ki, işləyən az işləyəndən daha çox qazanır. Biz məhdud ixtisaslı adamların uyğun məvacib ilə sadə bir işdə legal olaraq məşğul olmasına imkan verən çərçivə şərtlərini daha da yaxşılaşdırmaq istəyirik. Bunun üçün biz az məvacib olanları maliyyə baxımından dəstəkləmək istəyirik. Bu iş axtaranları yaxşı iş imkanı əldə etməyə həvəsləndirməli və sahibkarları yeni iş yerləri açmağa ruhlandırmalıdır. Biz işsizliyin əvəzinə işi gəlişdirmək istəyirik.

178. Biz Almaniyada az məvacibli rəqabətin olmasını istəmirik. Müəssisənin yerləşdiyi məkanda həmin iş sahəsi üzrə normal maaşlardan aydın şəkildə aşağı olan qeyri-məqbul maaşlar buna görə də qadağan edilməlidir.

179. Yüksək olan əlavə əmək haqqı xərcləri işsizliyə və xəlvəti işə təsir edir. Biz əlavə əmək haqqı xərclərini endirmək və əmək qiymətindən sosial xərcləri tədricən ayırmaq və bununla da iş yerlərinin və xəlvəti işin fəaliyyətinə mane olmaq istəyirik.

**4. Demoqrafik dəyişikliyin düzəldilməsi – Bütün nəsillər üçün sosial təminat**

180. Həmrəylik və sosial təminat ilk öncə dövlətdən gəlmir. İnsan təbiətən ictimai, cəmiyyətə yönəlik, həmrəyliyə qabil və məsuliyyətli bir varlıqdır. Ailədən, qonşuluqdan, vəzifədən, birliklərdən və təşəbbüslərdən tutmuş kilsələrə və xristian icmalarına qədər həmrəyliyi yaşadan yerlər və təsisatlar var. Həmrəylik heç də həmişə cəmiyyətin içindən mövcud olmur, əgər söhbət sosial təminatın əsaslarından gedərsə o, bir gün yoxa çıxa bilər. Nikah, ailə, uşaq bağçası, məktəb və peşə təhsili gələcək sosial rifah üçün insanın başqa şeylərdən daha önəmli həyat şanslarıdır.

Sosial yardım xidmətinin daşıyıcıları həmrəyliyin konstitusiya hüququ tərəfindən legitimləşdirilmiş bazasında cəmiyyət mühüm xidmətlər göstərirlər.

181. XDİ insanların yaşam imkanlarını və cəmiyyətdə insanların birgə yaşamasını yaxşılaşdıran sosial siyasət üçün özünü borclu sayır. Təminat və həmrəyliyin maliyyə dəstəyindən əsaslanan təsəvvürünü rədd edirik. Yalnız fərdi məsuliyyət, dövlətsəl xidmətlər və vətəndaş çabasının insanlara lazım olan təhlükəsizliyi yarada bilər.

182. Sosial dövlət çox şeylər edib. Ondan imtina edilə bilməz. Sosial təminat sistemləri əsasən XDİ tərəfindən formalaşdırılıb. Onlar risklərin həmrəy olaraq təhlükəsizliyə alınması vasitəsilə insana təminat yaradır. Onlar geniş rifah, sosial barış və ictimai iştirak təqdim ediblər. Onlar özlərini inkişaf etdirsələr və dəyişsələr gələcəkdə öz vəzifələrini yerinə yetirmiş olarlar. Məqsəd elə aktivləşdirici sosial dövlətdir ki, o, hər bir fərdi güclü təşkildə motivə edir və özlərinin imkanlarının çərçivəsində fərdi təşəbbüs və fərdi məsuliyyəti öz üzərinə götürə biləcək vəziyyətə gətirir.

183. Sosial təminat sistemlərinin yaranmasında üç əsas prinsipə söykənirik: Həmin sistemlər fərdi məsuliyyət prinsipini gücləndirməli, nəsillərin ədalət prinsipinə uyğun olmalı və işin dəyərləndirilməsində ədalət prinsipini pozmamalıdır. Onların qazanc gətirən işdən asılılığı aradan azaldılmalıdır. Ona görə də sosial təminat və qazanclı iş ayrılmalı, habelə maliyyələşmə geniş təməl üzərində qurulmalıdır. Bizim sosial təminat sistemlərimiz bütün fərqli ehtiyacları,

yaşam mərhələlərini və vəziyyətlərini hesaba almalıdır. Bununla da hər kəs əsaslı risklərdən qorunmalıdır. Fərdin özünə qarşı diqqətli olması üçün vəziyyətə hazırlığı və bacarığı daha da möhkəmlənməlidir. Bütün təminat sistemlərində rəqabət, şəffaflıq, fəaliyyət, məsrəflərə qarşı diqqətlilik və məsuliyyətlilik və yardımçılıq prinsipi daha da möhkəmləndirilməlidir. Biz sosial xidmətlərin və xəlvəti işlərin istismarına qarşı qətiyyətlə mübarizə aparmalıyıq, çünki onlar həmrəyliyi içindən oyurlar.

**Tibbi sığırta**

184. XDİ istəyir ki, gələcəkdə gəlirindən, yaşından və sağlamlıqla bağlı yarana biləcək hər bir halın ağırlığından asılı olmayaraq hər kəs üçün yaxşı və yaşayış yerinə yaxın olan tibbi qulluq xidmətləri yaratsın və hamı ən yaxşı tibbi nailiyyətlərdən istifadə edə bilsin. Həkim seçiminin və həkimlik ixtisaslarının azad olması azad səhiyyə sisteminin özəyidir.

185. Demoqrafik dəyişikliyin və tibbi eləcə də tibbi-texniki tərəqqinin sayəsində qanuni və şəxsi tibbi sığortanın təşkili və maliyyələşməsi gələcəyə yönəlik inkişaf etdirilməlidir. Fərdi məsuliyyətlilik və xəstəliyin baş verməməyi üçün öncədən tədbir alma gücləndirilməli, fəaliyyət potensialı və iqtisadi potensialdan səmərəli istifadə edilməli habelə azad seçim və qərar vermə imkanları yaradılmalıdır.

186. Sağlam həyat tərzini pozan xəstəliklərin qarşısını almaq və öz sağlamlığını qorumaq hər bir şəxsin məsuliyyətində və marağındadır. Ona görə də xəstəliyin qarşısının alınması təxirəsalınmaz müalicə, reabilitasiya və qulluqla yanaşı əsas sütunlardan birinə çevrilir. Fərdi məsuliyyəti, xəstəliyin baş verməməyi üçün tədbir almanı və sağlamlığın qeydinə qalmanın möhkəmləndirilməsinin ən vacib yolu bonus modelləri, seçim və özünü qoruma tariflərinin yaradılmasıdır.

187. Müstəqil səhiyyənin keyfiyyəti, tədbir alma təhlükəsizliyi və maliyyələşməsinə nail olmaqdan ötrü keyfiyyət rəqabətini gücləndirməliyik. Bunun üçün fəaliyyət və xərclər şəffaf olmalıdır.

188. Dövlət tərəfindən xəstəlik sığortasında iş gəlirindən tutulan maliyyə həmrəy mükafat elementləri vasitəsilə tamamlanır. Bunlar bacardıqca tez razılaşdırılmış mükafat modeli vasitəsilə sərmayə toplamaqla əvəzlənəcək. Az gəlirli insanların sosial bərabərliyi qorunur. Uşaqlar həmrəylik sisteminin davam etməsində ən mühüm şərt olduğundan onların gələcək

sığortaları cəmiyyət tərəfindən təşkil edilir. Uşaqların sosial bərabərliyi və sığortası büdcə hesabına maliyyələşdirilir. Sağlamlıq üçün ayrılmış xərclərdən və qazancdan hissə-hissə ayrılan vəsait hesabına xəstəlik sığortasının gələcəkdə də maliyyələşməsi təmin edilir.

**Yaş sığortası**

189. Almaniyada yaş sığortasının 3 əsas sütunu var: dövlət təqaüdçülük sığortası, iş yerindən göstərilən qayğı və fərdi qayğı.

190. Dövlət tərəfindən verilən təqaüdçülük sığortası bu günə qədər yaş sığortasının ən vacib formasıdır. O, nəsillər arası sözləşməyə əsaslanır. Əhalinin yaş tərkibinin dəyişməsi və sosial sığortalarla məşğul olan qurumların sayının getdikcə aşağı düşməsi o yerə gətirib çıxarır ki, günü-gündən artan az işləyənlərin sayı daim artan pensiyaçıların sayı ilə üz-üzə dayanır. Ona görə də nəsillər arasındakı müqavilə gənclərə onların təhlükəsiz bir həyat planlamasına imkan verən və yaşlılara yüksək etibarlılıq təklif edən yeni və sabit əsaslar üzərində qurulmalıdır.

191. Fəal nəsilin öz xidmətləri artıq işləməyən nəslin gəlirinin böyük hissəsini çıxarır və öz uşaqları vasitəsilə həmrəy cəmiyyətin davam etməsini təmin edir. Biz buna görə də tərbiyə edənlərin zəhmətinin dəyərləndirildiyi və qiymət verildiyi ailəcanlı cəmiyyətin tərəfdarıyıq.

192. Dövlət tərəfindən edilən təqaüd sığortası gələcəkdə də yardıma hiss edilən dərəcədə aid olmalı və müəyyən sığorta səviyyəsini aşağı endirməməli və bu zaman yardım edənləri həddən artıq yükləməməlidir. Dövlət tərəfindən edilən təqaüd sığortası başqa sığorta sistemlərində nəzərdə tutula bilən nailiyyətlərə gətirib çıxan qanun böhranına səbəb olardı. Bunun nəticəsi hamı üçün az təminat amma təminat olardı.

193. Pensiya təkcə qocalanda yoxsulluqdan qaçmaq üçün vasitə deyil. O hər bir kəsə azadlıq yaradır və yardımların verilməsinə, uşaqların tərbiyəsinə, ailə üzvlərinin qayğısına qalmaq kimi xidmətlər göstərir. O, həyatda qalanlara və iş həyatında sağlamlıqla bağlı artıq heç bir problemi olmayan insanlara gələcəkdə lazımi xidmətlər sübut edir.

194. Təkcə dövlətdən verilən təqaüd hesabına yaşlıların həyat şəraitini artıq təmin edə bilməz. Bundan irəli gələrək hesab edilir ki, yaşlıların həyat şəraitini təmin edə biləcək digər diqqət formaları məsələn, iş yerindən və fərdi yardımın olması çox vacibdir. Belə yardım formaları səmərəli və məqsədyönlü aparılmalıdır.

195. İşləyərək təqaüddə olmanın əhəmiyyəti getdikcə artır. İşçidən son dərəcədə mobillik və çeviklik tələb olunur. Çərçivə şərtləri bunları işləyərək təqaüddə olanlar üçün nəzərə almalıdır. Biz işə götürənin və işə götürülənin pul köçürə bildiyi və gözlənən haqdan başqa (əlacsızlıq dövrü) şəxsi hesabın da olmasının tərəfdarıyıq. İşləyərək təqaüd haqqı artıq tanınmalıdır.

**Qulluq sığortası**

196. Avropa İttifaqı tərəfindən irəli sürülmüş qulluq sığortası özünü doğrultmuşdur. O, gələcəkdə də qayğı göstərənin risklərini sığortalaya biləcək etibarlı xidmət göstərməlidir və yüksək keyfiyyətli dəstək və qayğı eləcə də qulluq təklif etməlidir. Şaxəli sığortalama gələcəkdə də mütləq tətbiq edilməlidir. O, hər bir fərdin qulluq riskinin sığortalanması və qulluğun təşkili üçün şəxsi məsuliyyətini və şəxsi təşəbbüsünü dərk etməkdən azad etmir.

197. Qulluq sığortası gələcəyə yönəlik maliyyə bazasının üzərində qurmaq üçün əlavə maliyyələşməsini mərhələlərlə həmrəy mükafat elementlərini tamamlamalı və nəsillərin ədalətliliyi mənasında mümkün qədər sərmayə qoyulan və həmrəy mükafat modeli ilə əvəz edilməlidir. Yüksək mükafatlanmada valideynlərin tərbiyə xidmətləri nəzərə alınmalı və büdcədən sosial bərabərlik tətbiq edilməlidir

198. Xəstəliyin qarşısını alma və reabilitasiya qulluq tədbirlərindən öndə durmalıdır. ”xəstəxanadan öncə təcili yardım” bizim əsas prinsipimizdir. Yeni yaşayış və qulluq formaları inkişaf etdirilməli və gücləndirilməlidir. Qulluğa ehtiyacı olanlar tərəfindən təcili, yarımstasionar və stasionar hallarda yerləşdirilmiş qulluq büdcəsindən və qulluq etmə vaxtı vasitəsi ilə biz ev şəraitində göstərilən qayğını möhkəmlətmək və qayğı göstərən ailə üzvünün çabasını daha yaxşı qiymətləndirmək istəyirik.

199. Qulluq sığortasının strukturunda və maliyyələşməsində edilən dəyişikliklər məcburi sığortanın işini dinamikləşdirən və qulluğa ehtiyaca – hər şeydən əvvəl insanların xeyrinə olan gündəlik həyatdakı məhdudlaşdırılmış səlahiyyətlər ilə məsələn, irsi zəkasızlığa - yenidən şərh edən imkanlar açır. Məqsəd qulluq xidmətlərinin real sabit səviyyəsini bərqərar etmək və qulluğa ehtiyacı olanların, onların ailə üzvlərinin və sosial yardım daşıyıcıların əlavə ödəməyə olan ehtiyacına mane olunmalıdır.

**İşsizlər üçün sığorta**

200. İşsizlər üçün olan sığorta gələcəkdə işsizlik zamanı yaxşı işdən nail olunmuş gəlirin əhəmiyyətli hissəsinin müəyyən vaxt müddətinə sığortalanması işini də yerinə yetirəcək. O, məşğulluq qabiliyyətinin iş tapma, qazanc və yenidən quruma vasitəsilə daha mühüm olan sosial, səhiyyə və iqtisadi funksiyalarını yerinə yetirir.

201. İşsizlik sığortası hər kəsə yüksək gəlir payının müəyyən zaman üçün saxlanılması təminatını verən və fərdin risklərini həmrəycəsinə azaldan həmrəy təminat olaraq qalmaqdadır. İşsizlərə çatan pulun verilmə müddəti yardımların ödənilməsi müddətinə əlavə olunur. XDİ-nin baxışına görə işsizlik sığortası dəyişkən əmək bazarının ehtiyacına nəzər yetirməsi ilə yüksək əhəmiyyət kəsb edir.

202. İşsizlik sığortası işsizə ilk təklif olunan işi qazanca ehtiyacı olduğundan qəbul etmək yox, əksinə onun öz qabiliyyətinə uyğun olanı tapmağa imkan yaradır. Digər tərəfdən işsizlər çevik olmağa məcbur olduğunu anlamalı və istənilən işi qəbul etməlidir. Biz işsizlik mövcud olan yerdə işə qəbulda yaxşı imkanlar və stimullaşdırma yaratmaq istəyirik.

203. İşsizlik sığortası məşğulluğa yardım kimi yerinə yetirilməli və əsasən də özünün sığorta funksiyası ilə də məhdudlaşmalıdır. Bizim ilk məqsədimiz ilk əmək bazarında daha çox məşğulluğun olmasıdır – bu məqsəddən irəli gələrək biz fəal əmək bazarı siyasətinin instrumentlərini düzəltmək istəyirik. Təhsil alma bacarığının bərpası kimi ictimai işlər büdcə vəsaiti hesabına maliyyələşdirilir.

**Qəza sığortası**

204. Dövlət tərəfindən qəza sığortası işdəki təhlükəsizlikdə, qəzanın qarşısının alınmasında və sağlamlığın qorunmasında vacib rol oynayır. O, xəstəliyin baş verməməyi üçün onun qarşısının alınmasının, tibbi təchizatının və sağlamlığın yenidən bərpa edilməsinin dirəyidir. Dövlət tərəfindən edilən qəza sığortası gələcəkdə özünün məsuliyyətli olduğu kollektivlərdə iqtisadi böhran ilə daha güclü müqayisə edilməli və leqal işlərdə olan qəzalar məhdudlaşdırılmalıdır.

**Əlillər üçün sosial təhlükəsizlik**

205. Biz əlillərin cəmiyyətdə iştirakını və özlərini təsdiq etmələrini gələcəkdə də mühafizə etmək istəyirik. Bu isə əlillərin bərabərhüquqlu olaraq hər yerdə - cəmiyyətin zehni, sosial, mədəni, peşə və siyasi həyatında iştirak edə bilmələri deməkdir. Biz bunun üçün çərçivə şərtləri yaratmaq istəyirik.

Əlillik həmişə kompensasiya edilə bilməyən bir və ya bir neçə məhdudiyyətlə bağlıdır. Həmrəy cəmiyyət əlilləri o yerdə dəstəkləyir ki, irəliləyişlər olsun və individual nöqsanlar tarazlaşdırılsın, fəqət bu onlara aşırı qayğı ilə qəyyumluq etməməlidir.

206. Hesab edilir ki, əlillər və sağlamlar, onların güclülüyü və zəifliyi arasındakı münasibətləri hələ kiçik vaxtlardan təlqin edilməlidir. Buna ailədəki birgə tərbiyə və təhsil, az yaşlı uşaqlar üçün olan qurumlarda və məktəblərdə nail olunur. Burada da qulluq edilən həyat tərzlərində olduğu kimi "stasionardan öncə ambulans" əsas prinsipi əlillərə və onların ailə üzvlərini həmahəng olaraq şamil edilir. Uşaqlar üçün bu o deməkdir ki, əlil və sağlam uşaqların birgə ailə yaşayışları ön planda durmalıdır. İlk əmək bazarında daha çox məşğulluq münasibətləri təklif edə bilmək üçün iş həyatında əlillərin iştirakına yardım edilməlidir.

207. Biz bütün insanların – həmçinin əlil və sısqa insanların yaxşı yaşaya biləcəyi yaşam mühiti yaratmaq istəyirik. Bunun üçün maneələrdən azad olmaq əsas şərtdir. Bir çox əlillər öz mobilliyində xeyli məhduddurlar. Şəhərsalma və yaşayış sahələrinin planlaşdırılmasında əngəllərdən azad olmaq düşüncəsi gücləndirilməlidir.

**5. Etibarlı maliyyə, möhkəm Almaniya**

**Borcların ləğvi və yeni borcların qadağası**

208. Borclar Almaniyada artıq böhran yaradır. Bundan başqa ölkəmizin maliyyə gücünün çox az hissəsi gələcək üçün sərmayəyə yönəldilir. Almaniyadakı demoqrafik inkişaf sosial təhlükəsizlik sistemlərini və ictimai büdcəni getdikcə yükləyir. Buna görə də biz borclu durumu qətiyyətlə ləğv etməliyik. Ardıcıl olaraq borclardan qurtarmağın əsas prinsipinə söykənən siyasət vətəndaşların və sahibkarların özlərinin iqtisadi durumlarına sərmayə qoymağa hazır olmalarını və inamlarını gücləndirir. Bu günün borcu sabahın vergisidir.

209. Dövlətin uzun müddətə qazanmaqdan çox xərcləməsi ölkəmizin rifahı üçün təhlükəlidir. Biz borc almanı durdurmasaq, dövlət gələcəkdə mühüm işləri həyata keçirə bilməyəcək. Biz uşaqların gələcəyini himayə edən və ancaq öz hesabına yaşamayan məmləkət arzulayırıq. Biz elə məmləkət arzulayırıq ki, orada dövlət sosial çətinlikləri olan insanlara maddi kömək etmək imkanında olsun. Köməyə ehtiyacı olan insanların gözündə və nəsillərin ədalətliliyi anlamında belə hesab edilir: Dövlətin borcu hər bir halda ictimai xarakter səciyyə kəsb etmir.

210. "İctimai sərmayələr" anlayışını daha ciddi mənada təyin edərək ilk addımda yenidən borc götürmənin qarşısını almaq zəruridir. Ancaq dəyərlər və sərvət yaradan sərmayələr kredit vasitəsilə maliyyələşdirilə bilər. Bundan başqa kredit vasitəsilə maliyyələşdirilən sərmayələrin borcları bir qayda olaraq təyin edilmiş borc götürən vaxtdan başlayaraq yenidən ödənilməlidir. Biz bununla müəyyən edirik ki, anayasaya uyğun olan borc götürmə qaydaları kredit götürməni kəsərli dərəcədə məhdudlaşdırır və borlanmanın qarşısını alır. Biz ən gec gələn onilliyin ortalarına kimi qeyri-fövqəladə vəziyyətlərdə yenidən borc alma imkanını məhdudlaşdıraraq yenidən borclanmaya əsaslı qadağanı bütün sahələrdə tətbiq etmək istəyirik. Bu anayasada, bütün torpaqların konstitusiyalarında və bələdiyyələr səviyyəsində öz əksini tapır.

211. Biz federal dövlət, torpaqlar və bələdiyyələr arasında borclardan qurtarma barədə birgə razılığa can atırıq. İqtisadi yüksəliş çağlarında ictimai borcların azaldılması ilə yanaşı gələcək konyuktur tərəddüdləri üçün tədbirlər də görülməlidir. Bundan başqa müstəsnasız olaraq bütün səviyyələrdəki vəzifələrin və xərclərin hamısı, onların zəruriliyi və əsaslılığı nəzərə alınaraq həmişə tənqidi yoxlanılmalıdır. Biz şəffaf ictimai büdcə fəaliyyətini bərqərar etmək üçün federal dövlət, torpaqlar və bələdiyyələr səviyyəsində ticari əsaslar üzərində hesabdarlıq aparmaq ilə öhdəmizə götürmək istəyirik.

212. Hər kəs üçün iş yerinin olması və etibarlı dövlət maliyyəsi bir-birini şərtləndirir. Buna görə də biz dövlətin mədaxil strukturunu elə yeniləşdirmək istəyirik ki, iş amili yüngülləşdirilsin. Almaniyada daha çox iş yeri açmaq üçün biz əmək qazancından məvacibə əlavə olunan gəlirləri tutmaq istəyirik. Buna görə də biz birbaşa olan vergiləri və sosial ödəmələri endirmək və bu yüngülləşmə üçün dolayı vergiləri maliyyələşdirmək istəyirik. Vacib olan budur: Birbaşa olan vergilərin və sosial ödəmələrin azaldılması ən azı dolayı vergilərin çoxalması qədər böyük olmalıdır.

**Maliyyə qanununun islahatı**

213. Almaniyadakı federalizmə şəffaf maliyyə qanunu lazımdır. Müxtəlif dövlət təbəqələrinin məsuliyyəti vətəndaşlar üçün yararlı olmalıdır. Ancaq bundan sonra o, siyasi qərarları nizamlaya və onun seçim qərarlarının əsaslarını qoya bilər. Əlaqələndirmə prinsipinə əməl edilməsinə son dərəcə dəqiq diqqət yetirilməlidir.

Maliyyə qanunu iqtisadiyyat və maliyyə qüvvələrini gücləndirməkdən ötrü müxtəlif çıxış vəziyyətlərini nəzərə almalı, müqayisəli çərçivə şərtləri yaratmalı və stimul verməlidir. Biz federal rəqabət dedikdə haqlı şərtlər altında olan rəqabət başa düşürük. Buna görə də torpaqlar üçün öz iqtisadiyyatının artımı zamanı dəyərləri artırılmalıdır. 2019-cu ilə kimi keçid tənzimləməsindən sonra torpaqlar üçün əlahiddə tənzimləmə olmadan sadə maliyyə bərabərliyi mümkün olmalıdır. Həmçinin pensiya sığortası sistemi bitir.

214. Biz torpaqların maliyyəyə daha çox məsuliyyətlə yanaşmasına imkan yaratmaq və bunun üçün vergi qanununda müvafiq şərtlər yaratmaq istəyirik. Konstitusiyanın borc məhdudiyyətlərinə və Maaştrixt meyarlarına yetişməyi öz ödəmələrində əməl etməyən torpaqlar gələcəkdə sağlamlaşdırma proqramına qoşulmalıdırlar.

215. Biz büdcədə məcburi hal qanunu ilə öncədən xəbərdarlıq edən sistem işə salmaq istəyirik. Aydın məsələdir ki, bu gələcəkdə ancaq büdcədəki məcburi halların müəyyənləşdirilməsindən sonra işə düşə bilər. Federal dövlətə yardım şərtləri üçün federal dövlət və müvafiq torpaq arasında dövlət sağlamlaşdırma müqaviləsi bağlanmalıdır.

216. Həmçinin bələdiyyələrdə də özünə qarşı daha çox məsuliyyət yaradılmalıdır. Onların maliyyə imkanları vətəndaşın gündəlik həyatına bilavasitə təsir edir. Ona görə də biz kommunal vergiləri elə inkişaf etdirmək istəyirik ki, bələdiyyələr vətəndaşlar üçün təmin edilsin.

**Vergilər - sadə və ədalətli**

217. Ödədikləri vergilərlə vətəndaşlar dövlətə ona vəzifələrinin icrası üçün lazım olan lazımi maliyyə yardımı göstərirlər. Vətəndaşların vergi hüququnu qəbul etmələri üçün bu prinsiplərə əməl edilməlidir: sadə, aşağı, ədalətli. Bu bizim həmrəylik və ədalət kimi əsas dəyərlərimizin uyğun gəlir ki, maliyyə baxımından imkanlılar zəiflərə nisbətən daha çox təəhhüdlü olsunlar. Bununla yanaşı vergi hüququ vətəndaşların azad maliyyə sahəsini aşırı vergi nisbəti vasitəsi ilə

məhdudlaşdırmamalıdır. Aşağı vergi nisbəti vergi sisteminə xidmət və təşəbbüsə imkan yaradır və vətəndaşların həyatdakı çıxılmaz vəziyyətlər ilə qarşılaşdıqda onu sığortalaya bilmələri üçün tədbir görməyə imkan verir. Sadə vergi sistemi hər bir fərdə ədalətli olmağa cəhd edən mürəkkəb vergi sistemindən daha çox ədalət bəxş edir. O nə qədər mürəkkəb olsa da, dəyərli məşvərət almaq istəyən hər kəsə daha çox üstünlük verir ki, o da bu məsləhətsiz bir qayda olaraq bütün vergi imkanlarından istifadə etmək iqtidarında olmur.

218. Müəssisəyə gələcəyə yönəlik vergi qoyulması bu əsas prinsipdən çıxış etməlidir ki, müəssisələr ilk öncə iqtisadiyyat və vergi obyektləridir. O, vergi yükünü elə formalaşdırmalıdır ki, ölkəmizdə müəssisə yaratmağa və onu inkişaf etdirməyə, iş yerləri açmağa, tədqiqata və inkişafa sərmayə qoymağa dəysin. Vergi siyasəti həm də innovasiya siyasətidir. O, müəssisənin hüquq formasından asılı olmayaraq rəqabətdə neytrallığa zəmanət verməli, habelə sadə və şəffaf olmalıdır. Bu zaman biz xalq təsərrüfatının dünya üzrə artan şəbəkləşməsinin nəzərdə tutmalıyıq.

### 6. Tarixi nailiyyətlər üzərində qurmaq – Yeni torpaqları inkişaf etdirmək

219. 17 iyun 1953-cü il tarixində xalq üsyanı xüsusilə də 1989-cu il dinc inqilabla keçmiş ADR-in insanları azadlığa, demokratiyaya, sosial bazar iqtisadiyyatına inamla Almaniyanın yenidən birləşməsi üçün ilkin şərtlər yaratmışlar. Bu tarixi nailiyyətlərlə bütün almanlar – həm şərqdən həm də qərbdən - fəxr edə bilərlər. Yeni torpaqlar özlərinin böyük tarixi və mədəni ənənələri ilə alman federalizminə yeni impulslar verirlər.

220. Yeni torpaqlar totalitar diktaturadan demokratiyaya, mərkəzi planlı təsərrüfatdan sosial bazar iqtisadiyyatına köklü dəyişikliklər yaşamışlar. Bütün Almaniyadakı çaba və həmrəylik, tarixi baxımdan təkrarsız maliyyə transfer nailiyyətləri, səy və quruculuq iradəsi ilə bir çox regionlar çiçəklənmişlər və özlərini Avropanın göbəyindəki Almaniyanın müasir hissəsi kimi təqdim edirlər.

221. Təhsil sahəsindəki, planlaşma təcrübəsinin sürətləndirilməsindəki, bürokratiyanın ləğvindəki və iqtisadiyyatın, elmin və texnikanın sıxı fəaliyyətindəki islahatlarda yeni torpaqlar və onun vətəndaşları öz üzərinə aparıcı rol götürmüşlər.

222. Kommunist diktaturasının, Almaniyanın bölünməsinin və təsərrüfatsızlıq, eləcə də orta təbəqənin tarixin birdən-birdə yox olmasının nəticələri hələ tam aradan qaldırılmayıb. Sərbəst

yaranan iqtisadi inkişafa hələ də nail olunmayıb. Çoxlu modernləşmə uğurlarına baxmayaq ictimai infrastrukturda və iqtisadi strukturlarda hələ də çatışmazlıq mövcuddur.

223. Avropa İttifaqının şərqə doğru genişlənməsi ilə yeni imkanlar amma eyni zamanda da onsuzda zəif strukturlaşmış şərqi Almaniyanın iqtisadiyyatının rəqabət təzyiqi yaranır. Bu baxımdan, eləcə də kürəselləşmənin tələblərinə görə bir çox xırda və orta müəssisələr hələ kifayət qədər hazır deyil.

224. Demoqrafik dəyişiklik Qərbi Almaniyaya nisbətən şərqi Almaniyanı daha çox əhatə edir. Doğuşların kəskin aşağı düşməsi, yaşlanma, habelə qabiliyyətli və yüksək təhsilli gənc insanların başqa yerlərə köçmələri onsuz da az olan resursları daha da taqətdən salır. Federativ respublikanın tarixi çox yerlərdə göstərdi ki, köçmə regionlarının dəyişərək gələcək regionlara çevrilməsi mümkündür. XDİ siyasətinin məqsədi odur ki, şərqi Almaniyanın regionlarında insanlar üçün cəlbedici yaşam şərtləri yaratsın.

225. Bizə - demokratiyanın, hüquqi dövlətin və sosial bazar iqtisadiyyatın əsası kimi - yeni torpaqlarda vətəndaş cəmiyyətinin möhkəmlənməsi lazımıdır. Yalnız vətəndaş cəmiyyəti bizim azad-demokratik cəmiyyətimizin iqtisadi inkişafının və sabitliyinin qeydinə qala bilər. Bizim yeni torpaqlarda iqtisadi proseslər və rəqabətə yönəlik siyasət, federal hüquqa nisbətən əhatəli açıq və eksperiment şərtləri üçün yalnız daha çox sərbəst məkana ehtiyacımız yoxdur. İnsanlar öz gələcəklərini məsuliyyətlə qurmaqdan ötrü böyük imkanlar əldə etməlidirlər. Bununla biz elə şərtlər yaratmaq istəyirik ki, öz biliyi ilə işgörmə qabiliyyətinə malik olanlar öz vətənində qalsın və sərmayəçilər öz kapitalları ilə yeni torpaqlara üz tutsun. XDİ idarə edən işçilərin regional əmək bazarlarına inteqrasiyasına xüsusi diqqət yetirir. Bütün aktorların korporasiyası vasitəsilə regionların demoqrafik sabitliyinə dəstək verilməlidir.

226. Hər şeydən öncə böyük şəhərlərdə, əhalinin sıx yaşadığı bölgədə və turizm mərkəzlərində innovativ, iqtisadi baxımdan dinamik inkişaf edən regionlar əmələ gəlir. Biz sahibkarlıq təşəbbüsünü dəstəkləyirik ki, orada onlar orta təbəqədən, iri və subregional təşkilatlanmış müəssisələrdən rəqabətə qabil müəssisə strukturlarına gətirib çıxarsınlar. Burada biz yardım vəsaitlərini texnologiya istiqamətli iqtisadiyyatdan, elmdən və mədəniyyətdən onun şəbəkələşməsi ilə inkişaf edən regionlara tərəf yönəltməliyik. Dünya bazarı üçün olan məhsulları inkişaf etdirməkdən ötrü yüksək tədqiqatı və yüksək texnologiyaları müəssisələr və sərmayədarla birləşdirməyi nəzərdə tutulur.

227. İnkişaf edən regionlar səmərəli infrastrukturlar və xüsusən də cəlbedici qatar nəqliyyatı vasitəsilə zəif strukturlaşmış regionları birləşdirməlidir ki, onlar da bu inkişafda iştirak edə bilsinlər. Əhali sıxlığı aşağı olan və əhalinin çox yaşadığı mərkəzlər olmayan regionlarda biz yardımı müəyyən sektor və sahələrə yönəltmək istəyirik. Beynəlxalq rəqabət ilə ayaqlaşa bilməkdən ötrü Avropa İttifaqı vasitəsilə yeni torpaqlarda geridə qalmış ərazilərə yardımı davam etdirilməliyik.

228. Yeni torpaqların 2019-ci ilə qədər deyilən yüksəklikdə pensiyaçı sığorta sisteminə ehtiyacı var. Özünü təsdiqləyən iqtisadi inkişafa və sonrakı modernləşməyə nail olmaq üçün vəsait məqsədə uyğun olaraq müəyyən infrastruktur boşluqlarını qapamaq üçün məqsədli sərmayə və bələdiyyələrin proporsional maliyyə gücünü işə salmaq lazımdır.

229. Transmilli infrastrukturun daha geniş şəkildə qurulması iqtisadi inkişafın əsas şərtidir. Avropanın nəqliyyat yolları xüsusən də orta və şərqi Avropa habelə Baltik hövzəsinə qədər tezliklə qurulmalıdır.

230. İqtisadiyyatda uzunmüddətli sərmayə və infrastruktur yalnız demoqrafik inkişaf nəzərə alındıqda uğurlu alınır. Çox az tam gücü ilə çalışan infrastrukturlar əhalinin inkişafını bərabərləşdirməli və yaşayış qayğılarındakı və idarəetmədəki müxtəlif standartları nəzərə almalıdır. Dövlət minimum standartların qeydinə qalmalıdır. Həyat şərtlərinin bərabərliyi bizim məqsədimiz olaraq qalır. Yerlərdəki şəxsi təşəbbüs inkişaf etdirilməlidir. Həyatın keyfiyyəti gələcəkdə yalnız yeni torpaqlarda fərqlənməlidir.

## VI. Yaranışı və həyatı qorumaq – Dəyərli ətraf mühit naminə

### 1. İnsan ləyaqətini qorumaq – Həyatın başlanğıcından sonuna kimi

231. Allahın xəlq etdiyi insanın toxunulmaz ləyaqəti insani ixtiyarata verilmir və qorunmalıdır. İnsan həmişə subyektdir və heç vaxt obyekt ola bilməz. İnsanın ləyaqəti çıxış və istinad nöqtələrinin bioetnik tələblərin dəyərləndirilməsi üçündür. O, bütün mərhələlərdə insan həyatına ehtiram və qorqu tələb edir. Hələlik doğulmamış həyat toxum və yumurtacıqların qovuşması ilə xüsusi qorqumuza və kritik davranışımıza prenal diaqnostikanın inkişaf edən imkanları ilə ehtiyac duyur. Biz ilk süni mayalanma diaqnostikasının (SMD) əleyhinəyik. Həmçinin gecikmiş abortların da olduğu abort sayı ilə biz razılaşmırıq. Biz qadınlara və kişilərə həyat üçün qərar vermələrində yardımçı olmalıyıq.

232. Həyat üçün təhlükəli olan situasiyalarda insanların müalicə edilməsi, xəstəliklərin yüngülləşdirilməsi və yardımçılıq humanizmin, həmrəyliyin və xristian inancına görə digərinə qarşı yaranmış sevginin təzahürüdür. Əlillərin, xəstələrin, ölənlərin və insanların həyatın digər bütün çətin fazalarında insana layiq həyat yaşamağa haqqı var. Biz paliativ tibbi, hospisiyanı və ölümü müşayiətçilərin digər formalarını dəstəkləyirik ki, bu da ölənləri son mərhələdə onun özü üçün və yaxınları üçün şərəfli vidanı asanlaşdırır. Fəal ölüm yardımının əleyhinəyik. Biz orqanların bağışlanmasına hazırolmanı gücləndirmək istəyirik.

233. Biotibbi tədqiqat gələcəkdə yarana biləcək problemlərə həll yolları tapır və xəstəliklərin müalicəsinə və ağrıların azaldılmasına mühüm təsir edir. Şanslar və risklər vicdanla ölçülüb-biçilməlidir. Bizim üçün insanın ləyaqətinə hörmət etmək rəqabət qabiliyyətinin təhlükəsizliyinin və tədqiqatının azadlığından daha üstündür. Biz ardıcıl embrion mühafizəsinin qalmasının tərəfdarıyıq və yanlış embrion tədqiqatının əleyhinəyik. Bunun üçün biz Avropa və beynəlxalq səviyyəyə qoşuluruq. İnsanların klonlaşdırılmasını inkar edirik.

**2. Həyatın təbii əsaslarının qorunması**

234. Xristian məfkurəsinə görə insan da, təbiət də, ətraf mühit də Allahın xariqəsidir. Onu qorumaq bizim borcumuzdur. Prinsiplərin möhkəmliyi xristian-demokratik siyasətin tərkib hissəsidir: Biz gələcək nəsillərimiz üçün dünyanı qorumaq və onu sabah da yaşamağa layiq olan dünya kimi özümüzdən sonra miras qoymaq istəyirik. Sonrakı nəsillərin iqtisadi inkişafa, sosial rifaha və sağlam ətraf-mühitə haqqı var.

235. Ətraf mühitin və iqlimin gələcəyə yönəlik mühafizəsi yeni iş yerləri üçün imkanlar yaradır. Ekoloji təhsil, tədqiqat və inkişaf, ətraf-mühit üçün olan texnologiyalar, ətraf mühitin və iqlimin mühafizəsi və bunların üzərində qoyulan sərmayələr davamlı olaraq dəstəklənməlidir. Almaniyanın ətraf mühit texnologiyaları sahəsində dünyada aparıcı rolunu ətraf mühitin və iqlimin mühafizəsi marağında olaraq daha da qurmaq istəyirik. Bu minvalla öz ölkəmizdə yaradıcı dəyərlərə, yeni iş yerlərinin açılmasına və orta təbəqənin güclənməsinə mühüm xidmət etmiş olunur.

236. Yoxsulluğa qarşı mübarizə və təbii yaşam əsaslarının mühafizəsi ayrılmaz dərəcədə bir-birinə bağlıdırlar. Həmçinin yoxsulluq təbiətin izafi istifadəsinə gətirib çıxarır. Sonda isə bioloji müxtəliflik və bununla insanın yaşadığı həyat məhv ediləcək. Bizim üçün ətraf mühitin

mühafizəsi siyasəti xarici və inkişaf siyasətimizin mühüm tərkib hissəsi və kürəsəl ədalətə olan töhfədir.

237. Bizim düşüncəmizə görə iqtisadi inkişaf və ətraf mühitin mühafizəsi ziddiyyət təşkil etmirlər. Xüsusilə yerin ekoloji cəhətdən yüklənməsinin həddi daha da aydın olan vaxtda belə hesab edilir: Daimi iqtisadi inkişaf ancaq ətraf mühitin mühafizəsini nəzərə aldıqda mümkündür. Buradan da səmərəli və qənaətcil resurs ehtiyatı dəyərin və dayanıq məkanının üstünlüyüdür. Bu səbəbdən də biz güclü tədqiqat və inkişaf ilə məqsədyönlü stimul sistemləri və inkişaf proqramları ilə eləcə də ətraf mühitə yönəlik təşkilati siyasi çərçivə ilə ətraf mühit məqsədlərini əməl edən ekoloji və sosial bazar iqtisadiyyatının tərəfdarıyıq. Bizim üçün bura vergilərin qaldırılmasının əvəzinə resursların uzunmüddətli istifadəsi yaxud ətraf mühitin yüklənməsinin aradan qaldırılması aid edilir. Bununla ətraf mühitin və iqlim mühafizəsinin problemlərinin həlli gündəmə gəlir.

238. XDİ tükənən sərvətlərə qarşı qayğıkeş və qənaətcil olan davranışın, tədqiqata və inkişafa, habelə ətraf mühitin və insanın yaradıcılığını və məsuliyyətini inkişaf etdirən təbiətin mühafizəsinin tərəfdarıdır. Keyfiyyətli, yüksək dəyərli ətraf mühit bilgisi önəmlidir. Məktəblər, bələdiyyələr torpaqlar, ətraf mühit və təbiəti mühafizə edən birliklər, eləcə də torpaq və meşə təsərrüfatı işçiləri ilə birlikdə cəmiyyətdə ətraf mühitə qarşı olan diqqətli bir münasibət yaratmaq istəyirik.

**İqlimi mühafizə etmək**

239. Kürəsəl iqlim dəyişikliyi yaradıcılıq və gələcək nəsillərin həyat imkanları üçün ciddi təhlükəyə çevrilib. Biz bu inkişafı idarə etməyi özümüzə etik borc və siyasi baxımdan vacib gələcək vəzifə sayırıq: XDİ Almaniyanın iqlimin mühafizəsi sahəsində daha da aparıcı rolun tutmasının və impuls verici kimi çıxış etməsinin tərəfdarıdır. Mümkün qədər daha çox sənaye ölkələri, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrlə birgə qlobal iqlim mühafizəsini yaxşılaşdırmaq istəyirik. Kyoto – Protokolu əsasında qurulub, bazar iqtisadiyyatlı niyyətləri özündə cəmləyən və sənaye ölkələri, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrlə fəal bağlantı yaratmağa imkan verən iqlimin mühafizəsi üçün 2012-ci ilədək bağlanmış beynəlxalq saziş bu sahədə atılmış vacib bir addımdır.

240. Almaniya 2012-ci ilə kimi istixana emissiyasının məhsuldarlığını 21 faiz azaltmağa öhdəlik götürüb. Biz 2020-ci ilə kimi istixana missiyasını 1990-cı ilə nisbətdə 30 faiz aşağı endirmək istəyirik. Bununla yanaşı biz digər sənaye ölkələrinin də emissiyanın geniş formatda azaldılmasını vacib sayırıq.

241. Biz istixana məhsuldarlığı üçün əlaqəli hədlər müəyyən edən və iqlimi qoruyan texnologiyaların fəaliyyətinə və inkişafına imkan yaradan ikiqat iqlim strategiyasını davam etdiririk. İnvestisiyaların iqlimə aid müqavilələr əsasında olan texnologiyaları nəzərə almasından ötrü karbondioksid bütün dünyada münasib qiymətini saxlamalıdır. Bundan başqa emissiya hüquqları ticarəti, o cümlədən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə iqlimin mühafizəsinə uyğun inkişaf layihələrin köməyi ilə baş tutan texnologiya transferi buna xidmət edir. Bizim məqsədimiz odur ki, yerin atmosferinin istiləşməsini sənayeləşmədən öncə olan vəziyyətlə müqayisədə maksimum 2 dərəcə selsi məhdudlaşdıraq.

242. Enerjinin qənaəti, enerji fəaliyyətinin artırılması və yeniləşən enerjinin istifadəsi iqlimin qorunması üçün olan siyasətimizin aparıcı sütunlarıdır. Bununla yanaşı olaraq çox vacibdir ki, iqlim dəyişikliyinin mənfi nəticələrinin məhdudlaşdırılması üçün artıq indidən strategiyalar inkişaf etdirilsin. Buna misal üçün, güclü sellərin və səhraların mühafizəsi də daxil edilir. Buna görə də dəyişkən iqlimi şərtlər altında torpaqdan istifadə üçün uyğunlaşdırma strategiyaları inkişaf etdirilməlidir.

**Enerji təchizatını təmin etmək**

243. Enerjiyə olan tələbat bütün dünyada artmaqdadır. Almaniyanın bahalı enerji xammalının idxalından asılılığı baxımından ətraf mühitə ziyan gətirməyən və iqtisadi cəhətdən hazır şəkildə təqdim olunan enerji təminatı böyük əhəmiyyət kəsb edən siyasi məsələdir. Biz idxal asılılığından olan risklər azaltmaq istəyirik. Enerji xammalının gəlir mənbələri və enerjini daşıma yolları daha geniş baza üzərində qurulmalı, enerji tərəfdaşları daşınma və tranzit ölkələri ilə təkmilləşdirilməli və onlara sərmayə qoyulmalıdır. Avropa İttifaqı ilə birgə yürüdülən enerji siyasəti vasitəsilə biz enerji təchizatını möhkəmlətmək istəyirik.

244. Biz enerji ehtiyatlarından qənaətlə istifadə etmənin, özümüzün yeni enerji mənbələrinin qurulmasının sürətləndirilməsinin və təsir edəcək dərəcədə hasil etmə texnologiyalarının inkişaf etdirilməsinin tərəfdarıyıq. Energetik sağlamlaşdırma binalarında biz əhəmiyyətli potensial

görürük. Biz 2020-ci ilə kimi enerjinin məhsuldarlığını 1990-cı illə müqayisədə iki qat olmasına can atırıq. Buna eyni zamanda desentral enerji hasil etmə qurumlarının təsiri var.

245. Təhlükəsiz, ətraf mühitin mühafizəsi üçün imzalanmış müqavilələrə uyğun olan və iqtisadi baxımdan yığcam olan enerji təchizatının əsası yaxşı ixtisaslaşmış və balanslı enerji qarışığıdır. Fossil enerji daşıyıcısını biz mümkün qədər iqlimi mühafizə edən müqavilələrə uyğun olaraq formalaşdıraq və bununla elə şərtlər yaradaq ki, Almaniyada dünyanın ən ətraf mühitə davamlı elektrik stansiyası yaransın.

246. Bərpa edilmiş enerjilər yerli enerji daşıyıcıları kimi təchizatın təhlükəsizliyinin yüksəldilməsi və iqlimin mühafizəsinə köklü xidmət göstərir. Onlar ətraf mühitə dözümlü inkişaf, innovativ işgüzar sahələr və yeni iş yerləri üçün imkanlar verir. Biz xammalın çoxaldılması üçün işin müvafiq yolunu, habelə yeniləşmiş enerji mənbələrini təkidlə davam eləmək istəyirik. Bura ofşor sahələrində külək enerjisinin inkişaf imkanları habelə günəş, bioloji və coğrafi ölçülərdən istifadə daxildir. Bundan irəli gələrək biz enerjini saxlamaq üçün texnologiyaları gücləndirmək istəyirik.

247. Texnoloji innovasiyalar üçün yararlı stimullar vasitəsilə bərpa edilmiş enerjinin işini irəli aparmaq istəyirik. 2020-ci ilə kimi Almaniya üçün ümumi enerji istifadəsində yeniləşmiş enerjinin bir hissəsini ən azı 20 faiz qaldırmağa səy göstəririk. Elektrikdə və nüvə sahəsində bərpa edilmiş enerjinin gücləndirilməsi işi ilə yanaşı istilik və soyuqluğun əldə edilməsində onun payı da artırılmalıdır. Məqsəd odur ki, bərpa edilmiş enerji 2050-ci ilə kimi Almaniyada enerji hazırlığının əsas hissəsini təşkil etsin.

248. Yaxın gələcəkdə Almaniyada elektrik alma məqsədilə nüvə enerji hasilatına dəstəkdən imtina edilə bilməz. O, imkan yaradır ki, yeni mühitə yararlı və iqtisadi baxımdan sərfəli enerjidaşıyıcılarının kifayət qədər istifadəyə verilməsi dövrünə nəzər salınsın. İqlimin mühafizə edilməsi strategiyamız çərçivəsində nüvə stansiyalarının müddətinin uzadılmasına səy göstəririk. Bizim üçün burada vacib olan hər bir qurğunun böyük imkanlı təhlükəsizlik səviyyəsinə zəmanət verilsin. Bu kontekstdə radioaktiv tullantıların son “qəbiristanlığı” böyük əhəmiyyət kəsb edir. XDİ onun tərəfdarıdır ki, Almaniyanın mövcud iqtisadi, texnoloji, və təhlükəsizlik səlahiyyəti qorunub saxlansın. Ancaq belə olan halda Almaniya nüvə enerjisi texnologiyalı qurğularının təhlükəsizliyini daim yaxşılaşdırılmasına bütün dünyada xidmət edə, eyni zamanda Almaniyada yeni iş yerlərinin açılmasını təmin edə bilər.

249. Enerji tədqiqatı və yeni innovativ enerji texnologiyaları gələcəyə qabil enerji təchizatı üçün təkzibedilməzdir. Biz geniş yayılmış və açıq enerji tədqiqatı və texniki tərəqqinin tərəfdarıyıq ki, onlar da iqlimi mühafizə edən bütün enerji daşıyıcılarının gəlişməsinə və iqlimə ziyan vurmadan enerji hasil edən texnologiyaların sonrakı inkişafına eləcə də rasional resurs ehtiyatlarına xidmət edən imkan yaratsın. Müasir karbohidrogen enerji stansiyaları nüvə füzyonunun sahəsindəki tədqiqat kimi bura daxil edilir. Enerjiyə qənaət edən məhsulların və xidmətlərin inkişafında bizim müəssisələrimiz üçün və yeni iş yerlərinin yaradılmasında böyük artım şansı var.

250. Enerji qiymətlərinin qalxmasının qarşısını almaqdan ötrü biz elektrik və qaz bazarında olan işlək rəqabətə təsir etmək istəyirik. Biz rəqabətin qarşısını alan maneələri aradan qaldırmağın və Avropanın iqtisadi məkanında sərhədləri aşaraq edilən elektrik və qaz ticarəti üçün azad əlverişli infrastrukturun sürətlə qurulmasının tərəfdarıyıq.

**Mobilliyi ətraf mühitə zərər vermədən formalaşdırmaq**

251. Mobillik çağdaş cəmiyyətlər üçün əsas ehtiyac və iqtisadi inkişaf və rifah üçün ilkin şərtdir. Almaniya səthi örtən tıxaca düşmədən, yaxud vətəndaşlarımızın sağlamlığı zərər çəkmədən bu ehtiyacı ödəmək lazımdır.

Biz bütün nəqliyyat sahələrində ətraf mühitin ağırlığının azaldılmasını ardıcıl olaraq dəstəkləyir və müvafiq inkişaflara imkan yaradırıq. Biz nəqliyyatın səs-küyünü azaltmaq və havanın çirklənməsini azaltmaq istəyirik. Nəqliyyat sahəsini idarə edən ağıllı tədbirlər, zərərli maddələrin həddinin daim aşağı salınması, zərərsiz yanacaqla işləyən minik vasitələrinin vergi yolu ilə mükafatlandırılması, emissiya ticarətinə hava nəqliyyatının əlavə edilməsi habelə ictimai nəqliyyatın gücləndirilməsi bizim seçim üsulumuzdur. Ətraf mühitə ziyan vurmayan nəqliyyat sisteminin quraşdırılması fonunda gəmi və dəmir yol nəqliyyatı böyük əhəmiyyət kəsb edir. Bundan başqa biz qənaətcil yanacaq texnologiyasını inkişaf etdirmək niyyətindəyik və alternativ yanacaq xidmətini sövq edəcəyik.

252. Ekoloji baxımdan təsirli çərçivə şərtləri və bazar iqtisadiyyatı üsulları ilə biz hava, gəmi və avtomobil nəqliyyatlarının iqlimə zərərsizliyini artırmaq istəyirik. Biz yeni avtomobillərin daha da təkmilləşdirilmiş motorları vasitəsi ilə $CO_2$ tullantılarının, bioloji maddələrin təsiri və digər tədbirlərin aydın şəkildə aşağı salınmasını zəruri hesab edirik. Biz bütün avtomobillərin yanacaq ehtiyatlarını kəskin surətdə ixtisar etmək istəyirik – Bu ətraf mühiti və istehlakçının pulunu müntəzəm olaraq qoruyur.

**Təbiətin müxtəlifliyini qorumaq**

253. Növlərin müxtəlifliyinin bütün dünyada dramatik şəkildə azalması baxımından biz ətraf mühit və təbiətin mühafizəsi sahəsindəki beynəlxalq əməkdaşlığın güclənməsini himayə edirik. Biz inkişaf etmiş ölkələri bioloji müxtəlifliyin və inkişafa istiqamətlənmiş istifadənin qorunmasında dəstəkləmək və bioloji müxtəlifliyin mühafizəsi üçün olan vasitələri əsaslı dərəcədə inkişaf etdirmək istəyirik. Prioritet odur ki, qoruqların, quruda və suda fərqli məqsədlər üçün istifadə olunan ərazilərin Avropa və bütün dünya üçün olan sistemi həyatın dünya miqyaslı şəbəkəsi kimi təsis edilsin.

Bununla əlaqədar biz Birləşmiş Millətlərin ətraf mühit üzrə ixtisaslaşmış təşkilatların qurumlarını müdafiə edirik. Biz həmçinin meşələrin və hər şeydən əvvəl isə əldəyməz meşələrin mühafizəsi üçün hüquqa söykənən qaydaların tərəfdarıyıq.

**Heyvanat aləminin qorunması üçün**

254. Bütün yaradılanlara olan hörmət digər yaratıqlara da məsuliyyətlə yanaşmağı öhdəliyimizə qoyur. Heyvanat aləminin mühafizəsi bizim üçün vacib məramımızdır. Biz heyvanların növlərinin saxlanmasını və onların yaranışın bir hissəsi kimi hörmət edilməsini və qorunmağını dəstəkləyirik. Heyvanlar üstündə aparılan təcrübələr mümkün yollarla ixtisar edilməli və alternativ vasitələrlə əvəz edilməlidir.

**Bizim təbiət irsimiz: Bir parça vətən**

255. Almaniyanın rəngarəng təbiət və mədəniyyət mənzərələri vətənimizin xüsusi dəyəri olan bir hissəsidir. Biz bu zəngin milli təbiət irsini gələcək nəsillər üçün də saxlamaq istəyirik.

256. Torpaqlar və istifadə edilməmiş ərazilər tükənən ehtiyatlar kimi sıx məskunlaşmış Almaniyada xüsusi mühafizəyə ehtiyac duyur. Torpaq ehtiyatlarından istifadə xüsusilə də şəhərlərin iç hissələrində uğursuz tikintilərin aradan qaldırılması çəmənlikdəki ərazilərin istifadəsinə nisbətən üstünlük təşkil etməlidir. Ərazilərin zəbti aşağı salınmalıdır; Bizim siyasətimiz bunun üçün çərçivə şərtləri yaradacaq.

### 3. Kənd təsərrüfatı və kənd yerləri üçün gələcək

257. XDİ Almaniyada yaşıl örtüklü və canlı kənd və meşə təsərrüfatının tərəfdarıdır. Yüksək keyfiyyətli qida məhsullarının istehsalında kənd təsərrüfatımızın aparıcı vəzifəsini görürük. Əkinçilik və meşəçilik sahəsində çalışanlar artan xammal və bərpa edilmiş enerji də hasil edilər. Əsrlərdən bəri o bizim mədəniyyət sahəmizə xidmət edir və kənd təsərrüfatı sahəsində xüsusi iz buraxır. Onlar bunu insanlara, heyvanlara, təbiətə və ətraf mühitə məsuliyyətli və şüurlu yanaşmaqla edirlər. Onlar sənət və peşə üçün vacib sifarişçilərdir. Bununla yanaşı kənd təsərrüfatı və ormançılıq istirahəti, asudə vaxtı və turizmi təmin edir.

258. Sərvətin qorunmasında və mühafizəsində ərazi və sahədəki şəxsi mülkiyyətin mühüm rolu var. İnsanın onun mülkiyyəti üzərində olan öz məsuliyyəti və mənsubluğu dövlətin mükəlləfiyyətindən daha təsirlidir. Ətraf mühitin və təbiətin mühafizəsində insanların maraqlarını düşünən xidmətlər dəyərləndirilməlidir. Onlar hər şeydən öncə müqavilələrə uyğun olaraq formalaşdırılmış olmalıdırlar.

259. XDİ öz kənd təsərrüfatı köklərini əhatə edən, eyni zamanda yaradıcılığa və innovasiyaya təkan verən çox tərəfli və işgüzar kənd təsərrüfatını örnək hesab edir. Biz dövlətin mümkün qədər hər yerdə aqrar bazarların idarə etməsindən, bürokratiyadan və aşırı idarə edilmədən imtina etməsinin tərəfdarıyıq. Daha çox bazar istiqaməti, yaradıcılıq, yaxşı təhsil və yaxşı menecmentlik mühüm olan əsas xüsusiyyətlərdir. Bunun içində biz əkinçiliyi və meşəçiliyi gücləndirmək istəyirik. Bundan başqa biz müəssisə formaları, məhsulun istiqamətləri, ənənəvi və ekoloji əkinçilik arasında heç bir fərq qoymuruq. Almaniyanın kənd və ərzaq təsərrüfatının çeşidliliyi və bazarlaşması, həm beynəlxalq həm də regional bazarlarda əhəmiyyət kəsb edir.

260. Biz istəyirik ki, Avropanın aqrar siyasəti çərçivəsində kənd təsərrüfatının istehsal və əmək şərtləri daha da yaxşılaşdırılsın. Bizim məqsədimiz Avropa və beynəlxalq aqrar bazarlarda ədalətli rəqabət şərtlərinin olmasıdır. Biz Avropa İttifaqında qanuni çərçivə şərtlərinin uyğunlaşdırılmasının, ətraf mühitin, təbiətin, istehlakçının və heyvanların qorunması aspektlərinin beynəlxalq baxımdan daha ciddi nəzərə alınmasının və nizamlanmasının tərəfdarıyıq.

261. Biz sağlam və xeyirli kənd mühiti arzulayırıq. Oralar iqtisadiyyat, mədəniyyət, təbiət və istirahət ocaqlarıdır. Onlara orada yaşayan insanların yaxşı yaşam, təhsil və iş şərtlərini mümkünləşdirən inkişaf perspektivləri lazımdır. Xüsusən struktur baxımından zəif olan kənd

bölgələri bizim diqqət mərkəzimizdədir. Onların da texniki və sosial infrastrukturun inkişafında habelə öz iqtisadi güclərinin möhkəmləndirilməsində fəal dəstəyə ehtiyacı var.

262. Artan xammalın əldə edilməsi əsasən də, bərpa edilmiş enerjinin istifadə edilməsi yeni iqtisadi və texniki dinamika üçün kənd və meşə təsərrüfatları üçün böyük şanslar vəd edir. Bu sahədə biz Almaniyanın ətraf mühiti qoruyan təsərrüfatçılığın aparıcı rolunu daha da məzmunlu şəkildə artırmaq istəyirik.

263. Yaşıl geneloji texnologiya (Gentex) gələcəkdə həm qida həm də enerji təhlükəsizliyində mühüm töhfə verə bilər. İqtisadiyyatı düşünməklə yanaşı qorxusuz və təhlükəsizlik problemləri diqqətə alınmalıdır. Yaşıl gentexin xammal ehtiyatından səmərəli istifadəsinin və enerji bitkilərinin istehsalının tətbiqi onların dəqiq tədqiqatını tələb edir. Almaniyada yeni məhsulların praktik olaraq həyata keçirilə bilər.

264. Təsərrüfat dairələrində əkilmə ilə yanaşı məhsulların emalı və bazarlaşmasında çox sahəli kənd təsərrüfatını inkişaf etdirməyi qarşımıza məqsəd qoymuşuq.

## VII. Fəal vətəndaş, güclü dövlət, dünyəvi ölkə

### 1. Vətəndaş cəmiyyətini möhkəmlətmək – Şəxsi təşəbbüsə imkan yaratmaq

265. Bizim liberal-demokratik quruluşumuz və siyasi təsisatlarımız canlı demokratiyanın özülünü təşkil edirlər. Məqsədimiz bu quruluşun qəbulunu və onun görünüşünü daim möhkəmlətməkdir. Bu dəyişkən dünyada ölkəmizin gələcəkdə də bacarıqlı olması onun vətəndaşlarının digərləri üçün də məsuliyyət daşımasından və bunun onların həm şəxsi həm də ictimai azadlıqlarının ifadəsi kimi başa düşülməsindən asılıdır. Biz vətəndaş və dövlət arasında tərəfdaşlığa söykənən və etribarlı münasibətlərin olmasını istəyirik. Biz vətəndaşa kömək edən, ona zamin olan, onu qoruyan, yardım göstərən, bacarıqlı edən və şəraitdən istifadə edərək azadlıq və şəxsi məsuliyyətin az da olsa birləşməsinə imkan yaradan dövlət istəyirik.

266. Vətəndaşın demokratik iştirakı seçkilərdə və səsvermələrdə o cümlədən vətəndaş çabasının müxtəlif formalarında özünü göstərir. Ümumi rifah üçün bizim canlı demokratiyamız könüllü və təmənnasız çabaya ehtiyacı duyur və o, fəal vətəndaş üzərində formalaşır.

267. Vətəndaş məfkurəsi ictimai birlik yaradır. Vətəndaşın xidməti heç nə ilə əvəz edilə bilməz. Hər kəs birgə yaşayışı zənginləşdirməyə qabildir. Hər bir fərd ümumi rifah üçün məsuliyyət daşıyır. Vətəndaş məfkurəsi və cavabdehlik şüuru nikahda və ailədə, kilsədə və iş həyatında, ittifaqlarda, birliklərdə və vətəndaş təşəbbüslərində habelə bələdiyyələrdə və dövlətdə təzahür tapır.

268. Vəzifə çabası olmadan bizim cəmiyyətimiz kasıb olar. Könüllü olaraq, sosial xidmət göstərən yaxud vətəndaş layihələrini yenidən həyata qaytaran və onlara maliyyə cəhətdən dəstək verən yüksək vəzifələrdə işləyən şəxslər dəstəklənməli habelə heç bir təlimat və tənzimləmələr vasitəsilə ruhdan salınmamalıdır.

269. Biz vətəndaş çabası və məsuliyyəti öz üzərinə götürən vətəndaşlar istəyirik. Vəzifə birjaları və könüllülər agentlikləri vəzifə fəaliyyətləri dəstəkləməli və onları təşkil etməlidirlər. Vəzifələrin və könüllülərin fəaliyyətinin tanınmasını peşə bioqrafiyasına daxil edirik.

270. İnsanların çoxu, xüsusən də sahibkarlar bizim ümumi rifahımız üçün dəyərli xidmət göstərirlər. Biz təsisat, ictimai fayda və vergi hüquqlarını daha da yaxşılaşdırmaqla onların çabasını dəstəkləmək istəyirik.

271. Birliklər, başqa ictimai təşkilatlar və qruplar fəal və azad vətəndaş cəmiyyətinin tərkib hissələridir. Onlar öz vəzifələrini ümumi rifahın çərçivələri daxilində müstəqil olaraq müəyyən edirlər. Onlar ictimai və siyasi müzakirələri hərəkətə gətirirlər.

**İdman**

272. İdman birləşdirir, formalaşdırır, ruhlandırır və inteqrə edir. İdman dözümlülük, alicənablıq, iş, rəqabət, cavabdehlik, öz hüdudlarını tanımaq və başqalarına hörmət etmək kimi insanpərvər dəyərlərin aşılanmasında öz töhfəsini verir. Beləliklə idman barışsal və daha yaxşı dünyanın formalaşmasında mühüm xidmət göstərir.

İdman ölkəmizin rəğbət daşıyıcısıdır. Mediada təqdim olunmaqla idman hər kəs üçün doğmalaşır, önəmli iqtisadi faktordur, iş yerləri ilə təmin edir və iş yerləri yaradır. İdman siyasətimizin ən böyük istəyidir ki, idmanı onun ümumi strukturunda möhkəm dəstəkləsin, onun müstəqilliyini və şəxsi cavabdehliyini gücləndirsin.

Birliklər alman idmanın təməlidir. Birliyin etibarlı dəstəyi və orada yüksək səviyyədə işləyənlərin olması bizim idman siyasətimizin mühüm məqsədləridir. İdman, hərəkat və qidalanma sağlamlığın gözlənməsində mühüm xidmətlər göstərir. Hər bir fərdin sağlamlığının qoruması sahəsindəki məsuliyyəti stimullar vasitəsilə daha da möhkəmləndirilməlidir. İdman vasitəsilə qazanılan immunitet və hərəkət sosial sistemimizi yüngülləşdirir.

İşlək halda olan idman yerlərin və çeşidli idman infrastrukturları canlı şəkildə üfüqi və şaquli idmanla məşğul olmaq üçün ilkin şərtlərdir.

**Şaquli və üfüqi idmanı lazımınca inkişaf etdirmək**

273. Biz idmanda nailiyyət prinsipini və human şaquli idmanı dəstəkləyirik. Şaquli idman üfüqi idman üçün lazımi nümunə funksiyası daşıyır. Bundesverdə (Silahlı qüvvələrdə), Federal polisdə və gömrükdə idman sahəsində verilən dəstək Alman şaquli idman üçün danılmaz faktordur və indiyə qədərki əhatəsində qalmalıdır. O cümlədən, iqtisadiyyat da şaquli idman üçün peşə perspektivləri yaratmalıdır. İstedadlı nəslin məqsədə yönəlik və sistematik dəstəklənməsində idman, məktəb və peşə təhsili bir-biri ilə uyumlu hala gətirilməli və koordinə edilməlidir. Biz elitar idman məktəblərinin yaradılmasını dəstəkləyirik.

Əlillərin nailiyyətləri istər üfüqi istərsə də şaquli idmanda olsun, valeh edicidir və bu onların böyük iradələrinin və əməklərinin ifadəsidir. İdman və hərəkət şəxsi iş qabiliyyətini möhkəmləndirir, özgüvən verir, məkan və sosial mobilliyi asanlaşdırır və onlar təsirli həyatverici köməkdir.

Əlillərin idmanla məşğul olmaları üçün onlara verilən imkanlar və stimullar artırılmalıdır. İdman yerlərinə maneəsiz girişə zəmanət verilməlidir.

**Dopinqlə mübarizə**

274. Dopinq idmanın əsas dəyərlərini məhv edir, yarışda mübarizə aparanları, tamaşaçıları aldadır və idmançının sağlamlığına ziyan vurur. Şaquli idmançıların tanınması dopinqə qarşı müvafiq olaraq inamlı və uğurlu mübarizədən asılıdır.

Dopinq fitnes və asudə vaxt sahələrinə də şamil edilməlidir və idmanla, siyasətlə, iqtisadiyyatla, media ilə və son olaraq bütün cəmiyyətlə ona qarşı birgə mübarizə aparılmalıdır.

## 2. Güclü bir dövlət üçün: Vətəndaşlar üçün azadlıq və təhlükəsizlik

275. Dövlətimiz insanın ləyaqətinə və azadlığına xidmət edir. O, özünün nüfuzuna, xüsusilə də əsas hüquqlara bağlılığına söykənir. O, fərdin və cəmiyyətin rifahına dəstək verməlidir. Demokratik birgə yaşayışda məsuliyyətsiz hüquq və məsuliyyətsiz azadlıq olmur.

276. Dövlətin əsas vəzifəsinə təməl hüquqları qorumaq və hakimiyyətin sui-istifadəsinə mane olmaq aiddir. O, vətəndaşları təhlükə qarşısında daxildən və xaricdən qorumalı və azadlıq və barış üçün məsuliyyətini yerinə yetirməlidir. O, insanın azad inkişafına imkan yaratmalı, zəifləri gücləndirməli və fərdin öhdəsindən gələ bilmədiyi risklərin həmrəy olaraq qarşısını ala bilməyi təşkil etməlidir. Bundan başqa dövlət insanların birgə yaşaması üçün vazgeçilməz intizam yaratmalı və onu inkişaf etdirməli habelə ictimai qüvvələrin azadlığını və müxtəlifliyini qorumalıdır. O, bizim və gələcək nəsillər üçün təbii həyat əsasları əldə etməli və yaranışın qorunmasına xidmət etməlidir.

277. Dövlət özünün əsas vəzifələrinə diqqət yetirməkdən ötrü, o, nə tələblərlə yüklənməli nə də belə vəzifələri öz öhdəsinə götürməlidir ki, onların da öhdəyə götürülməsi fərdi məsuliyyətin, azadlığın və yardımçılığın əsas prinsiplərinə ziddir. Səmərəli ictimai xidmət etibarlı ictimai infrastruktur üçün ilkin şərtdir. Peşə məmurluğu əzəmətli vəzifələrin dərki üçün qaçılmazdır. Biz güclü amma çevik dövlət istəyirik.

### Allah və insanlar qarşısında məsuliyyətlə azadlıq

278. Bizim dövlətimiz özünün də zəmanət verə bilmədiyi şərtlərlə keçinir. Dəyərlərə inam dövlət tərəfindən tənzimlənə bilməz. Onlar azadlığın və məsuliyyətin yaşadığı çoxlu bərabər ictimai razılığı təşkil edir.

279. Biz proqramımızın preambulasına və bununla da Allah və insan qarşısındakı məsuliyyətimizə sadiq qalırıq. Proqramımız xristian mənşəli dəyərlərə söykənir. Onlar ölkəmizi və cəmiyyətimizi əsaslı şəkildə formalaşdırmışdır. Onları yaddaşda saxlamağı, qorumağı və onlara dəyər verməyi biz təkcə xristian kilsəsinin vəzifəsi kimi yox, həm də dövlətin və vətəndaşın yüksək borcu kimi başa düşürük. Xristian simvolları ictimai məkanda görünən olaraq qalmalıdır. O, xristianların müqəddəs bazar və bayram günlərində olduğu kimi qorunmalıdır.

280. Eyni zamanda biz onu da qəbul edirik ki, digər dinlər də cəmiyyətimizə və azad quruluşumuza müsbət təsir göstərən dəyərləri paylaşsın. Biz bütün dini mənsubiyyətlərə hörmət edirik. Biz bunu bütün dinlərin mənsublarından da gözləyirik. Almaniyadakı yəhudi icmaları üçün biz xüsusi məsuliyyət daşıyırıq. Onlar mədəniyyətimizin bir parçası və cəmiyyətimizin qaçılmaz tərkib hissəsidir. Onlar özlərinin ictimai çabaları ilə Almaniyanın dünyadakı simasına xidmət edirlər.

281. Biz xristian kilsələrinin və qanuni olaraq tanınmış dini icmaların sərbəstliyini və müstəqilliyini qəbul edirik. Biz onları ümumi rifah üçün birgə məsuliyyətdə görür, buna görə də kilsə vergilərinin artırılmasının mövcud sistemini qəbul edirik. Biz onların insandaşa praktiki xidmətdəki nümunəvi nailiyyətlərini tanıyırıq. Cəmiyyətə təsir edən kislərin və dini icmaların azadlığı toxunulmaz olaraq qalmalıdır. Bizim liberal hüquqi qanunumuz dinlərin azad olaraq fəaliyyət göstərməsinə zəmanət verir. Dünyadakı dövlətlərdən və hökumətlərdən gözləntimiz odur ki, onlar öz ölkələrində dini azadlığa imkan yaratsınlar. Biz dinlərarası daimi dialoqu dəstəkləmək istəyirik.

**Liberal-demokratik quruluş**

282. Almaniyada insanların birgə yaşamaları üçün əsas prinsip konstitusiyanın dəyərlər qanunudur. Bizim millətimiz etimad göstərilmiş bu bünövrə üzərində demokratik, liberal, sosial və federativ hüquqi dövlətdə cəmləşib.

283. Biz siyasi idarəçiliyi və demokratik məsuliyyəti bir-biri ilə birləşdirən reprezentativ demokratiyanın tərəfdarıyıq. Reprezentativ demokratiya birbaşa demokratiyanın elementlərini istisna etmir. Bunlar reprezentativ sistemi regional səviyyədə məntiqlə tamamlaya bilərlər.

284. Biz müxtəlif dünyagörüşlərin, fikir və mənafelərin mövcud olduğu cəmiyyətdə yaşayırıq. Bu azlıqların baxış və müddəalarını nəzərə almadan ziddiyyətli fikir və mənafelərin çoxluqda birləşdiyi demokratik iradə birliyi tələb edir. Çoxluq prinsipi özünü azlığın müdafiəsi ilə birləşdirir.

285. Siyasi partiyalar dövlət və cəmiyyət üçün xüsusi məsuliyyət daşıyır. Onlar ictimai xahişi qəbul edir, siyasi iradə birliyinə təsir edir və vətəndaşların siyasi həyatda fəal iştirakına dəstək verir. Onlar vətəndaşın etibarını qazandıqda və aydın bacarıqlı və şəxsi təkliflərini gündəliyə çıxaranda öz vəzifələrini yerinə yetirmiş olurlar. Onların fikir birliyi və əməlləri şəffaf olmalıdır.

Xalq partiyaları Almaniyadakı bütün insanlara müraciət edir. XDİ mərkəzçi xalq partiyası kimi fərqli maraqları dəstəkləmək və ümumi rifah üçün yönləndirmək iqtidarındadır.

286. Medianın azadlığı və məsuliyyəti azad cəmiyyətimizlə üst-üstə düşür. Onlar ictimai fikrin formalaşmasına təsir edir və dövlət hakimiyyətinə nəzarət edir. Onların müstəqilliyi və çeşidliliyi bunun üçün ilkin şərtdir.

**Hüquqi dövlətdə azadlıq və təhlükəsizlik**

287. Azadlığı təmin etmək və insanların birgə yaşamasını tənzimləmək hüququn işidir. Hüquqi dövlətdə dövlət iqtidarının həyata keçirilməsi hüquqla və qanunun vəhdətindən asılıdır. Hüquq cəmiyyətimizə düzən çərçivəsi verir. O, dəyərləri müəyyənləşdirir və insan ləyaqətinin azadlığının təhlükədə olduğu yerlərdə fəaliyyəti məhdudlaşdırır. Hüquqi dövlətimiz bizə hüquq təminatı verir.

288. Azadlıq və təhlükəsizlik insanın elementar təməl ehtiyacıdır. Onlar bir-birini istisna etmirlər, əksinə bir-birlərini şərtləndirirlər. Dövlətin güc monopoliyasına olan yüksək tələbindən onun öhdəliyinə, azadlığına və təhlükəsizliyinə zəmanət vermək nəticəsi alınır. Özünü düşməninə qarşı müdafiə etməyən dövlət öz vətəndaşlarının azadlığını itirir. Biz dözümsüzlüyün, ekstremizmin və zorakılığın hər bir formasına qarşı ayıq olmalıyıq. Dözümlülüyü dözümsüzlüklə qurban vermək olmaz. Ekstremist zorakılığın əzabverici təcrübələrindən sonra biz sağ və sol ekstremist qruplaşmalara qarşı mübarizədə böyük məsuliyyət daşıdığımızı dərk edirik.

289. İctimai təhlükəsizlik və düzən üçün cinayətin qarşısını almaq, təhlükələrdən qorunmaq, habelə cinayət barədə maarifləndirmək və cəzalandırmaq firavan birgə yaşayışın ayrılmaz şərtidir. Cinayətkarlığın qarşısını almaq ümumi ictimai işdir. Beləliklə, ailə və dövlət media vasitəsilə dəstəklənərək çox dəfə uğursuz interqrasiyaya, tərəflərin yanlış anlaşılan münasibətlərinə və perspektivsizliyə məruz qalan gənclərin zorakılığına qarşı mübarizəni qəbul etməlidir. Kimsə qorxusuz olaraq özü üçün, ailəsi və mülkiyyəti üçün yaşayırsa, demək bizim dövlətə etibar edir. Kim təhlükəsizliyə laqeyd yanaşırsa, onda dövlətin mövcudluğunu sual altına qoyur.

290. Cinayətin zərərsiz göstərilməsi yanlış yoldur. Kim ki, hüququ pozur və bununla cəmiyyətimizin dəyərlər sisteminə qarşı çıxırsa, məntiqi olaraq cəzalandırılmalı və mütəmadi cərimə edilməlidir. Polis və ədliyyə cinayətkarlıqdan qoruyur. Qorunmağa layiq olan demokratiya Cinayətkarlıqla mübarizənin müəyyən edilmiş sərhədləri çərçivəsində dövlət orqanlarına zəruri texnikadan istifadə etməyə və zəruri məlumatlarla təmin etməyə şərait yaratmalıdır. Məlumatların qorunması maraqları cinayətkarlıqla təsirli mübarizdə maraqlar ilə uzlaşdırılmalıdır. Məlumatların qorunması cinayətkarın qorunması olmamalıdır.

291. Beynəlxalq səviyyədə baş verən terrorizm və təşkil edilmiş cinayətkarlıq getdikcə artmaqdadır. Vətəndaşlar bundan mühafizə olunmalıdır. Cəzavermə idarələri və ədliyyə ilə beynəlxalq əməkdaşlıq qurulmalıdır. Sərhədsiz cinayətkarlığa maneəsiz haqq qarşı qoyulmalıdır.

292. Siyasi islamçılıq və islam barədə öz radikal şərhlərini anayasamızdan üstün tutan, terrorist islamçılıq Almaniyada yaşan insanlar, habelə müsəlmanlar arasında anayasamıza hörmət bəsləyən əksəriyyət üçün xüsusi təhlükə deməkdir. Biz regional hüdud tanımayan bütün demokratların ictimai yekdilliyinə fəal dəstək verəcəyik və eyni zamanda zorakı fundamentalizmə qarşı daim mübarizə aparacağıq.

293. Kim daxildə təhlükəsizliyi yaxşılaşmasını istəyir, o, polisi gücləndirməlidir. Daxili təhlükəsizlik yeni tələblərlə kürəsəl ölçü əldə edib. Daxili və xarici təhlükəsizliyin alətləri və orqanları bir-biri ilə sıx əlaqədə olmalıdır. Milli təhlükəsizlik konsepsiyasında federal dövlət, torpaqlar və bələdiyyələr arasındakı əməkdaşlıq daha da yaxşılaşdırılmalıdır.

Vətənin qorumasının gücləndirilməsi konsepsiyanın tərkib hissəsi Bundesverdir. Xüsusi təhlükə hallarında daxildə onun müdaxiləsi mümkündür. Bundesver terror təhlükəsinin qarşısını almaq və qəza nəticələrini ləğv edilməsi məqamlarında federal dövlətin və torpaqların polisinə dəstək verərək, müəyyən edilmiş hüdud çərçivəsində qoşula bilərlər.

**Bürokratiyasızlaşmanı gəlişdirmək**

294. Biz insanların bütün yaşam sahələrini tənzimləyən dövlətdən imtina edirik. Biz qanunlar və sərəncamlar vasitəsilə aşırı idarə etmənin və idarəçilikdə aşırı bürokratiyanın əleyhinəyik. Vətəndaş azadlığı və sosial bazar iqtisadiyyatı "normalar seli"ndə boğulmamalıdır. Mövcud qanunlar və sərəncamlar daimi olaraq öz varlıqlarının məzmununa görə yoxlanılmalıdır. Yeni qanunların və sərəncamların vacibliyi qanunvericilik tərəfindən yoxlanılmalı və yoluna

qoyulmalıdır. Əsas prinsip budur: Qanun vermək lazım gəlmirsə, onda qanun verməmək lazım gəlir. Sadə qanuni əhəmiyyət daşıyan qaydalar və sərəncamlar gələcəkdə prinsipcə müvəqqəti olaraq qüvvəyə minməlidir. Qanunlar anlaşıqlı və mümkün qədər qısa olmalıdır. Hüququn şəffaflığı və sistematikliyi daha da yaxşılaşdırılmalıdır. İdarəetmə prosesləri və idarə strukturları sadələşdirilməli və elektron hökumət təklifləri genişləndirilməlidir.

295. Bürokratiyanın aradan qaldırılması dövlətin öz məqsədlərinin müəyyən etməsi ilə başlamalıdır. İşlək və vətəndaşlara daha yaxın idarə etmənin xeyrinə səthi bürokratiyanı aradan qaldırmaq vətəndaşların, iqtisadiyyatın və dövlətin maraqlarında olan təcili və daimi vəzifədir. Qeyri-şəffaf dövlət səlahiyyət bölgüləri icazə verdiyi təqdirdə vətəndaşlar cəmiyyətimizə daha çox iş görməyə qadir olurlar və bunu istəyirlər. Biz Avropada olduğu kimi bütün dövlət səviyyələrində aydın səlahiyyət və məsuliyyət sahələri istəyirik. Bu bütün səviyyələrdə bürokratiyasızlaşmaya olan səyləri birləşdirməkdir.

**Effektiv ədliyyə və ardıcıl ədliyyə icraatı**

296. Müstəqil ədliyyə bizim hüquqi dövlətimizin onurğa sütunudur. O, vətəndaşları hərkilikdən və hakimiyyətin sui-istifadəsindən qoruyur və hər kəsin öz haqqına yetişməsinin qeydinə qalır.

Məhkəmə proseslərinin uzun çəkməsi hüquq aləminin tez bərpasına mane olur. Biz məhkəmələrin və prokraturaların fəaliyyətliliyini saxlamalı və lazım olan yerdə yaxşılaşdırmalıyıq.

297. Ədliyyə icrası vətəndaşların təhlükəsizlik maraqlarını hesaba almalıdır. Keçmiş cinayətkarların cəmiyyətə yenidən dönməsi bizim məqsədimizdir, amma daim təhlükəli olan cinayətkarlardan vətəndaşlar ardıcıl qorunmalıdır. Təhlükəsizlik və sosialsızlaşma bir-birinə zidd deyillər. Hətta sosialsızlaşma vətəndaşları cinayətkarlıqdan qorumaq məqsədinə tabedir. Qurbanın qorunması cinayətkarın qorunmasından öndə dayanır.

## Sosial dövlətçilik

298. Azad hüquqi dövlət və sosial dövlət bir-birini tamamlayır. Ədalətli sosial sistem insanalayiq varlığın çərçivə şərtlərini hər kəs üçün təmin etməli və çıxılmaz çarəsizlikdə kömək etməlidir. Sosial ədalət xüsusən də zəifləri qorumalıdır. Sosial dövlətin varlığına qayğı dövlətin

qəyyumluğu ilə aparıla bilməz. O, fərdin iş fəaliyyətinə dəstək verməli və onun həmrəy çabasını tələb etməlidir, bu o cümlədən yardımçılıq prinsipini də nəzərdə tutur.

**Federalizm və yerli özünüidarə**

299. Almaniyanın federal strukturu onun artan mədəni və tarixi baxımdan özünü qavrayışın, vətənin və onun vətəndaşının kimliyinin ifadəsidir. Federalizm və bələdiyyə özünü idarəçiliyi dövlətimizin mühüm düzən prinsipidir. Biz onları saxlamaq və daha da inkişaf etdirmək istəyirik. Onlar, insanların azadlıqlarının təmin edilməsinə və dövlət hakimiyyətinin paylanmasına xidmət edir. Onlar hər bir regionun və icmanın özəlliyinə və mənafelərinə dəstək verir. Şəhərlərdə və bələdiyyələrdə gündəlik olaraq birgə yaşayışımızın fəaliyyət göstərib-göstərməməyinə qərar verilir. Birgə yaşayışımızın ifadəsi bilavasitə həyat əhatəsində canlı çaba və qərar vermə proseslərində iştirakla özünü vətəndaşlarımızın dilində büruzə verir. İnkişafda olan avropalaşma və kürəsəlləşmədə özünü idarə edən bələdiyyələr cəmiyyətimizin ən vacib təmas və dayaq nöqtəsidir.

300. İctimai vəzifələr bələdiyyə səviyyəsində vətəndaşların yaxınlaşması anlamında yerinə yetirilməlidir ki, bu da həmişə orada mümkün olur və əhəmiyyət qazanır. Bələdiyyələrin yetərli maliyyə təchizatına zəmanət verilməlidir. Federal dövlət, torpaqlar və bələdiyyələr arasında səlahiyyətlərin bölüşdürülməsində yardımçılıq və əlaqə prinsipləri tətbiq edilməlidir.

301. Torpaqların federal dövlətin qanunvericiliyində və idarəçiliyində iştirakı federal düzənimizin ən vacib özəyidir. Bu bizim möhkəmləndirmək istədiyimiz torpaqların öz aralarında korporasiyasına aiddir. Federal dövlət, torpaqlar və bələdiyyələrdə səlahiyyət və siyasi məsuliyyət dərk edilən olmalıdır.

302. Federalizm Avropa Birliyinin kürəsəlləşməsi, genişlənməsi və dərinləşməsi fonunda əhəmiyyətini daha da artırır. Almaniya Avropanın inteqrasiya prosesini özünün federal strukturları və bunla bağlı olan təcrübələr əsasında zənginləşdirir.

**İnteqrasiya ölkəsi Almaniya**

303. Mühacirlərin, xüsusən də ikinci və üçüncü nəsildən olan uşaqların və gənclərin cəmiyyətimizə inteqrasiyası XDİ üçün əsas siyasi vəzifədir. İnteqrasiyanı biz emiqrantların məsuliyyətində, siyasətdə və bütün cəmiyyətdə tərəqqi edən müsbət bir proses kimi başa

düşürük. Miqrasiya və inteqrasiya formalaşdırılmalıdır; Biz onları imkanlar və zənginlik kimi qəbul edirik. Bizim siyasətimiz Almaniyanın ictimai və iqtisadi mənafeyinə istiqamətlənməli, emiqrantlar Avropanın qoyduğu ölçünü daim nəzərə almalı, özünün humanitar öhdəliklərini və məsuliyyətini az inkişaf etmiş ölkələr üçün də şüurlu etməlidir.

304. Bizim bizimlə yaşayan, işləyən və ölkəmizi öz vətəni kimi qəbul etmək istəyən savadlı, işgüzar və inteqrasiyaya meylli insanlara ehtiyacımız var. Belə insanlar üçün Almaniya cəlbedici olmalıdır. Onlar ölkəmiz üçün uduşdur.

305. Sonradan gələn almanların qəbulundakı, həm də ulularının yaşadığı torpaqlarda onların həyat şəraitinin yaxşılaşdırılmasındakı siyasətimizdə tarixi cavabdehliyə əməl edirik.

306. Almaniya almanların və gəlmələrin barış şəraitində yaşadığı və işlədiyi dünyaya açıq və tolerant bir ölkədir. Almaniya onların öz istedadlarını inkişaf etdirmək, ölkəmizi mənəvi, mədəni və sosial baxımdan zənginləşdirmək və onu daha da irəliyə aparmaqdan ötrü insanları həmişə qəbul edib. Onlar öz işləri ilə özlərini təsdiq ediblər. Eyni zamanda Almaniya Federativ Respublikası çoxsaylı insana humanitar səbəbləri üzündən sığınacaq verir, necə ki, bu bizim xristian obrazımızın məsuliyyətinə uyğundur.

307. Almaniya inteqrasiya ölkəsidir. İnteqrasiya ictimai quruluşa qurşanma, habelə ümumi bölüşdürülmüş və yaşanmış təməl dəyərlərin mədəni çeşidliliyinin qəbulu deməkdir. İnteqrasiya həm də bizim ölkəmiz üçün məsuliyyəti öz üzərimizə götürmək deməkdir. Bizim hüquq sistemimizə gəc baxan, bir-biri ilə əlaqəsi olmayaraq yan-yana və paralel yaşayan cəmiyyətləri biz rədd edirik. Kim Almaniyada yaşamaq istəyirsə, o, öz əslini inkar etmədən və öz kökündən üz döndərmədən bizim azad-demokratik düzənimizin aparıcı dəyərlərini və normalarını qəbul etməlidir. Lakin insan hüquqları və demokratiya sual altına düşən yerlərdə mədəni fərqlilik hüququ aradan qalxır. Bu, xüsusən də qadınların və kişilərin bərabərhüquqluluğunun əsas prinsipi üçün də hesab edilir. Bu barədə hamı, həm gəlmələr həm də onları qəbul edənlər eyni fikirdə olmalıdır. İnteqrasiyanı daim rədd edən, sanksiyaları göz altına almalıdır.

308. Alman dilini bilmək inteqrasiyanın açarıdır. Aydın və aşkar tələbləri biz əngəl kimi yox, əksinə ictimai inteqrasiyanın əsası kimi təsəvvür edirik. Bizim əsas prinsipimiz tələb etmək və dəstək verməkdir. XDİ dolğun inteqrasiya dəstəyinin tərəfdarıdır. İnteqrasiya bütün siyasət sahələrinə aid edilir.

309. Uğurlu inteqrasiya hər bir fərddən tələb edilir və o, cəmiyyətin və dövlətin məsuliyyətindədir. Ona hamının birgə təsiri lazımdır və o, həyatın bütün sahələrinə sirayət edir. İnteqrasiya yerlərdə bələdiyyələr çərçivəsində həll olunur. Buraya xüsusən kilsələr, dini icmalar, mədəniyyət və təhsil qurumları, miqrasiya təşkilatları, media, idman, fondlar, birliklər və ittifaqlar, müəssisələr və həmkarlar ittifaqı cəlb olunur. Bununla biz hamımız uğurlu inteqrasiyadan və nəzarət edilən miqrasiyadan, həm iqtisadiyyatda və əməkdə həm də gündəlik həyatda qazanc əldə edirik.

310. Uğurlu inteqrasiya prosesinin ifadəsi olan vətəndaşlıq hüququ almaq, bizim tərəfimizdən bütün hüquq və vəzifələr ilə bərabərhüquqlu iştirakın reallığı kimi başa düşülür. Bu, bununla öz loyallığını dövlətə qarşı ifadə edən fərdin həyatında həlledici andır. Bunu etiraf etmək və azalan rəqəmləri hesaba alaraq dəstəkləmək lazım gəlir.

311. XDİ milli inteqrasiya planını irəli çəkir və əmək bazarı siyasətini, sosial siyasəti, ailə, təhsil və əcnəbilər üçün olan siyasəti yeni inteqrasiya siyasətinə birləşdirən ümumi siyasi konsepsiyanı dəstəkləyir. Bu yolla biz tərəfdaş cəmiyyətə nail oluruq.

## VIII. Almaniyanın məsuliyyətini və mənafelərini dərk etmək

### 1. Almaniyanın şansı Avropa

312. XDİ alman Avropa partiyasıdır. O, başdan Avropanın birləşmə prosesinə ehtirasla rəhbərlik etmişdir. Konrad Adenauer tərəfindən cəsarətlə təqdim edilmiş, Almaniyanın yenidən birləşməsindən sonra Helmut Kool tərəfindən daha da dərinləşdirilmişkən, biz onu Avropanın inteqrasiyası üçün də davam etmək istəyirik. Avropa İttifaqı onun bütün üzv dövlətlərinin və onların vətəndaşlarının marağındadır. Avropanın gücü həm də həmişə Almaniyanın şansı deməkdir.

313. Avropa mədəniyyət və dəyərlər birliyidir. O, öz vətəndaşlarını öz Avropa kimliyində şüurlu olaraq birləşdirir. Milli dövlətlər və onların xalqlarının kimliyi müxtəliflikdə vəhdət yaradan Avropanın formalaşdırıcı tərkib hissələridir. Qitəmizin ümumi ənənələri, dinləri, ideyaları və intellektual nailiyyətləri onun xalqlarını milli və regional, siyasi və iqtisadi fərqlərdən asılı olmayaraq birləşdirir.

314. Ümumi Avropa irsinin bir hissəsi olaraq insanın xristian obrazı Avropa kimliyi üçün mühümdür. O, kürəsəlləşmənin bu çağında da Avropada ümumi gələcəyin formalaşmasının əsası olaraq qalır.

315. Almaniya Avropanın bütövləşmə prosesinin sonuna kimi fəal rol oynama marağında olmalıdır. Müvafiq Avropa kürəsəlləşmə çağında ən yaxşı şəkildə ümumi dəyərləri, azadlığı, demokratiyanı və hüquqi dövlətçiliyi birləşdirdiyimiz transatlantik tərəfdaşlarımızla maraqlarımızı həyata keçirə bilər.

316. Avropanın birləşməsi bizim qitəmizin ən böyük siyasi tarixi nailiyyətidir. O, dünyanın bir çox bölgələri üçün model və istiqamət nöqtəsidir. İkinci cahan savaşından sonra o, Avropaya azadlıq, sülh və tərəqqi gətirir. Avropanın birləşməsi bunların davamlı olmasına zəmanətdir. Bu gün Avropa İttifaqı bizim həm daxili həm də xarici təhlükəsizliyimizə zəmanət verir. Biz əminik: Avropa Birliyi kürəsəlləşmə, miqrasiya, təhlükəsizliyimizə olan yeni hədə-qorxular, iqlim dəyişikliyi və enerji təhlükəsizliyi kimi çağırışlara ən yaxşı cavabdır.

Üzv olan heç bir dövlət bu çağırışların tək öhdəsindən gələ bilməz. Almanlar və onun tərəfdaşları Avropa İttifaqında öz ümumi talelərini birləşdirirlər. İttifaqa üzv olan hər bir dövlətin suverenliyi ümumi olaraq onun qeydinə qalındıqda daha da effektiv inkişaf edir.

317. Avropa İttifaqının onun vətəndaşları tərəfindən qəbul edilməsi çox mühümdür. O, vətəndaşlarının yeni inandırıcı etimadını qazanmalıdır, çünki barış, rifah və təhlükəsizlik bu gün də əksər avropalı üçün məlum məsələlərdir. Biz öz siyasətimizlə vətəndaşların Avropa İttifaqına olan etimadını gücləndirmək istəyirik.

318. Biz istəyirik ki, xüsusən də gənclərimiz Avropa inteqrasiyasının formalaşmasında fəal iştirak etsin. Bu siyasət və Avropanın tarixi haqqında intensiv məlumatlanmanı şərtləndirir. Biz güclü və effektiv Avropa istəyirik. Avropa İttifaqı yardımçılıq prinsipinə müvafiq olaraq regionları və yerli hakimiyyət orqanları ilə milli dövlətdən daha yaxşı Avropa səviyyəsində nail olan hər bir məsələyə konsantri olmalıdır. Gələcəkdə iş strukturlarının Aİ-nin müqavilə dəyişiklikləri zamanı tədqiq edilməsi çox zəruridir. Bundan başqa məsələlərin qismən üzv dövlətlər arasında yenidən gündəmə gətirilməsinə imkan yaradılmalıdır. Avropa İttifaqı demokratik, şəffaf, effektiv, qeyri-bürokratik və vətəndaşlara daha yaxın olaraq formalaşdırılmalıdır.

319. Avropa İttifaqının maliyyə üsulları daha məqsədyönlü, effektiv və gələcəyə yönəlik formalaşdırılmalı, maliyyə sistemi iqtisadi gücə əsasən və müvafiq olaraq Avropa İttifaqının vergi almaya öz səlahiyyəti olmadan yaxud ictimai kredit alma olmadan islah edilməlidir. Bu kontekstdə biz Avropa İttifaqını vətəndaşlara hansı müsbət cəhətlərin verməsini və onlara gələcəkdə hansı perspektivlərin açmasını aydınlaşdıracağıq.

320. Vətəndaşların və üzv dövlətlərin birliyi olan Avropa İttifaqı Lissabon sazişi ilə başlıca olaraq xristianlıq, iudizm, antik dövr və maarifçiliklə formalaşmış Avropa insanın siması və birgə dəyərlər əsasında qurulan yeni baza üzərində dayanır. Təməl haqq xartiyası bu dəyərlərin ifadəsidir. Biz Allaha bizə yardım etmək üçün müraciət etmənin tərəfdarıyıq. Biz Avropa İttifaqı üçün uzunmüddətli məqsədlərə əsaslanan anayasa hazırlamağı müəyyən etmişik.

321. Milli dövlət dəyişəcək amma uzun müddət mövcud olacaq. Avropa İttifaqı ona üzv dövlətlər tərəfindən verilmiş səlahiyyətlər çərçivəsində federasiya sisteminin prinsiplərinə və metodlarına müvafiq olaraq işləyir.

322. Biz Avropa İttifaqında demokratiyanı və Avropa Parlamentində hüququ daha da möhkəmləndirmək istəyirik. Avropa Parlamenti və Avropa İttifaqının Şurası iki palatalı sistem fonunda hər bir Avropa qanunvericilik prosesində iştirak etmələri üçün bərabər hüquqa malik olmalıdırlar. Üzv dövlətlərin milli parlamentləri Avropa İttifaqının üzv dövlətlərinin yüksək səlahiyyətlərinin yerinə yetirilməsini gələcəkdə legitimləşdirməlidir. Onlar yardımçılıq və proporsionallıq prinsiplərinə nəzarətdə mühüm rol oynamalıdırlar. Avropa Parlamentinin seçkilərindəki vətəndaş səsi komissiyanın prezidentinin seçimində Avropa Parlamenti vasitəsilə əks edilməlidir. Bundan başqa biz fərdə söykənən Avropa seçki hüququnu dəstəkləyirik.

323. Siyasi partiyalar Avropa səviyyəsində Avropa siyasi şüurun yaranmasına və Avropa İttifaqının vətəndaşlarının iradəsinin ifadə etməsinə töhfə verir. Biz xristian demokratlar Avropanın xalq partiyasının (EVP) bir üzvü kimi bu işi yerinə yetirməyə qadirik. Avropa partiyaları Avropa ictimaiyyətinin formalaşması üçün öz güclü töhfələrini verməlidirlər, məsələn, Avropa siyasətinin güclü fərdiləşdirilməsi yolu ilə.

324. Almaniya Avropanın mərkəzində olan bir ölkə kimi öz qonşuları ilə səmimi münasibətdədir. Biz Avropa İttifaqının ən çox əhali sayına və güclü iqtisadiyyata malik bir dövlət kimi Avropa Birliyinin işinə şüurlu, dünyaya açıq və körpü salan bir ölkə kimi öz töhfəmizi verməliyik. Biz əminik: Avropa hər şeyə yalnız birlikdə nail ola bilər – böyük, kiçik,

çoxdankı və yeni üzv dövlətlərin bərabər hüquqlu birgə yaşayışı sayəsində. Fransa Avropada Almaniyanın ən mühüm tərəfdaşıdır. Fransa və Almaniya Avropa İttifaqının formalaşması prosesində öndəki ölkələrdən olsun deyə, biz bu münasibətləri təkmilləşdirmək istəyirik.

325. Bizim üçün Avropa hər şeydən əvvəl regionların Avropası deməkdir. Avropanın regionlarının və yerli özünü idarə etmə orqanlarının çeşidliyi və müstəqilliyi daim qorunub saxlanmalıdır. Hər şeydən öncə sərhəd bölgələr Avropa inteqrasiyanın reallığının olduğu və yaşandığı ərazilərdir. Qonşu regionların siyasi, mədəni, linqvistik, tarixi və ictimai xüsusiyyətlərinin qarşılıqlı biliyi və anlaşım hüdudları aşan əməkdaşlığı səciyyələndirir. Məhz buna görə də biz sərhəd bölgələrdə qonşularımızın dilinin öyrənməsini təqdir etmək istəyirik. Sərhəd və sərhədləri aşan regionlar Avropanın birləşmə prosesinin mühüm özülüdür və bu vacib əlaqələndirici funksiya kimi şüurlu olaraq qəbul edilməlidir.

326. Vətən kökləri, milli kimlik və Avropa ümumiliyi bir-birini tamamlayır və şərtləndirir. Biz beynəlxalq və Avropadakı etnik qruplar və milli azlıqlar üçün olan hüququn vətən, dil və mədəniyyət haqlarını müdafiə edirik.

327. Həmçinin getdikcə sərhədləri açılan Avropada vətənindən qovulmuşlar və xalqlar qrupu millətlər arasında əlaqələndirici funksiya rolunu oynayırlar. Habelə vətənləri Almaniya Federativ Respublikasından kənarda olan almanlar da Avropanın daha da böyüməsi barədə Almaniyanın və onların qonşuları arasındakı bu vacib funksiyanı gerçəklik kimi qəbul etməlidirlər. Hər növdən olan qovqunluq beynəlxalq qurumlar tərəfindən rədd edilməli və pozulmuş hüquqlar tanınmalıdır.

328. Avropa İttifaqının bu günə kimi genişlənmə əhatəsi sabitliyin ərazisini genişləndirmiş, Almaniyaya siyasi və iqtisadi mənfəət gətirmişdir. Həmçinin qərbi Balkanlardan və şərqi Avropada olan bir çox insanlar üçün Avropa Birliyi xalqların dinc-yanaşı yaşadığı açıq cəmiyyətin aparıcı siması və onların siyasi və iqtisadi gələcəklərinin ümid yeri olmuşdur.

Avropa Birliyi bu Avropa regionlarındakı xalqlar qarşısındakı cavabdehliyinə sadiq qalmalıdır. Avropa İttifaqına tam üzvlük hər bir halda bunun yeganə cavabı ola bilməz. Təkcə üzvlük meyarlarının yerinə yetirilməsi yeni üzvlərin qəbulu üçün ölçü sayıla bilməz, burada həm də Avropa İttifaqının qəbul etmək imkanı da nəzərə alınmalıdır. Biz Avropa İttifaqının Türkiyə ilə privileq tərəfdaşlığını düzgün çıxış yolu kimi görürük.

329. Avropa İttifaqının getdikcə dərinləşməsi gələcəkdə genişlənmə prosesini istisna etmir. İnteqrasiya prosesinə daha da təkan verən yekdillik və fəaliyyət bacarığı yaxşılaşdırılmalıdır. Avropanın genişlənmə prosesi Avropa kimliyinin möhkəmlənməsinə xidmət etməlidir. Assosiativ müqavilələr, özəlliklə də tərəfdaşlıqlar, eləcə də Avropa iqtisadiyyat məkanı kimi çox şaxəli əməkdaşlıq modelləri ilkin addımlar yaxud uzun müddətli həll yolları kimi birləşdirilməlidir. Yalnız Avropa dövlətləri Avropa İttifaqına daxil ola bilərlər.

330. Avropa İttifaqının və onun üzv dövlətlərinin təhlükəsizliyi və rifahı üçün onun qonşuluğundakı dövlətlərin sabitliyi və rifahı böyük əhəmiyyət kəsb edir. Avropa İttifaqına öz qonşuları ilə ölçülüb-biçilmiş sazişlər və yaxşı münasibətlər lazımdır.

331. Vahid Avropa valyutasının olması üzv dövlətlərin yekdilliyini və iqtisadi gücünü artırır. Məhz onun vasitəsilə faktiki olaraq siyasi birlik dönməzdir. Gömrük İttifaqları, əmək bazarları və avro Avropanın sabitliyinə, tərəqqisinə və kürəsəl rəqabət bacarığına xidmət edir. Avropa bizim kürəsəlləşməyə olan cavabımızın mühüm bir hissəsidir, çünki o, bizi beynəlxalq rəqabətdə güclü edir. Vahid əmək bazarının qurulması və onun daha da inkişaf etdirilməsi hələ də açıq qalır. Vahid bazarların istifadəsi kənardan təsir etmə vasitəsilə daraldılmamalıdır. Avropa Birliyi dünya bazarında öz yerini tutmaq və rəqabət şanslarını yaxşılaşdırmaq üçün güclü iqtisadiyyat yaratmağa intensiv səy göstərməlidir. Bura Avropanın Mərkəzi Bankının məhdudiyyətsiz müstəqilliyi və Avropanın sabitlik və inkişaf paketinin ardıcıl əməl edilməsi daxildir. O cümlədən tədqiqat, inkişaf və təhsil səylə dəstəklənməlidir.

332. Texniki tərəqqi istehsal və iqtisadi inkişaf üçün vacib bir faktordur. Avropa İttifaqının da Avropada yüksək məvacibli və rəqabətlik yaradan iş yerlərini saxlaya bilməsi üçün yüksək texnologiya strategiyasına ehtiyacı var.

333. Biz istəyirik ki, Avropa firavanlıq regionu olaraq qalsın. Biz sosial bazar iqtisadiyyatını Avropanın iqtisadiyyat və sosial modeli kimi təmsil edirik. Sosial həm də ətraf mühit siyasətinin bütün sahələrində sağlam rəqabətə imkan yaradan, Avropa İttifaqının daxilində rəqabət səviyyəsini məhdudlaşdıran və heç bir üzv dövləti yükləməyən vahid minimal standartlar bütün Avropada möhkəmləndirilməlidir. Avropa İttifaqı olaraq biz yalnız birgə halda kürəsəl və dəyərlərimizə söykənən standartları həyata keçirə bilərik. Bundan başqa transatlantik iqtisadi tərəfdaşlıq bizim üçün yüksək prioritetdir.

334. Əsas məqsəd odur ki, vətəndaşlar və müəssisələr üçün şərtlər və idarəetmə xərclərinin qurulması vasitəsilə fəaliyyət məkanı daha da genişlənsin. Avropanın normalara nəzarət müstəqil şurası bu işdə mühüm töhfə verə bilər. O cümlədən, Avropa hüququnun alman hüququna dəyişdirilməsi aşırı tənzimlənməsi təkzib edilməlidir.

335. Birgə yaşayış qanunu sadələşdirilməli və Avropa qanunvericilik proseslərinin keyfiyyəti yüksəldilməlidir. Almaniyada ardıcıllığın pozulması prinsipi ilə nail olunan asılı qanunvericilik niyyəti Avropa İttifaqında da vaxtaşırı nəzarətə məruz qalmalıdır. Bizim məqsədimiz sərfəli yerləşim şərtləri ilə müasir bir Avropa formalaşdırmaqdır.

336. Milli və Avropa siyasətinin əsas vəzifəsi daxili təhlükəsizliyə zamin durmaqdır. Avropa İttifaqı azadlığın, təhlükəsizliyin və hüququn ümumi sahələrini tədricən reallaşdırmaqla vətəndaşların azadlığına və sərbəst hərəkətinə daha da çox töhfə verir. Eyni zamanda o, terrorizmə və beynəlxalq cinayətkarlığın digər formalarına qarşı effektiv mübarizə aparmağa imkan yaradır.

337. Bizim ümumi dəyərlərimizin qəti və fəal müdafiəsinin əsasında üzv dövlətlərin polis və təhlükəsizlik idarələrinin xüsusi olaraq yaxşılaşdırılmış sınırsız informasiya məlumatı lazımdır. Mövcud informasiya sistemləri yenidən bərpa edilməli və ən yeni texnologiyalar vasitəsilə cinayətkarlıq və terrorizmə qarşı aparılan mübarizənin tələblərinə uyğunlaşdırılmalıdır. Bunun üçün biz EUROPOL (AVROPOL) və EUROJUST (AVROƏDLİYYƏ) kimi birgə qurumları möhkəmləndirməyə və milli polis idarələri ilə birbaşa sıx əməkdaşlığa ehtiyac duyuruq. Avropa səviyyəsində müzakirə edilməsi gərəkən digər işləri qanunsuz miqrasiyaya qarşı effektiv mübarizə, Avropa üçün ümumi qaçqınlar siyasətinin tədricən inkişafı və inteqrasiya məsələlərinə dair Avropanın güclü təcrübə mübadiləsi təşkil edir.

338. Biz inteqrə edilmiş təhlükəsizlik strategiyasının tərkibində olan və enerji və xammal siyasətinin təhlükəsizliyini əhatə edən birgə xarici və təhlükəsizlik siyasəti istəyirik. Bunlar bizim ölkəmizin marağındadır. Avropa İttifaqı əhali sayının çoxluğuna və iqtisadi xidmət gücünə görə kürəsəlləşmə prosesini öz marağına və dəyərlərinə müvafiq şəkildə qərar verərək formalaşdırmalıdır. Avropa İttifaqının həmfikir olması və təpki göstərə bilməsi üçün siyasi və qurumsal şərtlərin yaradılması bunun üçün zəruridir. Yalnız bundan sonra o, cəlbedici tərəfdaş kimi ictimai əsaslar üzərində regional barış düzənin və əmək bazarının qurulmasında öz zəngin təcrübəsini inamla dünya regionları ilə paylaşa bilər.

339. Bizim genişlənmiş təhlükəsizlik konsepsiyamızın danılmaz bir hissəsi inkişaf etməkdə olan ölkələrlə birgə əməkdaşlıqdır. Avropa İttifaqı ən böyük donor cəmiyyətidir. Əhalinin zəruri qəbulunu saxlamaq üçün hər bir halda yardımların verilməsi və ondan istifadə milli siyasətlərə uyğun olaraq şəffaf şəkildə formalaşdırılmalıdır. O, xüsusən insanların yerlərdə xeyrinə olması gərəkən özünə yardım üçün yardım prinsipinə müvafiq olmalı və hər şeydən öncə yaxşı hakimiyyət rəhbərliyinə və korrupsiyaya qarşı mübarizə daxil olmaqla təsirli idarə etməyə dəstək verməlidir.

340. Avropa Təhlükəsizlik və Müdafiə Siyasəti (ESVP) Avropa İttifaqının müdafiə siyasətinin komponenti kimi inkişaf etdirilməlidir. NATO-nun siyasi və hərbi dəstəyinin əlavəsi daxil olmaqla Avropanın müdafiəsini öz öhdəmizə götürürük. Bunun üçün Avropa İttifaqı öz hərbi imkanlarına malik olmalıdır. Bundesverlə Almaniya Avropanın təhlükəsizlik və müdafiə siyasətinin inkişafına əsaslı töhfə verir. Biz Avropa strukturları çərçivəsində Avropa ordusunun məqsəd kimi mili birliklərin inteqrasiyasının tərəfdarıyıq.

341. Transatlantik əlaqələr Almaniyanın və Avropanın barışı, azadlığı və tərəqqisi üçün daim mühüm əsas olub. Onlar gələcək üçün də mükəmməl əhəmiyyət kəsb edirlər. Buna görə də XDİ həmişə ABŞ ilə əməkdaşlıqda ümumi maraqların axtarılmasının tərəfdarıyıq. Burada bizim əməkdaşlığımız həmişə önəm kəsb edir. Bizim transatlantik tərəfdaşlarımız ABŞ və Kanada ilə birgə qərb dəyərlər cəmiyyətinin çəkisini öz dəyərlərimizin bazası əsasında möhkəmləndirmək istəyirik.

342. Avropa İttifaqı və ABŞ ticarət və investisiya sahələrində dünyanın ən güclü iqtisadi məkanlarıdır. Biz transatlantik iqtisadi münasibətlərin irəliləyən inteqrasiyasına görə ticarətdəki əngəlləri aradan qaldırmağı və uzun müddətli transatlantik bazar yaratmağı dəstəkləyirik. Biz transatlantik münasibətlərdə pərsəng yox ABŞ-ın tərəfdaşı kimi özünə güvənən Avropanın olmasının tərəfdarıyıq.

**2. Azadlıq və sülh üçün çalışmaq – Almaniyanın dünyadakı rolu**

343. Azadlıq, həmrəylik və ədalət bizim xarici, təhlükəsizlik və inkişaf siyasətimizin ana xəttidir. Bu bizim Almaniyada yaşayan insanların azadlığının və təhlükəsizliyinin təminatına müvafiq olan borcumuzdur. Biz ölkəmizi təhlükələrdən qorumaq və eyni zamanda dünyada barışın və azadlığın, o cümlədən hüququn üstün olmasını bərqərar etmək və universal insan haqlarını müdafiə etmək istəyirik. Beləliklə, biz şərtlər qoyuruq və şərtlərlə rastlaşırıq ki,

ölkəmiz başqa ölkələrlə sülh şəraitində ictimai, mədəni və iqtisadi baxımdan mübadilə edə, öz tərəqqisini artıra və cəmiyyətini inkişaf etdirə bilsin.

344. Soyuq müharibənin sona çatmasından bəri bizim xarici və təhlükəsizlik siyasətlərimiz əsaslı şəkildə dəyişib. Dünya düzənin ikiqütblü olması artıq keçmişdə qalıb. Ən gec 2001-ci il 11 sentyabr hadisəsindən sonra azad dünya bildi ki, biz sərhədlərimizdən kənarda mövcud olan asimmetrik təhlükələrə etiraz etməliyik. Biz maraqlar üstündə olan münaqişələrin əməkdaşlıq çərçivəsində və qeyri-zorakı yollarla həll edilməsi üçün beynəlxalq əlaqələri daha da gücləndirmək istəyirik.

345. Kürəselləşmənin bu çağında hər bir ölkə bizim qonşumuz sayılır. Tənəzzülə uğrayan dövlətlər transmilli terrorizm və beynəlxalq cinayətkarlıq üçün həmişə daldalanacaq yerləridir. Uzaq regionlarda hüquqi dövlətin və demokratiyanın yaranması, ona verilən dəstək bilavasitə bizim mənafeyimizə xidmət edir və bu təhlükəsizliyin bərqərar olması üçün fəal tədbirdir. Demokratiya və hüquqi dövlətçilik xüsusən ixraca köklənən milli iqtisadiyyata əsaslandığımız sabitliyi yaradır. Biz təkcə regional yox, kürəsəl şəkildə də beynəlxalq təşkilatlar çərçivəsində başqa demokratlarla birgə məsuliyyət daşımağa hazır olmalıyıq. Bundan başqa biz şəbəkələşmiş təhlükəsizlik konsepsiyasına riayət edirik: Təhlükəsizlik olmadan inkişafdan, inkişaf olmadan təhlükəsizlikdən söhbət gedə bilməz.

346. Özümüzün beynəlxalq məsuliyyətimizə sadiq qalmaqdan ötrü xarici, təhlükəsizlik və inkişaf siyasəti üçün olan vasitə və alətləri vəzifə və öhdəliyimizə müvafiq olaraq hazır tutmalıyıq. Uğurlu xarici siyasət ölkəmizin milli mənafeyinə xidmət etməlidir. Bunun üçün belə bir idrak vacibdir: Əgər biz beynəlxalq həmrəylik nümayiş etdirəriksə, özümüz də başqa dövlətlərdən həmrəylik görəcəyik. Öz siyasətimizi təkcə milli zəmində məhdudlaşdırmaq yox, maraqların tarazlığı şəklində istiqamətləndirmək bizim mənafeyimizə uyğundur.

347. Uğurlu xarici siyasət intellektual və iqtisadi effektivliyi, habelə ictimai quruluşumuzun və mədəniyyətimizin cazibədarlığını tələb edir. O, bizim tərəfdaşımızın və müttəfiqimizin etimadını qazanacaq dərəcədə etibarlı olmalıdır və o, milli üsulları rədd edir. O, iradəni, qətiyyəti və bacarığı dəstəkləməli, başqa mədəniyyətlərlə olan dialoqda dəyərlərimizi, inanc və maraqlarımızı müdafiə etməlidir. Biz ölkəmizdə və Avropa İttifaqında xarici və təhlükəsizlik diskurslarını intensivləşdirmək istəyirik.

348. Gələcəyin xarici siyasət tələblərinin öhdəsindən gəlmək üçün biz Avropa İttifaqını daha da inkişaf etdirmək, transatlantik tərəfdaşlığımızı yaxşılaşdırmaq və bərpa etmək, habelə kürəsəl düzəni gücləndirmək istəyirik. Biz iqtisadiyyatımızın rəqabət qabiliyyətini artırmaq üçün transatlantik iqtisadi inteqrasiyanı dərinləşdirmək istəyirik.

349. NATO Almaniyanın və Avropanın təhlükəsizliyi üçün danılmaz və təhlükəsizlik və müdafiə siyasətinin ilkin aləti olaraq qalır. Bundan başqa NATO transatlantik təhlükəsizlik siyasətinə dair dialoqun daimi məkanı olmalıdır.

350. Transatlantik toplum ümumi dəyərlərin bütün dünyada yeganə olan bünövrəsi üzərində dayanır. ABŞ və Kanada ilə bizi daha da möhkəmlətmək istədiyimiz təcrübəli tərəfdaşlıq və dostluq birləşdirir. Hər iki dövlət avropalılar tərəfindən yaradılıb. 18-ci əsrin sonlarında Amerikanın müstəqillik bəyannaməsini prinsipləri Avropa ölkələri üçün, əvvəlcə 1789-cu ildə Fransada sonra da Almaniyada bir örnək oldu.

Biz xüsusən ABŞ-a Almaniyanı və Avropanı nasionalsosializmin və kommunizmin cəngindən azad etdiyi üçün minnətdarıq. ABŞ-ın dəstəyi olmasaydı, Almaniyanın birliyi və Avropanın yenidən birləşməsi qeyri-mümkün olardı. Bizim transatlantik tərəfdaşlarımız olan ABŞ və Kanada ilə ümumi nöqteyi-nəzərlərin axtarılması və təmsil edilməsi getdikcə mühümləşir. Biz öz ümumi dəyərlərimizin bazası əsasında qərb dəyərlər toplusunun önəmini artırmaq istəyirik.

351. Biz Almaniyanın İsrailə qarşı xüsusi tarixi məsuliyyəti olduğunu etiraf edirik. Biz İsrailin yəhudi dövlət kimi təhlükəsiz sərhədlər içərisində mövcudluq haqqını dəstəkləyirik. Almaniya və Avropa Yaxın və Orta Şərqdəki böhranın öhdəsindən regiondakı ölkələrlə tərəfdaş əməkdaşlıq çərçivəsində gəlməkdə və Yaxın Şərq münaqişəsinin nizamlanmasında öz töhfələrini verməlidir. Buraya mövcudluğa qabil Fələstin dövləti də aiddir.

352. Biz Qərb demokratiyasının islam dövlətləri ilə dinc-yanaşı yaşamasının tərəfdarıyıq. Biz islam dünyasının zəngin mədəni ənənəsinə hörmət edir və onu dəyərləndiririk. Müsəlman cəmiyyətlərindəki yönətici qüvvələrin hüquqi dövlətçiliyini və demokratiyasını dəstəkləmək bizim marağımızdadır. İslam fundamentalizmi və islam adı ilə mövcud olan terrorizm həm islam cəmiyyətlərinin özləri həm də bizim üçün təhlükədir. Biz müsəlmanların böyük çoxluğu ilə birgə islamçı terrorizmə və fundamentalizmə qarşı mübarizə aparmağa və onları istinad nöqtələrindən ayırmağa hazır və qabil olmalıyıq.

353. Almaniya Avropa və ümumiyyətlə Qərbin birlikdə Rusiya ilə yaxşı münasibətlərə maraqlıdır. Biz Rusiya ilə Avropa İttifaqının Avropa Şurasının universal dəyərləri üzərində yaranan strateji tərəfdaşlığına can atırıq. Bundan başqa Orta və şərqi Avropa dövlətlərinin maraqları nəzərə alınmalıdır. Biz Rusiya ilə aramızdakı iqtisadi, siyasi və ictimai əməkdaşlığı intensivləşdirmək istəyirik. Açıq və hərtərəfli dialoqlar vasitəsilə biz Rusiyada demokratik inkişafı, hüquqi dövlətçiliyi, media rəngarəngliyi və vətəndaş cəmiyyətini möhkəmlətmək istəyirik.

354. Biz qonşu qitəmiz Afrikanı oradakı insanların daha yaxşı yaşam perspektivlərinin olmasından ötrü göstərdiyi davamlı inkişaf, sabitlik və yaxşı hakimiyyət rəhbərliyinin olması üçün səylərini dəstəkləmək istəyirik. Biz Afrika Birliyi ilə yaxın əməkdaşlığa can atırıq. Geniş yayılmış yoxsulluq, aclıq, tələblərə cavab verməyən təhsil, epidemiyaların və xəstəliklərin yayılması xüsusi problem yaradır. Biz Afrikadakı zorakı münaqişələrə, qeyri-stabilliyə və qanunsuzluğa laqeyd qala bilmərik və biz artan miqrasiya axınlarının təsirinə də məruz qalırıq.

355. Avropanın tarix və dəyərlər vasitəsilə çox əlaqəli olduğu Latın Amerikası ilə olan tərəfdaşlığına yüksək dəyər veririk. Biz Braziliya və Meksika kimi çiçəklənən ölkələri kürəsəl problemlərin həllində daha çox məsuliyyət götürməsini dəstəkləyirik. Biz tərəfdaşlarımız ilə əməkdaşlığımız yolu ilə bir çox ölkələrdə demokratiyanın möhkəmlənməsinə töhfə veririk.

356. Dəyişikliklər yolu ilə Asiyadakı müxtəlif tələblərin öhdəsindən gəlmək və öz maraqlarımızı qorumaq üçün biz Avropa və Asiya ölkələri arasındakı əməkdaşlığı gücləndirməli və əməkdaşlığı və əlaqəli tərəfdaşlığı formalaşdırmalıyıq. Artan əhəmiyyətinə görə biz Çini və Hindistanı beynəlxalq sistemdə cavabdeh iştirakçı və beynəlxalq düzənin qurucusu olmasını dəstəkləmək istəyirik.

357. Biz dünya üzrə tərk-silahın davam etdirilməsinin, silahlanmaya nəzarətin güclənməsinin və silahların Avropadan tənzimlənən ixracının tərəfdarıyıq. Kütləvi qırğın silahlarının və onların daşıyıcı texnologiyalarının geniş yayılmasına maneçilik dünyada sülhə dəstək olur və bizim təhlükəsizliyimizə töhfə verir. Biz çalışacağıq ki, beynəlxalq birliyin beynəlxalq qaydalara və sazişlərə qarşı çıxan belə qüvvələrə əzmlə və qətiyyətlə təsir etməsinə təsir edəcəyik.

358. Biz bütün təhlükəsiz siyasi alətləri nəzərə alan və ümumi konsepsiyada cəmləşən hərtərəfli və şəbəkələşmiş yanaşmanın tərəfdarıyıq. Biz sıx kompetensiyalı əməkdaşlığa ehtiyac duyuruq və biz böhranların öhdəsindən gəlmə xidmətləri zamanı Birləşmiş Millətlərin, NATO-nun və

Avropa İttifaqının mülkü və hərbi alətlərini bir-biri ilə təsirli şəkildə koordinasiya etmək istəyirik.

359. Bundesverin vəzifəsi öz ərazisində klassik federal dövlət və torpaq müdafiəsi ilə məhdudlaşmamalıdır. Şəbəkələşmiş təhlükəsizlik konsepsiyasında Almaniya Silahlı Qüvvələri həm torpağın və federal dövlətin müdafiəsində böhranların qarşısının alınmasındakı ümumi spektorda və böhranların həllində təkzib edilməz alətdir. Buna əlavə olaraq, Bundesver vətənin müdafiəsi məqsədilə daxildəki qəzadan müdafiə hallarında tətbiq edilməlidir.

360. Bundesver gələcəkdə başqa xidmətlər göstərə və Almaniyanın beynəlxalq öhdəliklərini yerinə yetirə bilməyi bacarmalıdır. Məhz bunun üçün silahlı qüvvələr daim yenisi ilə əvəz olunmalı və ehtiyacına görə maliyyələşdirilməlidir. Yalnız belə olan təqdirdə Bundesver iddia etdiyi öhdəlikləri yerinə yetirə bilər və Almaniya sabahdan dünyada təhlükəsiz-siyasi baxımdan effektiv, federal dövlətə dayanıqlı və formalaşdırıcı olaraq qalır.

361. Bundesver demokratiyada uğurlu silahlı qüvvələrin olması üçündür. O, qorxuducu ordudan vahid sülh ordusuna çevrilmiş və özünü bu sahədə yaxşı göstərmişdir. Bizim üçün Bundesver təməl qanunda və beynəlxalq hüquqda qərar tutan siyasətin alətidir.

Bundesverin əsgərləri möhtəşəm nailiyyətlər əldə edirlər və xaricdə bununla ölkəmizin imicini bütün dünyada tanıdırlar. Biz məcburi hərbi xidməti dəstəkləyirik. O, özünü dəyişkən təhlükəsizlik siyasətinin şərtlər çərçivəsində isbat edir və təhlükəsizlik siyasətinin tələblərinə uzlaşdırılır və müvafiq olaraq inkişaf etdirilir. Bundesverin qulluğa hazır olmalarına və şəffaflığına yalnız kifayət qədər ixtisaslı ehtiyatda olanların sayı vasitəsilə həyata keçirilir. Bunun əsası ümumi məcburi hərbi xidmətdir. Biz mülkü xidməti alternativ hərbi xidmət kimi saxlamaq istəyirik. Onun sosial siyasi və gənclər üçün siyasi əhəmiyyəti var.

362. Kürəsəl problemlərlə məşğul olmaq üçün Birləşmiş Millətlər böyük legitimliyə malikdir. Birləşmiş Millətlər bütün dünyada insan haqlarının, azadlığın, demokratiyanın və hüquqi dövlətçiliyin irəliləyişinə kömək etmək və yaranışı qorumaya və beynəlxalq hüququn daha da inkişaf etməsinə töhfə vermək üçün daha effektiv və təsirli olmalıdır.

363. Təhlükəsizlik Şurasının islahatı zamanı biz Avropa İttifaqının təhlükəsizlik şurasının daimi üzvü olmasını dəstəkləyirik. Almaniya bu məqsədlə Təhlükəsizlik Şurasının daimi üzvü olaraq üzərinə daha çox öhdəliyin götürməsinə hazırdır.

364. Biz azad və doğru dünya ticarəti ilə getdikcə inteqrasiya olmuş dünya iqtisadiyyatının tərəfdarıyıq və buna görə Dünya Ticarət Təşkilatı kimi qurumları gücləndirmək istəyirik. Almaniya üçün beynəlxalq ticarət yolları həyati önəmli maraqdır. Bununla ölkəmizə bütün dünyada rifahın artırılmasında iştirak üçün daha yaxşı imkan yaranır. Eyni zamanda azad və ədalətli ticarət yoxsulluğun azalmasına kömək edəcək və dövlətin laxlamaq təhlükəsi olan iqtisadi, siyasi sabitliyinə töhfə verəcək.

365. Almaniyanın marağındadır ki, o, bir çox ölkələrin inkişaf problemlərinin - yoxsulluq, ləng inkişaf, insan hüquqlarının pozulması, epidemiya, ətraf mühitin korlanması, müharibələr, terrorizm və dövlətin dağılması - həllində iştirak etsin. Bizim tərəfdaş əməkdaşlığımızın inkişaf siyasəti üç sütuna istinad edir: Birincisi, yoxsulluqdan əzab çəkənlərə və xristian simamızın əsasındakı yaranışa qarşı məsuliyyət; ikincisi, risklərdən qorunma və üçüncüsü, siyasi, iqtisadi və elmi tərəfdaşlığımızın gücləndirilməsi. İnkişaf tərəfdaşlığı bizim üçün fərdi islahat təşəbbüslərinin güclənməsi və inkişaf etməkdə olan ölkələrin birgə məsuliyyətini tələb etmək deməkdir.

366. İnkişaf siyasəti dəyər ilə əlaqələndirilir. O, dünya düzəni siyasətinin bir hissəsidir. Biz liberal demokratiyada, hüquqi dövlətçilikdə, yaxşı hakimiyyət rəhbərliyində və eyni zamanda həyatın təməl əsaslarını qoruyan sosial bazar iqtisadiyyatlı quruluşda doğru yolun və yoxsul ölkələrdə inkişafın dəstəklənməsini görürük. Bu məqamlar inkişaf siyasətimizin özək elementləridir. Uzun müddətli təsir etməli olan inkişaf əməkdaşlığı inkişaf etməkdə olan ölkələrdə xüsusən də siyasi qərar qəbul edənlərin və elitanın müntəzəm fərdi səylərini şərtləndirir. Biz özünə yardıma kömək edirik.

367. Biz inkişaf əməkdaşlığında iştirak edənlərin xidmətlərini tanıyırıq. Kilsələr və Qeyri-Hökumət Təşkilatları inkişaf etməkdə olan ölkələrdəki əhaliyə bilavasitə kömək edir. Siyasi fondlar inkişaf etməkdə olan ölkələrdə dövlətin qurulmasında dəstək vermədə, hüquqi dövlətçiliyə, parlament və partiyaların müzakirələrinə yardımda, demokratik qanunlarda habelə insan hüquqlarının bərqərar olmasında nəzərəçarpan rol oynayır. Eləcə də iqtisadi çaba üçün çərçivə şərtlərinin təkmilləşdirilməsi özəl sektoru möhkəmlədərək inkişaf etməyə yardım siyasətinin məqsədlərini əldə edə bilər. Özəl sektor ilə işbirliyi mülki-hərbi əməkdaşlıq kimi böyük əhəmiyyət kəsb edir.

368. Şəxsi ianələrin yüksək miqdarı insanlarla paylaşımın hazırlığına dəlalət edir. Şəxsi təşəbbüsü irəli çəkmək dövlətin vəzifəsidir. Biz inkişaf siyasəti tədbirlərini milli xalis gəlirin 0,7 faizinə qaldırılmasını beynəlxalq məsuliyyət kimi başa düşürük.

369. Təhlükəsizlik, inkişaf və insan hüquqları bir-birindən ayrılmazdır. İnsan hüquqları bölünməzdir. Demokratiya, azadlıq, hüquqi dövlətçilik və azlıqların hüququ təhlükə altına düşərsə, XDİ hər zaman səsini yüksəldəcək. İnsan hüquqları və əsas azadlıqlar suverenlik prinsipi ilə yanaşı bütün dünyada üstünlük qazanmalıdır. Biz azad, hüzurlu və ədalətli dünyanın formalaşmasına öz töhfəmizi veririk.

## XDI-nin yeni əsas prinsiplər proqramındakı əsas sözlərin siyahısı

*Müvafiq əsas sözlərin mənaca uyğun sözlərinin və söz variantlarının rast gəldiyi paraqraflara istinad edilir.*


| **Əsas sözlər** | **Paraqraflar** |
|---|---|
| Yaş sığortası | bax. Sosial təminat |
| Yaşlı insanlar (Yaşlılar) | 52, 59, 61, 62, 63, 64, 65, 171, 176, 190, 194, 195 |
| Əmək (İş) | 29, 82, 170, 175 |
| İşə götürən | 82, 113, 175, 177, 195 |
| İşə götürülən | 45, 147, 150, 152, 172, 173, 174, 177, 195 |
| İşsizlik sığortası | bax. Sosial təminat |
| Əmək bazarı | 112, 171, 172, 177, 201, 203, 225 |
| Bitmiş təhsil (Təhsil) | 61, 92, 95, 100, 102, 103, 108, 112, 113, 114, 124, 163, 331 |
| Əlillər | 105, 206, 207, 232 |
| İş fəaliyyəti | 30, 45, 60, 61, 77, 78, 81, 83, 111, 112, 163 |
| Təhsil | 29, 48, 87, 90, 92, 94, 95, 96, 97, 99, 101, 102, 103, 106, 107, 108, 115, 130, 132, 171, 206, 221, 235, 309, 311, 354 |
| Təhsil sistemi | 96, 99, 103, 106, 115 |
| Biolojitibb | 40, 233 |
| Almaniya Silahlı Qüvvələri | 293, 340, 359, 360, 361 |
| Vətəndaş | 225, 265, 266, 267, 268, 269, 270, 271, 353 |
| Vətəndaş hüququ | bax. İnsan hüquqları |
| Bürokratiyanın ləğvi | 163, 221, 259, 295 |

| | |
|---|---|
| Şanslar / İmkanlar | 13,24, 28, 29, 30, 38, 43, 45, 47, 48, 55, 56, 57 58, 81, 90, 92, 112, 115, 117, 150, 161, 163, 171, 172, 177, 180, 181, 199, 223, 225, 233, 235, 246, 249, 262, 303, 312, 331 |
| Şanslar aləmi / İmkanlar aləmi | 24, 28, 48, 55, 58 |
| Xristian | 1,2,3, 4, 5, 6, 9, 10, 27, 28, 39, 55, 61, 68, 101, 125, 146, 150, 232, 234, 279, 281, 306, 314, 365 |
| Demoqrafiya | 38, 51, 185, 208, 224, 225, 230 |
| Demokratiya /demokratik | 9,10,17, 29, 32, 33, 43, 50, 101, 129, 130, 132, 140, 162, 219, 220, 225, 266, 282, 283, 284, 290, 307, 315, 318, 322, 345, 352, 353, 355, 362, 366, 367, 369 |
| Nikah | 29, 70, 71, 73, 80, 85, 180, 267 |
| Həyat yoldaşlarının gəlirləri ilə vergi miqdarını təyin etmə əməliyyatları | 85 |
| Yüksək vəzifə | 63, 64, 104, 180, 266, 268, 272, 269 |
| Mülkiyyət | 13, 143, 156, 174, 258, 289 |
| Fərdi məsuliyyət | 14, 29, 74, 93, 100, 110, 124, 181, 186, 196, 214, 216, 258, 265, 274 |
| Valideynlər (ata-ana) | 62, 63, 68, 69, 71, 78, 81, 85, 86, 87, 88, 97, 108, 197, 286 |
| Enerji | 41, 49, 243, 245, 257, 313, 338 |
| ● Enerjinin istifadəsi | 242, 244 |
| ● Enerji tədqiqatı | 249, 263 |
| ● Enerji təchizatı | 116, 168, 243, 245, 249, 250, 313, 314 |

● Bərpa edilən enerji 244, 246, 247, 257, 260, 262
● Nüvə enerjisi 248
İnkişaf siyasəti 236, 239, 241, 253, 335, 339, 343, 345, 346, 361, 362, 364-369
Tərbiyə 29, 57, 81, 83, 86, 87, 88, 97, 193, 197, 206
Avropa 33, 34, 36, 37, 114, 123, 125, 129, 151, 220, 250, 300, 310, 311, 312, 323, 331,333, 335, 337, 340, 341, 342, 349, 350, 351, 353-356
Avropa İttifaqı 151, 166, 168, 223, 227, 243, 254, 292, 299, 309, 314-322, 324, 325-336, 338, 339, 340, 342, 344, 348, 349, 359, 363
Ailə 29,57,60, 61, 63, 67, 68, 69, 70, 71, 72, 73, 74, 75, 76, 77, 78, 79, 80, 81, 82, 83, 84, 85, 87, 130, 134, 145, 180, 191, 206, 267, 289, 311
Ailə gəlirləri 85
Maliyyə 87,121,163, 164, 168, 183, 185, 187, 188, 199, 203, 208, 209, 210, 212, 213, 214, 216, 228, 319
Tədqiqat / Araşdırma 40,109,110,116,117, 118, 119, 120, 121, 122, 123, 124, 156, 218, 226, 233, 235, 237, 238, 249, 263, 331
Federalizm / federativ 36, 213, 219, 279, 299-302

| | |
|---|---|
| Azadlıq / Şəxsin azad inkişafı | 2,9-17,23,24, 26, 27, 28, 29, 34, 38, 42, 49, 55, 56,58,68, 91, 99, 117, 127, 136, 137, 138, 140, 141, 143, 144, 149, 154, 155, 165, 167, 187, 233, 265, 266, 271-276, 278, 283, 284, 285, 291, 299, 307, 315, 316, 336, 341, 343, 362, 369 |
| Sülh / barış | 20, 26, 33, 49, 129, 142, 276, 316, 317, 338, 341, 343, 357, 361 |
| Nəsil | 8, 22, 29, 41, 57, 59, 60, 61, 69, 71, 76, 145, 170, 191, 234, 239, 255, 273, 300 |
| ● Şanslar ədalətliliyi / Ədalətli şanslar | 24, 55, 92, 150 |
| ● Ailələrin ədalətliliyi | 84, 85, 86 |
| ● Nəsillərin ədalətliliyi / Nəsillərin həmrəyliyi | 22, 53, 190, 209 |
| ● İş ədalətliliyi | 177, 183 |
| Sağlamlıq | 63, 184, 186, 187, 188, 204, 251, 272 |
| Həmkarlar | 173, 309 |
| Eyni hüquqluluq | 30, 307 |
| Kürəsəlləşmə | 38, 42, 43, 45, 135, 136, 139, 150, 159, 160, 166, 223, 299, 302, 314, 315, 316, 331, 338, 345 |
| Əsas qanun | 3, 34, 70, 210, 279, 282, 361 |
| Əsas dəyərlər | 10, 58, 217, 307 |
| Sənət | 163, 169, 257 |
| Büdcə | 109, 161, 168,188,197,203,208,210,211, 215 |

| | |
|---|---|
| Vətən | 33, 129, 255, 295, 299, 304, 326, 327, 359 |
| Ali məktəblər | 109, 110, 111, 118, 119, 122 |
| Kimlik | 4, 28, 33, 57,125,144, 151, 299, 313, 314, 326, 329 |
| İnteqrasiya | 34, 35, 57, 66, 108, 129, 133, 289, 302, 303, 304, 307-311, 325, 337 |
| Gənclər | 56, 59, 60, 61, 62, 69, 87, 101, 102, 106, 112, 113, 130, 134, 289, 303 |
| Ədliyyə | 290, 291, 296, 297 |
| Uşaqlar | 22,29,34, 35, 52, 60, 61, 62, 68, 69, 70, 71, 72, 73,74,78, 79, 81, 82, 83, 84, 85, 86, 87, 88, 89, 93, 96, 97, 105, 108, 152, 188, 191, 193, 206, 209, 234, 303 |
| Kilsə | 4, 36, 146, 180, 267, 279, 281, 309, 367 |
| İqlimin mühafizəsi | 57, 235,237,239, 241, 242, 244, 246,248, 249, 252 |
| Kommunal siyasət | 14,127,165, 211, 216, 228, 238, 267, 299, 300, 301, 309, 318, 325 |
| Xəstəlik sığortası | bax. Sosial təminat |
| Mədəniyyət | 34, 35, 36, 37, 50, 56, 57, 75, 125-134, 219, 226, 255, 280, 306, 307, 309, 313, 323, 326, 343, 347 |
| İşdən azadetmə mühafizəsi | bax. Əmək bazarı |
| Kənd təsərrüfatı | 257, 259, 260, 262, 264 |
| Həyatın qorunması | 5, 26, 231, 232, 234 |

| | |
|---|---|
| Xidmət, iş bacarığı | 4, 5, 13, 14, 15, 16, 19, 29, 33, 34, 42, 55, 69, 76, 79, 84, 88, 91, 96, 103, 106, 107, 108, 112, 119, 127, 129, 142, 144, 147, 150, 162, 163, 165, 169, 177, 187, 192, 193, 197, 199, 208, 216, 217, 219, 220, 224, 225, 227, 249, 258, 259, 273, 277, 295, 296, 298, 304, 306, 336, 338, 347, 367 |
| Aparıcı mədəniyyət | 37, 57 |
| Əlavə əmək haqqı xərcləri | 179, 212 |
| Bazar | 42, 44, 45, 47, 116, 119, 122, 138, 143, 150, 151, 153, 154, 155, 157, 158, 159, 163, 165, 166, 169, 250, 259, 260, 331, 338, 342 |
| Media | 133, 134, 274, 283, 286, 289, 309, 349, 353 |
| İnsan siması | 5-9, 55, 306, 320, 365 |
| İnsan hüquqları | 10, 26, 43, 132, 150, 152, 307, 343, 362, 367 |
| İnsan ləyaqəti | 2, 5, 6, 9, 13, 16, 23, 34, 40, 68, 91, 117, 139, 140, 146, 231, 233, 275, 287 |
| Razılıq | 146, 173, 299 |
| Orta təbəqə | 123, 163, 226, 235 |
| Mobillik | 42, 99, 195, 251 |
| Millət | 32, 33, 34, 125, 129, 255, 282, 311, 313, 318, 321, 326 |
| NATO | 340, 349, 358 |
| Təbiətin mühafizəsi | 238, 253, 258 |
| Yeni torpaqlar | 4, 219, 220, 221, 222, 224-228, 230 |
| Yeni borcların qadağası | 210 |

| | |
|---|---|
| Düzən siyasəti | 143, 366 |
| Vətənpərvərlik | 33 |
| Qulluq | 63, 81, 186, 193, 206 |
| Qulluq sığrtası | bax. Sosial təminat |
| Polis | 290, 293, 337 |
| Xəstəliyin qarşısının alınması | 63, 185, 186, 198, 204, 272 |
| Hüquqi dövlət | 13, 17, 23,29,33, 101, 225, 282, 287, 296, 315, 345, 352, 353, 362, 367, 369 |
| Təqaüd sığortası | bax. Sosial təminat |
| Borclar | s. Büdcə |
| Məktəb sistemi | 96, 98, 99, 100, 104, 108, 112, 115 |
| Təhlükəsizlik | 20, 45, 50, 55, 57, 58, 93, 137, 161, 180, 181, 182, 187, 204, 248, 263, 284, 285, 286, 290, 294, 313, 326, 332, 333, 334, 335, 339, 340, 343, 345, 346, 349, 357, 359, 364, 369 |
| Həmrəylik | 18,19,20, 21, 22, 33, 55, 57, 58, 60, 67, 68, 74, 93, 138, 141, 142, 180, 181, 183, 217, 220, 232,343, 346 |
| Pensiya sığortası sistemi | 213, 228 |
| Sosial | 4, 13, 18, 20, 25, 26, 33, 43, 45, 53, 55, 57, 59, 60, 63, 66, 67, 71, 75, 76, 87, 92, 93, 101, 104, 106, 108, 135, 139, 144, 146, 147, 148, 151, 152, 159, 161, 179, 180, 181, 182, 183, 188, 197, 208, 209, 234, 279, 298 |
| Sosial dövlət | 3, 13, 20, 33, 38, 182, 298 |

| | |
|---|---|
| Sosial bazar iqtisadiyyatı | 3, 29, 33, 55, 57, 135, 137, 138, 139, 140, 141, 142, 143, 160, 162, 170, 225, 237, 294, 333 |
| Sosial təminat | 20, 141, 188, 194 |
| ● İşsizlik sığortası | 200, 201, 202, 203 |
| ● Qulluq sığortası | 196, 197, 198, 199 |
| ● Təqaüd sığortası | 86, 189, 190, 192 |
| ● Qəza sığortası | 204 |
| İdman | 104, 272, 273, 274, 309 |
| Dövlət vəzifələri | 14, 273 |
| Vergilər | 61, 85, 121, 163, 208, 212, 214, 216, 217, 218, 237, 251, 270 |
| Yardımçılıq | 14, 21, 31, 67, 161, 183, 297, 315, 319 |
| Tarif autonomiyası | 146, 173 |
| Tarif tərəfləri | bax. İşə götürən və həmkarlar |
| Terrorizm | 49, 50, 291, 292, 293, 336, 337, 345, 352, 365 |
| Heyvanların mühafizəsi | 254, 260 |
| Transatlantik tərəfdaşlıq | 315, 333, 341, 342, 348, 349, 350 |
| Ətraf mühit | 38, 49, 57, 145, 234, 235, 236, 237, 238, 243, 245, 246, 251, 252, 253, 254, 257, 258, 260, 262, 333, 365 |
| Ətraf mühütin mühafizəsi | 235, 236, 237, 254 |
| Qəza sığortası | bax. Sosial təminat |
| Universitetlər | bax. Ali məktəblər |
| Sahibkar | 122, 144, 145, 147, 148, 150, 157, 208, 226, 259, 270 |
| ABŞ | 341, 342, 350 |

| | |
|---|---|
| Ana vətən | 4 |
| İstehlakçı | 45, 159, 167, 252, 259, 260 |
| Xalq partiyası | 1, 3, 38, 150, 285, 323 |
| Tam məşğulluq | 29, 161, 170 |
| Rəqabət | 29, 42, 44, 45, 47, 99, 110, 112, 116, 124, 133, 141, 143, 149, 151, 153, 154, 155, 158, 163, 165, 166, 167, 178, 183, 187, 213, 218, 223, 225, 226, 227, 233, 250, 260, 331, 333, 348 |
| Yenidən birləşmə | 4, 33, 129, 219, 350 |
| İqtisadiyyat sahəsi | 109, 148, 163, 164, 168, 208 |
| Elm | 116, 117, 118, 120, 121, 122, 123, 124, 129, 132, 221, 226, 248, 365 |
| Elm aləmi | 38, 46, 57, 95, 109 |
| Rifah / Tərəqqi | 16, 47, 49, 55, 71, 90, 94, 115, 116, 119, 136, 137, 141, 142, 147, 149, 158, 161, 170, 175, 182, 209, 234, 251, 316, 317, 330, 331, 333, 341, 343, 364 |
| Ləyaqət | bax. İnsan ləyaqəti |
| Mülki xidmət | 361 |
| Gəlmə | 304, 309 |